# Quranda yalançının üsulları

Harun Yəhya (Adnan Oktar)

# İçindəkilər

**Giriş**

Yalan danışmaq haramdır

İnsanlar hansı hallarda və niyə yalan danışar?

Allah hər şeyi bilən, görən və eşidəndir

Yalan danışmaq şeytanla əməkdaşlıq etmək deməkdir

Yalançının qaranlıq ruh halı

Yalançının özünü aldatma üsulları

Yalançının üslubu və rəftarı

Yalançının itirdikləri

Yalançının hiyləgərliyi

Quranda bildirilən yalançılar

Yalanı səmimi şəkildə etiraf etmək Allaha olan sədaqəti göstərər

Yalançılığın həlli: Allah qorxusu

Axirətdə heç kim yalan danışa bilməyəcək

Peyğəmbərimiz (s.ə.v)-in yalandan çəkinməklə əlaqədar hədisləri

İslam alimlərinin yalanın zərərləri ilə əlaqədar sözləri

Nəticə: Dürüst olanlar həmişə qazanar

Darvinizmin tənəzzülü

# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən

insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# Giriş

İnsanların böyük əksəriyyəti özlərinin yaxşı insanlar olduqlarını, pis əxlaqa sahib olmadıqlarını iddia edərlər. Heç kimə zərərlərinin toxunmadığını və pis tərəflərinin olmadığını söyləyərlər. Halbuki, bu insanların çox böyük əksəriyyəti, Allahın məmnun olmadığı, insanlara qadağan etdiyi bir çox pis əxlaq xüsusiyyətinə sahibdir. Lakin bu pis əxlaq xüsusiyyətləri, bəzi cəmiyyətlərdə geniş yayıldığı və normal qarşılanıb qəbul edildiyi üçün, pis və çirkin qarşılanmır. Məsələn, dedi-qodu etmək, Allahın qadağan etdiyi, hətta bir insanın dedi-qodu etdiyi zaman, ölü qardaşının ətini yemək qədər iyrənəcəyi bir hərəkət etdiyini bildirdiyi davranışdır (Hucurat surəsi, 12). Buna baxmayaraq, bir çox insan bir yerə toplandıqda, başqa insan barədə dedi-qodu edər. Hətta, dedi-qodu üçün televiziya proqramları və jurnallarda köşələr ayrılır.

Dedi-qodu kimi lağlağılıq, xəsislik, qürur kimi xüsusiyyətlər də, Allahın insanları xəbərdar etdiyi və qarşılığının cəhənnəm olduğunu ifadə etdiyi çirkin hərəkətlərdir. Lakin, insanların böyük əksəriyyəti bu xüsusiyyətlərə sahibdir və bunları çox zərərli hesab etməzlər. Bu insanlar bir qatilin, oğrunun və ya qırğınlar törədən azğın bir diktatorun çox pis insan olduğuna qənaət gətirərlər, lakin yuxarıda göstərilən tərzdəki əxlaq pozuntularını öz aləmlərində zərərsiz və əhəmiyyətsiz hesab edərlər. Halbuki, hər cür əxlaqsızlığın, dərəcəsinə görə Allah dərgahında ədalətlə verilmiş qarşılığı var.

Bu kitabın mövzusunu təşkil edən yalançılıq, insanların bir hissəsinin üstündə çox dayanmadığı, başqaları etdiyi zaman, çox vaxt görməzlikdən gəldiyi, özləri etdikdə isə günahsız hesab etdikləri və insanların çox böyük hissəsinin sahib olduğu pis bir xüsusiyyətdir.

Dünyanın hər yerində, hər təbəqədən olan insanların mühüm hissəsi, kiçik yaşlarından etibarən tez-tez yalana müraciət edər. Bəziləri insanlara göstəriş etmək üçün, bəziləri təkəbbüründən, bəziləri insanları güldürmək üçün, bəziləri müəyyən mənfəət təmin etmək üçün, bəziləri kimdənsə özünü qorumaq üçün, bəziləri də başqasına pislik edərək böhtan atmaq üçün yalan danışar. Böyük əksəriyyəti isə çox sadə səbəblərdən ötrü və ya sırf vərdiş etdiyi üçün yalan danışar, lakin yalanın əslində nə qədər pis əxlaq pozuntusu olduğunu, Allahın yalan deyilməsini qadağan etdiyini və yalançıların axirətdə cəhənnəmlə qarşılıq görəcəklərini heç düşünməz.

Bu kitab insanları, kiçik, günahsız və ya zərərsiz hesab etdikləri, lakin özləri üçün böyük təhlükə olan yalançılığa qarşı xəbərdar etmək, onlara yalan danışmağın haram olduğunu xatırlatmaq üçün hazırlanmışdır. Kitabda, insanların niyə yalana müraciət etdikləri, yalan danışmaqdan necə imtina ediləcəyi, dürüstlüyün insana nələr qazandıracağı kimi mövzularla yanaşı, yalançıların ruh halı, yalanlarını xilasetmə üsulu kimi mövzulardan da bəhs ediləcək. Yalançılığın üsullarının ortaya çıxarılması, yalan danışanların əsaslandıqları üsullarını əllərindən alacağı üçün, müəyyən mənada onları dürüstlüyə məcbur edəcək.

# Yalan danışmaq haramdır

Bəzi insanların ən böyük səhvlərindən biri, Allahın Quranda bildirdiyi şəkildə deyil, öz yanlış məntiqləri və ya cəmiyyətdə geniş yayılmış bəzi batil dəyər mühakimələri ilə hərəkət etmələridir. Bunun üçün heç düşünmədən, Allahın heç sevmədiyi və axirətdə cəzalandıracağı davranışları təsdiqləyə bilir, görməzlikdən gələ bilir və ya düşünmədən tətbiq edə bilir. Yalan danışmaq da, bu cür davranışların başında gəlir. Hər nə qədər cəmiyyətdə yalançılıq pis əxlaq xüsusiyyəti kimi bilinsə də, bu bəzən sözdə qalar. Çünki insanların mühüm hissəsi, ciddi xarakter pozuntusu olan yalançılığı vərdiş halına gətirmişdir. Allah bir ayəsində bu həqiqəti belə bildirir:

**Yer üzündə olanların əksəriyyətinə itaət etsən, səni Allahın yolundan azdırarlar. Onlar təkcə zənnə uyar və onlar təkcə "zənn və təxminlə yalan danışarlar". (Ənam surəsi, 116)**

Qəribə olan isə, yalan danışan insanın ətrafındakılar tərəfindən əsasən başa düşülməsi, lakin buna baxmayaraq, ifşa edilməməsi və bu insanın da, bunu bilə-bilə yalanlarına davam etməsidir. Yalançılıq bəzi insanlar arasında yaşadılan gizli dil kimidir. Bu cür cəmiyyətlərdə hər kəs bir-birinə bu mövzuda göz yumar, görməzlikdən gələr. Məsələn, yalan danışaraq ətrafındakılara göstəriş edən bir insanı, həmin mühitdəki insanlar çox vaxt ifşa etməzlər. Hətta özləri də göstəriş etmək üçün yalanlar uyduraraq, ilk yalan danışana çatmağa çalışarlar.

Yaxud iki insanın olduğu bir yerdə bir şey sındığı zaman, "bunu kim sındırdı?" sualına belə ehtiyac olmaz. Çünki soruşan insan sındırmadığına görə, digəri sındırmışdır. Lakin buna baxmayaraq, sındıran insan "mən sındırmadım" deyərək yalan danışar və öz ağlına görə "həmin anı qurtarar". Halbuki, özünü çox pis vəziyyətə salmışdır və bundsan xəbərsizdir. Çünki həm yalançı olduğu ortaya çıxmış və buna görə də, qurtarmağa çalışdığı qüruru, əslində daha çox zədələnmiş, həm də (ən əhəmiyyətlisi) uca Allahın razı olmadığı bir hərəkət etmişdir. Çünki yalan danışmaq haramdır. Necə ki, bir müsəlman haram olduğu üçün donuz əti yeməz və buna böyük diqqət göstərərsə, yaxud 5 vaxt namazını qılarsa, yalan danışmaq da eynilə diqqət göstərilməsi lazım olan haram hərəkətdir.

Lakin yalanın haram olduğunu düşünməyən insanlar, çətin vəziyyətdə qaldıqları hər şəraitdə, özlərini xilas etmək üçün dərhal yalana müraciət edərlər. Bəlkə həmin an həqiqətən çətin vəziyyətdən özlərini xilas edər və ya xilas etdiklərini zənn edərlər, lakin tövbə etmədikcə və dürüst insan olmadıqca, yalançılıqlarına görə, axirətdə məsul ola bilərlər.

Allah, Quranda ayələrinə inanmayanların yalan danışdıqlarını belə bildirir:

**Yalanı təkcə Allahın ayələrinə inanmayanlar uydurar. Məhz əsil yalançılar onlardır. (Nəhl surəsi, 105)**

İnsanların bir hissəsi axirəti düşünmədikləri üçün, bir hissəsi də, söylədikləri yalanların zərərsiz olduğunu zənn etdikləri üçün asanlıqla yalan danışa bilirlər. Bəzi cəmiyyətlərdə olduqca geniş yayılmış "ağ yalanlar" ifadəsi də bunun bir nümunəsidir. Guya ağ yalanlar, heç kimə zərər verməyən, günahsız, insanı həmin an bir çətinlikdən xilas edən kiçik yalanlardır. Bu cür yalanların heç bir problemi olmadığına inanarlar. Lakin yalan, istənilən halda səmimiyyətsizlik, ikiüzlülük və saxtakarlıqdır. Yalan danışan insan, qarşısındakı insanı aldadır, ona qarşı səmimiyyətsiz davranır, ona hörmət və sevgi bəsləmədiyini göstərir. Buna görə də, yalanı, qara və ya ağ kimi sifətlərlə təsnif edib, "bu yalandan heç nə olmaz", "bu zərərsizdir" kimi çıxarışlar etmək düzgün deyil.

Yalan, Allahın məmnun olmadığı və insanlara qadağan etdiyi bir davranışdır. Peyğəmbərimiz (s.ə.v) də, bunu tez-tez dilə gətirmişdir. Peyğəmbərimiz (s.ə.v)-in bu məsələ ilə əlaqədar sözlərindən bəziləri belədir:

*"Yalanın hər növü günahdır..."*(1)

*"Ey insanlar, pərvanənin oda atılması kimi, sizi yalanın arxasına düşməyə sövq edən şey nədir?"*(2)

*"Yalan söz, böyük günahlardandır".*(3)

# Mömini dürüst edən Allah qorxusudur

***Müxbir***: *Allah qorxusundan bəhs etdiniz, yaxşı, belə bir sual vermək istəyirəm. Niyə Allahdan qorxmalıyıq?*

***Adnan Oktar***: *Allahdan qorxmaq, bizə, eşqi, sevgini, məhəbbəti verər. Yəni Allah qorxusu sevginin bütün zəminini meydana gətirər.* ***Məsələn, dürüst olmağımızı təmin edər, yalan danışmamağımızı təmin edər, mərd olmağımızı təmin edər, vəfalı olmağımızı təmin edər, əziyyətə alışmış olmağımızı təmin edər. Bunlar eşqin və sevginin köküdür, yəni eşq və sevgi bu kökdən əmələ gələr.*** *Gözəl əxlaq olmayan zəmində sevgi yaranmaz, məhəbbət yaranmaz. (Adnan Oktarın Denge telekanalına verdiyi müsahibədən, 9 dekabr 2009-cu il)*

# Həqiqi sevgi, dürüst insanlar arasında yaşanar

***Adnan Oktar***: *Romantizm məntiqli olmağı aradan qaldırır. Tutarlı danışmağı aradan qaldırar. Məsələn, bir kişi bir qadınla bərabərdirsə, ona qarşı emosional hərəkətlər etməsi, romantizmə uyğun hərəkətlər etməsi onu avtomatik şəkildə süniliyə sürükləyəcək. Qadınların da ən nifrət etdiyi şey sünilikdir. İstər kişi, istərsə də qadın olsun, insanlar süniliyi xoşlamaz. Təbii insan çox təsiredicidir.* ***Bir qadına ən təsir edəcək şey qarşıdakı insanın dürüstlüyü, səmimiyyəti, Allah qorxusu, etibarlı olması, stabil və ağıllı olmasıdır,*** *emosionallığı ağıllı bir qadını nifrət etdirər, qəzəbləndirər hətta. Narahat olar belə insandan. Lakin ağıllı, tutarlı, dərin düşünən insanı çox xoşlayar bir qadın. Onun ehtirasa olan dərinliyini, ağlını gördüyü zaman, Allah onda, ruhunda xüsusi güc meydana gətirər, qadın bu zaman onu çox sevər və çox təsirlənər ondan, ruhunda təsvir edə bilmədiyi zövq meydana gələr. Altıncı hiss meydana gələr. Lakin romantizmdə qarşılıqlı teatr sənətçisi kimi, qarşılıqlı aldatma var və xeyli alçaldıcı olar təbii ki. (Adnan Oktarın Ekin telekanalına verdiyi müsahibədən, 19 yanvar 2009-cu il)*

# İnsanlar hansı hallarda və niyə yalan danışar?

## Qürur və təkəbbürdən ötrü deyilən yalanlar

Qürur, şeytana məxsus xüsusiyyətdir və insanın gözəl əxlaqdan uzaqlaşmasına, şeytanın əxlaqına bənzər əxlaqa sahib olmasına səbəb olar. Şeytan, təkəbbürü, özündən razılığı və ağılsız şəkildə etdiyi qürurundan ötrü, Allahın sözünə tabe olmamış, itaətsizlik etmiş və bundan ötrü cənnətdən qovulmuşdur.

Qüruru üçün itaətsizlik və pis əxlaq göstərən şeytanın, əslində qüruru daha da çox sınmışdır, eləcə də, lənətlənmiş və alçaldılmış şəkildə qovulmuşdur.

Allah şeytanın etdiyi itaətsizliklə alçaldığını bir ayəsində belə xəbər vermişdir:

**(Allah:) "O zaman oradan en, orada təkəbbürlənmək sənin (haqqın) olmaz. Dərhal çıx. Həqiqətən sən alçalanlardansan". (Əraf surəsi, 13)**

Şeytan, ən çox cəhənnəmdə alçaldılacaq və hər şeydən üstün hesab etdiyi qüruru ucbatından əbədiyyən əzab içində qalacaq.

Şeytan, insanları da özü kimi doğru yoldan azdırmaq üçün qəti qərar vermişdir. Buna görə də, bütün gücündən insanları günaha sürükləmək üçün istifadə edər. İnsanların qürur və təkəbbürlərini də, eynilə özündə olduğu kimi, onların əleyhinə təşviq edər. Buna görə də, təkəbbür, özündən razılıq, səhv və ya qüsur qəbul etməmək, özünü həmişə üstün və kafi görmək, bir insan üçün ola biləcək ən mühüm təhlükələrdəndir. Bu xüsusiyyətlər insanları həmişə günaha yönəldər və insanların itaətsiz, asi, əsəbi, təcavüzkar, lağlağı, lovğa olmalarına səbəb olar. Allah bir ayəsində bunu belə bildirir:

**Ona: “Allahdan qorx!” deyildikdə, lovğalıq onu günaha sürükləyər, bürüyər. Belə insana cəhənnəm kifayət edər. Ora nə pis yataqdır! (Bəqərə surəsi, 206)**

"Lovğalığın" insana etdirdiyi günahlardan biri də yalandır. İnsanlar, çox zaman lovğalıqlarından ötrü bəzi həqiqətləri qəbul etmək istəməz və dərhal yalana müraciət edərlər. Məsələn, belə biri, işində bir səhv etdiyi zaman, bunu qəbul etmək istəməz; cahil və ya bacarıqsız görünəcəyini düşündüyü və insanların gözündə alçalacağını zənn etdiyi üçün, dərhal yalan danışar. Yaxud bir şeyi almağı unutduğu zaman, onu unutduğunu söyləmək istəməz, bunun əvəzinə "getdim, lakin qalmamışdı" deyər.

Halbuki, yalan insanı xeyli alçaldıcı vəziyyətlərə salan bəladır. Lakin bəzi insanlar, qarşılaşdıqları hadisələrdə, sağlam düşünə bilməyərək, sırf həmin an özlərini xilas edə bilmək üçün dərhal yalan danışarlar. Halbuki yalanların bir çoxu bəlli olar və bu dəfə

insanların gözündə daha da alçalarlar. Həmçinin, insan, bir də axirətdə ala biləcəyi qarşılıq və buna görə düşə biləcəyi xeyli alçaldıcı vəziyyət olduğunu unutmamalıdır.

Allah bir ayədə insanlara nəfslərinə uyub, sözü dəyişdirərək ədalətdən imtina etməmələrinin lazım olduğunu belə bildirir:

**...O zaman ədalətdən imtina edib nəfslərinizə uymayın! Əgər dilinizi əyib bükər (sözü gəvələyər) və ya boyun qaçırsanız, şübhəsiz ki, Allah nə etdiklərinizdən xəbərdardır. (Nisa surəsi, 135)**

Səmimi mömin, heç vaxt özünü, öz maraqlarını Allahın məmnuniyyətindən və sevgisindən üstün tutmaz. Allaha olan sevgisi və bağlılığı, Allahın məmnun olmayacağı şeylər etməsinə mane olar. Həmçinin bir insan əgər həqiqətən şərəf və ya üstünlük istəyirsə, bunu dinə inanmayanların üsulları ilə etməməlidir. Həqiqi üstünlüyün necə qazanılacağı Quranda yazılmışdır. Allaha və Qurana tabe olan isə, həqiqətən üstün olar. Quranda Allah belə buyurur:

**...Halbuki izzət, (güc, şərəf və üstünlük) təkcə Allaha, Onun Rəsuluna və möminlərə məxsusdur. Lakin münafiqlər bilmirlər. (Münafiqun surəsi, 8)**

**Kim izzət sahibi olmaq istəyirsə, bilsin ki, izzət bütünlüklə Allaha məxsusdur. Gözəl söz Ona tərəf yüksələr və saleh əməl də onu yüksəldər. Pis əməlləri təşkil edənlər isə, onlar üçün şiddətli əzab var. Onların təşkil etikləri "puç olar". (Fatir surəsi, 10)**

# Qürur insanın vicdanının səsini dinləməsinə mane olar

***Adnan Oktar:*** *Lakin qəbul etməklə inanmaq arasında çox böyük fərq var. İndi qəbul etdirməyin deyil, inandırmağın üzərində dayansın qardaşımız. İndi o, elmi dəlillərlə izah etsə qarşıdakı insan inanar. İnandısa tamam, qəbul etmək ayrı məsələdir, qəbul etməməsi əhəmiyyətli deyil. İnanması əhəmiyyətlidir. Bizim izah etdiyimiz hər insan inanır. Lakin qəbul etmədiyi də olur,* ***nadir qəbul edən olar, çünki qürur var insanda, təkəbbür var, eqoistlik var****. İnsan bunu asanlıqla dəf edə bilməz, "mən, bəli qəbul etdim, düz deyirsən" deməz, lakin içində anlayar. İndi yatan insana deyirsən ki; "Günəş doğdu qalx", "Günəş doğmamışdır, sən məndən əl çək, mən yatım" deyir. Yəni bilir Günəşin doğduğunu o, başa düşməməzlik edir, yəni yatması lazımdır çünki, aydın oldu mu? Onlar da yuxularına davam etmək üçün, "Günəş doğmadı" deyirlər. Biz izah etdiyimiz insanların, milyonlarla insanın hidayətinə vəsilə olduq... Lakin qəbul etməz, çünki qəbul etsə ətrafındakı insanlara qarşı etimadı sarsılar, təcrid edilər, əzilər, lağa məruz qalar və bunlara dözə biləcək gücü olmaya bilər. Nə edər o zaman? Passiv müdafiə vəziyyətinə keçər. Nə edir passiv müdafiə vəziyyətində? Yoldaş deyir, mən qəlbən iman gətirdim, lakin dil olaraq, zahirən də iman gətirmirəm, deyir. Zahirən iman gətirmədiyi təqdirdə, onların lağa qoymasından, təzyiqindən, o şeyindən, bu şeyindən xilas olmuş olar. Qəlbən iman gətirmək də əsas olduğu üçün tamamdır. Yəni bir insanın doğrunu deyib də, ağıllı bir insanın qəbul etməməsi deyə bir məsələ yoxdur.* ***Lakin Allah ayədə deyir ki, baxın; "zülm və təkəbbür ucbatından doğrunu bildikləri halda qəbul etmədilər" deyir Allah.*** *Bax qəbul etmədilər, inanmadılar demir Allah elə deyil? Qəbul etmək ayrıdır, inanmaq ayrıdır.* ***Vicdanları qəbul etdiyi halda deyir Allah, daxilən qəbul edir. Bizim vəzifəmiz, vicdanən qəbul etdirməkdir. Zülm və təkəbbür ucbatından qəbul etməyə bilər insan.*** *(Adnan Oktarın Adıyaman Asu telekanalına verdiyi müsahibədən, 18 yanvar 2010-cu il)*

## Vərdiş nəticəsində deyilən yalanlar

İnsanların mühüm hissəsinin dilləri yalan danışmağa vərdiş etmişdir. Xüsusən uşaqlıq və gənclik illərində bəzi insanlar, heç tərəddüd etmədən yalan danışa bilirlər. Məsələn, dostlarıyla getdiyi yeri söyləmək məsələsində gənclərin bir çoxunun ağzı yalana vərdiş edib. Yaxud insanlara əsasən bir şeyi niyə etmədikləri sualı verildikdə, səhv bir şey etdikləri, bir şeyi unutduqları zaman verdikləri açıqlamalar yalan ola bilir. Ağzı yalan danışmağa vərdiş etmiş bu insanlar, bu cür yalanları çox vaxt heç düşünmədən söyləyərlər.

Bir az düşünsələr, səmimi verdikləri cavabda özləri üçün problem olmayacağını görəcəklər. Lakin uşaqlıq yaşlarından etibarən bu cür vəziyyətlərdə yalan danışmağa alışdıqları üçün, yenə bu üsula müraciət edərlər.

Yalanın ortaya çıxdığı digər vəziyyət isə, insanların fikirlərinə müraciət edilən anlardır. Bəzi insanlardan bir mövzu barədəki düşüncələri soruşulduqda, ümumiyyətlə əsil düşüncələrini dilə gətirmək əvəzinə, qarşı tərəfin eşitmək istədiklərini və ya mənfəətlərinə zidd olmayacaq cavabı verməyi üstün tutarlar. Qarşı tərəfin istədiyi cavabı verməyin altında isə ya qorxu, ya da qarşısındakı insanın rizasını qazanmaq istəyi yatır.

Öz mənfəətinə zidd olmayacaq cavabı vermək, dindən uzaq yaşayan insanlar arasında geniş yayılmış davranışdır. Bu cür insanlar müdafiə məntiqi ilə hərəkət edərək, "təbii ki, öz mənfəətlərimi qorumaq məcburiyyətindəyəm" şəklində yanlış anlayış formalaşdırıblar. Bu yanlış məntiq, cəmiyyətin din əxlaqından uzaq yaşayan fərdləri tərəfindən çox normal qarşılanar. Hətta Quran əxlaqını yaşayan bir insanın, ədaləti təmin etmək məqsədi ilə öz mənfəətini zədələyəcək bir açıqlama verməsi "gözəl əxlaq" kimi qiymətləndirilməz; bunun əvəzinə bu üstün əxlaqlı insana "saflıq" və ya "iş bilməməzlik" kimi həqiqətlərlə heç bir əlaqəsi olmayan çirkin bənzətmələr edilər.

Barəsində danışdığımız insanların öz mənfəətlərini qorumaq üçün zərərsiz hesab etdikləri yalanları növlərə ayırmaq olar. Məsələn, bir çox insan, bir dostu borc pul istədiyi zaman, imkanı olduğu halda vermək istəmirsə, dərhal yalana müraciət edər. Vermək istəmədiyini söyləməz, hətta əks-hücuma keçərək özünün də "borc pul axtardığı" və ya "işlərinin çox pis getdiyi" yalanını söyləyər. Bu üsul, qarşı tərəfin istəyinin bəri başdan qarşısını almaq məqsədi daşıyır. Quran əxlaqından uzaq yaşayan insanlar arasında geniş şəkildə rast gəlinən bu davranış əxlaq pozuntusu hesab edilmir.

Bundan savayı yalanı, müəyyən məqsədə əsaslandırmadan, vərdiş halına gətirən insanlara da rast gəlmək mümkündür. Bu yalanlar çox vaxt, insanın danışacaq bir mövzusu olmamasına və ya diqqət çəkmək istəməsinə də əsaslana bilər. Məsələn, heç kimi maraqlandırmadığı halda gecə bir dəfə oyanan bir insan, səhər oyananda "bütün gecə yatmadım" deyə bilir. Belə bir insan təkcə bir neçə saat ac qaldıqda belə, "bütün günü heç nə yemədim" deyər və ya başı az ağrıyar, lakin çox ağrıdığını və ağrıdan heç nə edə bilmədiyini söyləyər. Bunlar heç kimə zərər verməyəcək, kiçik yalanlar kimi qəbul

edilə bilər. Lakin əslində kiçik və ya böyük olmasından asılı olmayaraq, hamısı yalandır və Allah dərgahında məmnun qalınmayacağı bildirilmiş davranışlardır.

## Lağ etmək və hirsləndirmək üçün deyilən yalanlar

Yalanın səbəblərindən biri, qarşıdakı insanı hirsləndirmək, o insana onu saymadığını və məhəl qoymadığını göstərməkdir. Məsələn, təyin etdiyi bir görüşə gecikən insan, gözlətdiyi yoldaşının "bu saata qədər harda idin?" sualına, yalan olduğu çox aydın olan bir cavab verə bilər. Əslində buradakı məqsədi, qarşısındakı insanın gözləməsinə məhəl qoymadığını, onun tələblərinə dəyər vermədiyini ifadə etmək və onu öz deyimləriylə "axmaq" yerinə qoyaraq hirsləndirməkdir.

Lağ etmək üçün yalan danışmaq da geniş yayılmış əxlaqsızlıqdır. Məsələn, lağ etmək niyyətində olan bir insan, yoldaşını yaşanmamış bir hadisənin yaşandığına inandırar. Yoldaşının söylədiklərinə inanması, bu xəyali hadisəni inanaraq başqalarına danışması, bunun nəticəsində ətrafında "saf" hesab edilməsi, yalan danışan və eyni zamanda lağlağı olan insanı əyləndirər. Bu insan, yoldaşının saflığına lağ edər, özünü isə çox hiyləgər və ağıllı zənn edər. Halbuki həm Allahın razı olmayacağı bir rəftar göstərmişdir, həm də xoşagəlməz və sevilməyən bir insan olmuşdur. Dolayısilə öz qurduğu tələyə özü düşmüş, başqalarını alçaltmaq istəyərkən özü alçalmışdır.

Allah yalan kimi, lağ etməyi də qadağan etdiyini Hucurat surəsində belə bildirir:

**Ey iman gətirənlər! Bir camaat digərini məsxərəyə qoymasın. Ola bilər ki, bunlar onlardan daha yaxşı olsunlar. Qadınlar da qadınları lağa qoymasınlar. Ola bilər ki, bunlar onlardan daha yaxşı olsunlar... (Hucurat surəsi, 11)**

Bəzi insanlar, laqeydcəsinə, heç düşünmədən, bir neçə dəqiqə üçün özlərini lağ etmək və yalan danışmaqla əyləndirmək istəyərkən, əslində Allahın məmnun olmadığı və Quranda pis əxlaq kimi bildirdiyi rəftarları göstərirlər. Quran əxlaqına uyğun olmayan məntiqlə hərəkət edən insanlar, özlərinə bu etdiklərinin pis davranış olduğu deyildiyi zaman, "bunda nə var ki, təkcə əylənirdik" deyə bilirlər. Halbuki, lağ etmək və yalan danışmaq pis xüsusiyyətlərdir.

Bu iki pis xüsusiyyətin yaşadıqları cəmiyyətdə geniş yayılmış olması, hətta çox insan tərəfindən vərdiş halına gətirilmiş olması da, bu xüsusiyyətlərin İslam əxlaqına uyğun olmadığı hqəqiətini dəyişdirməz. Dolayısilə bu rəftarları qanuniləşdirməz. Həmçinin bu insanlar bir dəfə vicdanlarının səsinə qulaq assalar və hər kəsin özləri kimi olduğu bir mühitdə yaşamaq istəyib istəməyəcəkləri sualını cavablandırsalar həqiqəti görəcəklər. Heç bir insan ətrafındakılara qarşı göstərdiyi bu pis rəftarların özünə edilməsini istəməz, bunu istəyib istəmədiyi soruşulsa qəti şəkildə rədd edər.

## Çətin gələn bir işi görməkdən xilas olmaq üçün deyilən yalanlar

İnsanların yalana ən çox müraciət etdikləri məsələlərdən biri də, özlərinə çətin gələn və ya etmək istəmədikləri bir işdən xilas olmaq istəmələridir. Məsələn, bir mövzuda özlərindən kömək istənildiyi zaman, kömək etməyə tənbəllik etdiklərini və ya kömək etmək istəmədiklərini söyləmək əvəzinə, "hazırda çox işim var", "başım çox ağrıyır", "belimi incitmişəm" kimi yalanlar uyduraraq kömək edə bilməyəcəklərini söyləyərlər.

Halbuki səmimi müsəlman, həm yalan bəhanələr irəli sürməkdən qorxub çəkinər, həm də kömək istəyini və ya hər hansı işi görməyi, tənbəllikdən ötrü qətiyyən rədd etməz. Səmimi müsəlman, hər anının hesabını axirətdə verəcəyini bildiyi üçün, ən çətin kimi görünən işləri belə böyük şövq və istəklə görər. İnsan bəzən özünü həqiqətən yorğun və ya bəzi şeyləri etmək məsələsində istəksiz hiss edə bilər. İnsan belə vəziyyətlərdə yalan danışmaq əvəzinə, dərhal iradəsindən istifadə etməli və vicdanına uyğun olanı yerinə yetirməlidir. Məsələn, film seyr edərkən özündən kömək istənildikdə, bu insan, bunun axirətdəki qarşılığını düşünərək, dərhal köməyə qaçmalıdır. Lakin filmi buraxmaq istəmədiyi və öz istəklərini ön planda tutduğu üçün yalan danışan bir insan, eyni anda iki pis əxlaq xüsusiyyətini birdən göstərir. Həm vicdanının söylədiyini etməyərək, daha xeyirli görünən bir işi görmür, həm də bunun üçün yalan danışır. Beləliklə də, o, qarşısındakı insanı narahat olduğuna və kömək edə bilməyəcək vəziyyətdə olduğuna razı sala bilər və həmin an rahatlığından fədakarlıq etməyə bilər. Lakin Allah hər şeyi görür və bilir. İnsan, bir gün sonra belə ötən gün etdiklərini və düşündüklərini unudar, lakin Allah heç birini unutmaz və hər insanı axirətdə hər rəftarından və sözündən ötrü sorğu-sual edər.

**Göylərdə və yerdə nə varsa, Allahındır. Siz içərinizdə olanı üzə çıxarsanız da, gizlətsəniz də Allah buna görə sizi sorğu-sual edəcək. O, istədiyini bağışlayar, istədiyinə də əzab verər. Allah hər şeyə qadirdir. (Bəqərə surəsi, 284)**

### "Bilmirəm" deməmək üçün deyilən yalanlar

Bəzi insanlar özlərini çox bəyənib böyük hesab etdikləri üçün, hər mövzuda əskiksiz və qüsursuz olduqlarını ətraflarındakı insanlara da sübut etməyə çalışarlar. Özlərinin hər mövzuda məlumat sahibi olduqlarını göstərmək istəyərlər. Buna görə də, özlərinə bir mövzu barədə danışıldıqda və ya özlərindən bir məlumat tələb olunduqda, əgər bu mövzu barədə məlumatları yoxdursa, çox vaxt bir cavab uydurarlar.

Soruşulan mövzu barədə məlumatsız olmaq və ya mövzudan xəbərdar olmamaq özlərinə ağır gələr, "bilmirəm, xəbərim yoxdur" deməzlər. Çox vaxt buna görə daha da

pis vəziyyətə düşərlər, çünki məlumatları olmadan danışdıqları bəlli olar. Lakin sırf təkəbbürləri ucbatından alçalmağı və yalançılığı gözə alarlar.

Allah bir ayəsində, bir mövzu barədə heç bir məlumatı olmadığı halda, mübahisələrə qoşulanlarla əlaqədar belə bildirir:

**Məhz siz beləsiniz; (tutaq ki) barəsində məlumatınız olan mövzuda mübahisə etdiniz, lakin heç məlumatınız olmayan mövzu barədə nə üçün mübahisə edirsiniz? Halbuki Allah bilər, siz bilməzsiniz. (Ali İmran surəsi, 66)**

Bu cür rəftarlar Quran əxlaqına tabe olmayan insanların aralarında yaşatdıqları cahiliyyə əxlaqının nəticələridir. Belə insanlar, özlərini qəbul etdirmək, etibar sahibi, sözü dinlənilən insanlar olmaq üçün Quran əxlaqına uyğun olmayan üsullara əl atarlar. Dünyada özləri üçün sıxıntı, gərginlik və narahatlıq yaşadan bu əxlaq pozuntularının nəticəsində isə axirətlərini də təhlükə altına atarlar. Bir insanın etibarı və müvəffəqiyyəti bu yolla axtarması böyük qəflət və cəhalətdir. Çünki dünyada və axirətdə istənilən hər şeyin tək yolu, istənilən şəraitdə Quran əxlaqına və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsinə tabe olmaqdır.

## Yaşanan və ya şahid olunan hadisələri şişirtmək üçün deyilən yalanlar

Bəzi insanlar ətraflarında, hadisələri şişirtmələri, görmədikləri şeyləri görmüş kimi danışmaları ilə tanınarlar. Bunu, ətraflarındakı insanları əyləndirmək məqsədi ilə edənlərlə yanaşı, xəstəlik kimi vərdiş halına gətirənlər də var. Niyə etdiklərini belə düşünmədən, hər hadisədən olduğundan fərqli danışarlar, bir şey əlavə edərək, yaşanan hadisələri daha da şişirdilmiş hala gətirərlər.

Məsələn, iki avtomobilin yüngülcə bir-birinə dəyməsindən, böyük fəlakətin yaşandığı bir qəza kimi danışa bilərlər. Böyük sərnişin gəmisi gördükləri zaman, gəminin böyüklüyünü 3-4 misli qədər təsvir edərlər. Lakin qısa müddət sonra bu vəziyyət cəmiyyətdə bu insanlara olan etimadı azaldar. Hər hansı mövzu barədə fikir almaq istənildiyi zaman, bu cür insanlara, düzgün məlumat vermədikləri üçün müraciət edilməz.

Belə bir rəftar, insanları əyləndirmək və ya zarafat üçün belə olsa doğru deyil. İnsan zarafat olaraq doğru olmayan bir şeyi söyləsə belə, dərhal sonra, hətta mütləq həmin an, söylədiyinin doğru olmadığını ətrafındakılara bildirməlidir.

Peyğəmbərimiz (s.ə.v) də, səhabələrinə zarafat üçün də olsa, yalan danışmamalarını xatırlatmışdır.

*"Qul zarafat da olsa yalan danışmağı, doğru da olsa münaqişə etməyi tərk etmədikcə yaxşı mömin ola bilməz".*

*"Başqalarını güldürmək üçün yalan danışana ayıb olsun".*

*"Mən zarafat edərəm, lakin doğru olanı söyləyərəm".*(4)

## Pislik etmək və aldatmaq üçün deyilən yalanlar

Quran əxlaqını yaşamayan insanlar, kiçik mənfəətləri üçün başqasına qarşı asanlıqla kin bəsləyə və ya həsəd apara bilərlər. Çox vaxt heç bir səbəbə əsaslanmayan, özləri yaratdıqları bu hisslərin nəticəsində isə, bu insanlardan intiqam almaq istəyərlər. İnsanların bir hissəsi, az və ya çox bu hissi içində daşıyar və için-için başqalarının pisliyini istəyər. Pisliyini istədikləri insan, yaxın görünən dostları belə ola bilər.

Məsələn, bir yerə gedərkən, yoldaşına yaraşmayan bir paltara müdaxilə etmək istəməz, çünki ona görə, çox gözəl paltarla diqqətçəkən hala gələcək bir yoldaşın özünə göstərdiyi diqqəti azaldacaq və onu 2-ci plana itələyəcək. Yəni həqiqəti söyləyib, yoldaşlarını gözəlləşdirmək istəməz.

Yaxud iki yoldaş eyni mövzu üzərində çalışarkən, biri digərinə faydalandığı mənbələri söyləməz və ya daha az işə yarayanları söyləyib, digər əhəmiyyətli olanları gizlədər, "başqa şey yoxdur" deyər. Beləliklə də, rəqabət içində olduğu yoldaşının işini yavaşladar və ya mane olar.

Möminlər isə, bir-birlərinə böyük sevgi və hörmət bəsləyərlər. Həmişə köməkləşmə və həmrəylik içindədirlər. Özləri üçün istədiklərinin daha yaxşısını və gözəlini mömin qardaşları üçün də istəyərlər. Buna görə də, bu cür mövzularda bir-birlərinə əsla yalan danışmaz, əksinə bütün səmimilikləri ilə köməkçi və dəstək olarlar; yoldaşlarının geydiyi paltarı ən gözəl hala gətirər, işlərində əllərindən gəldiyi qədər kömək edərlər. Bu, möminlərin səmimiyyətlərinin və yaxınlıqlarının göstəricisidir.

Allah başqa bir ayədə belə bildirmişdir:

**...Özləri ehtiyac içində olsalar belə, (qardaşlarını) özlərindən üstün tutarlar. Nəfsinin "xəsis və eqoist ehtiraslarından" qorunanlar nicat tapanlardır! (Həşr surəsi, 9)**

## Göstəriş üçün deyilən yalanlar

Quran əxlaqını yaşamayan insanlarda yalanın ən çox istifadə edildiyi vəziyyətlərdən biri, bir-birlərinə göstəriş etdikləri zamanlardır. Allahın Quranda da bildirdiyi kimi insanlar bir-birlərinin qarşısında öyünməyi və göstəriş etməyi çox sevirlər:

**Bilin ki, dünya həyatı təkcə oyun və əyləncə, bəzək-düzək, bir-birinizin yanında öyünmə (müddəti və məsələsi), var-dövləti və oğul-uşağı çoxaltmaq istəyindən ibarətdir. Bu elə bir yağışa bənzəyir ki, ondan əmələ gələn bitki əkinçilərin (və ya kafirlərin) xoşuna gələr. Sonra o quruyar və sən onun sapsarı olduğunu görərsən. Sonra isə o çör-çöpə dönər. Kimisini axirətdə şiddətli əzab, kimisini də Allahdan bağışlanma və razılıq gözləyir. Dünya həyatı isə aldadıcı ləzzətdən başqa şey deyildir. (Hədid surəsi, 20)**

**(Mal, mülk və sərvətdə) çoxluqla öyünmək sizi "ehtirasla əyləndirib, özünüzdən keçirdi. Belə ki, (bu) məzara baş çəkməyinizə (məzara getməyinizə, ölümünüzə) qədər davam etdi. (Təkasur surəsi, 1-2)**

Öyünməyə bu qədər marağı olan bu insanlar, sahib olduqlarının öyünmək üçün kafi olmadığını düşündükləri zaman, isə dərhal yalana əl atarlar. Sahib olmadıqları şeyləri özlərinə məxsusmuş kimi göstərərlər. Məsələn, adi bir əşyanı, daha qiymətli göstərərək, onunla öyünmək üçün, olduğundan daha baha qiymətə satın aldıqlarını söyləyə bilərlər. İş yerlərindəki mövqelərini şişirdərək, özlərini olduğundan daha çox məsuliyyət sahibi, daha yüksək mövqedə olan biri kimi göstərməyə çalışa bilərlər.

Öyünmək məqsədiylə deyilən yalanların səbəbi, insanların sahib olmadıqları maddi və ya mənəvi xüsusiyyətlərlə təqdir toplamağı gözləmələridir. Buna görə də, özlərini çox çalışqan, köməksevər və qabiliyyətli göstərərlər. Əslində belə olmamasına baxmayaraq, hər şeyə diqqət yetirən, hər məsuliyyəti boynuna götürən insan təəssüratı yaradarlar. Allah Quranda bu cür insanlar barədə belə buyurur:

**Qazandıqlarıyla sevinən və etmədikləri şeylərdən ötrü tərif olunmağı xoşlayanları (qazanclı) hesab etmə; onları əzabdan xilas olmuş da hesab etmə. Onlar üçün ağrılı-acılı əzab var. (Ali İmran surəsi, 188)**

Bu insanlar, özlərinə göstərilən qayğı və sevgidən də şişirdərək danışarlar. Məsələn, həyat yoldaşlarının özlərinə hədiyyələr aldığı yalanını söyləyərlər. Yaxud iş yerində özlərinə xüsusi qayğı göstərildiyini, yerlərinin əvəzedilməz olduğunu, buna görə də, maaşlarının artırıldığını söyləyərlər. Gənclər əsasən sinifdə və ya məktəbdə ən məşhur insan olduqlarını, bütün məktəbin özlərini tanıdığını söyləyərlər. Bəzən məşhur insanlar da, doğum günlərində və ya qeydetmə mərasimində dostlarının və ya həyat yoldaşlarının özlərinə çox bahalı hədiyyələr aldığı yalanını uydurarlar. Bu cür yalanlar söyləməkdəki məqsədləri, həm göstəriş etmək, həm də yaxınlarının özlərinə çox dəyər verdiyi görünüşünü yaratmağa çalışmaqdır. Bu cür qiymətli hədiyyələr almayanların isə qısqanmalarını və özlərinə qibtə etmələrini təmin etməkdir. Halbuki bunların hamısı

dünyəvi dəyərlərdir və insanlara axirətdə hər hansı qazanc təmin etməyəcək. Bir insan dünyanın ən qiymətli hədiyyələrini həqiqətən də almış olsa, əgər Allahın məmnun olmayacağı davranışlarına davam edərsə, çox qısa olan dünya həyatından sonra axirətdə sahib olduğu hər şeydən məhrum qalacaq.

Peyğəmbərimiz (s.ə.v)-in yaşadığı dövrlə əlaqədar bir rəvayətdə də, bir qadının yuxarıda qeyd edilənlərə bənzər rəftar göstərdiyi nəql olunur. Deyilənə görə, bu qadın, başqasını kədərləndirmək və qısqandırmaq məqsədiylə, həyat yoldaşının etmədiyi şeyləri şişirdərək etmiş kimi söyləmiş və almadığı hədiyyələrdən almış kimi danışmışdır. Peyğəmbərimiz (s.ə.v)-in, bu qadının rəftarını öyrəndiyi zaman, ona belə dediyi rəvayət edilir:

*"Yedirilmədən yediyini söyləyən, özünün olmayan şeyə mənimdir deyən, özünə bir şey verilmədiyi zaman, verildiyini iddia edən, qiyamət günü yalandan iki paltar geyən kimsə kimi olar".*(5)

İnsanların göstəriş üçün söylədikləri yalanlara aid nümunələr çoxdur. Bir çox insan evi, avtomobili, yay evi, işinin vəziyyəti, uşaqlarının müvəffəqiyyətləri, idman fəaliyyətləri, etdiyi alış-verişi, etdiyi səyahətləri, ailəsinin kökü, eləcə də, atalarının nə qədər əsilzadə və müvəffəqiyyətli insanlar olduqlarından şişirdərək və olduğundan xeyli fərqli danışar. Yalan danışmağı vərdiş halına gətirdikləri üçün, əsasən refleks olaraq yalan danışarlar. Lakin yalanlarını yadda saxlaya bilmədikləri üçün, bir mövzu barədə verdikləri ədədlər, eyd etdikləri yerlər, rəftarlar hər dəfə söylədikləri zaman dəyişər. Buna görə də, hər dəfə özlərini ifşa edər və alçalarlar.

Bu insanlar, Allahın rizasını deyil, əksinə insanların rizasını axtardıqları üçün, həmişə ətraflarındakı insanların xoşlanacağı, bəyənəcəyi görünüş bəxş etmək istəyərlər. Bunun üçün ətraflarında kim varsa, özlərini elə tanıtmalı olduqlarına inanarlar. Bu da bol-bol yalan danışmalarını tələb edər. Xoşladıqları musiqi növündən, iş yerindəki vəzifələrinə qədər hər şeyi ətraflarındakı insanlara görə quraşdırmaq məcburiyyətindədirlər. Bunun nəticəsində isə həm yalanları qısa müddətdə ortaya çıxaraq alçalar, həm də çox stressli, əziyyət verən, gərgin həyat yaşayarlar. Bu insanlar ətraflarındakılara göstəriş etməkdən və yeni yalanlar uydurmaqdan, danışdıqlarından zövq almağa, gözəllikləri görməyə imkan tapa bilməzlər. Danışıqları və rəftarları əsasən sünidir. Həmçinin uydurduqları yalanlar bir insanı məmnun edərkən digərlərini etməyəcək. Bu dəfə digərlərini də məmnun etməyə, onların da gözünə girməyə çalışacaqlar. Bu, bitməyən sonsuz dövr kimidir və insanın səmimi, rahat, hüzurlu həyat yaşamasına mane olar. Allah bir ayəsində Özündən başqa bir çox ilah qəbul edən insanlar barədə belə buyurmuşdur:

**Allah (şirk qoşanlar üçün) bir-biri ilə çəkişən bir neçə şərikli ağası olan kişi ilə tək bir ağası olan kişini məsəl çəkir. Onlar məsəlcə eyni ola bilərmi? Həmd Allaha məxsusdur. Xeyr, onların əksəriyyəti bilmir. (Zumər surəsi, 29)**

## Mənfəət və qazanc təmin etmək üçün deyilən yalanlar

İnsanların böyük hissəsinin günah işləmələrinin və pis hərəkətlər etmələrinin səbəbi, mənfəət təmin etmək istəyidir. Vəfasızlıq, eqoistlik, təcavüzkarlıq, qısqanclıq, ikiüzlülük, hiyləgərlik kimi pis əxlaq xüsusiyyətləri çox vaxt mənfəət gözləməkdən qaynaqlanar. Yalançılığın da ən mühüm səbəblərindən biri, insanların mənfəət və qazanc təminetmə məsələsindəki ehtiraslarıdır.

Xüsusən ticarət həyatında insanların bir hissəsi yalan danışar və etdikləri ticarətin mənfəəti üçün yalançılığın qəti lazım olduğuna inanarlar. Bu cür insanlar satdıqları əşyanı olduğundan daha qiymətli göstərər, qiyməti, ölçüsü, miqdarı barədə yalan danışarlar. Allah Quranda insanlara "ölçü və çəkidə" ədalətlə davranmalarını və dürüst olmalarını bildirir:

**Əşyaları tərəzidə insafla çəkin və çəkini əskiltməyin. (Rəhman surəsi, 9)**

Allah, Mutaffifin surəsində isə, ölçü və çəkidə dürüst davranmayanlara axirət gününü xatırladır:

**Əskik ölçüb və çəkənlərin vay halına! Belə ki, onlar, insanlardan ölçərək aldıqları zaman tam alarlar. Özləri onlar üçün ölçdükləri və ya çəkdikləri zaman isə əskildərlər. Məgər onlar diriləcəklərini güman etmirlər? Böyük gündə. İnsanların, aləmlərin Rəbbi üçün qalxacağı gündə. (Mutaffifin surəsi, 1-6)**

Allahdan qorxmayan, axirətə inanmayan, eləcə də, axirətin varlığına və öldükdən sonra haqq-hesab verəcəyinə şübhə edən insanlar üçün dünya mənfəətləri həmişə daha ön plandadır. Buna görə, bu insanlar asanlıqla günaha girə bilərlər. Təkcə bir anlıq və ya çox kiçik qazanc təmin edə bilmək üçün belə, cəhənnəm əzabına səbəb ola biləcək şeylər edə bilərlər.

Halbuki, Allahdan qorxan, Allahın hər an özünü izlədiyini, eşitdiyini bilən, axirətdə söylədiyi hər sözə görə haqq-hesab verəcəyinə iman edərək bunu heç unutmayan bir insan, mənfəətlərinə nə qədər xələl gəlsə də, doğru olanı söyləməkdən əsla güzəştə getməz. Allaha təvəkkül edər, doğru söyləməkdən ötrü çox çətin vəziyyətdə qalsa belə, Allahın özünə kömək edəcəyini, gözləmədiyi yerdən asanlıq təmin edəcəyini bilər. Allah bir ayəsində çətinliklərdən sonra asanlıq verəcəyini vəd edir:

**...Allah heç kəsin üzərinə Özünün ona verdiyi nemətdən artıq məsuliyyət qoymaz. Allah hər çətinlikdən sonra asanlıq verər. (Talaq surəsi, 7)**

Allah ayəsində əmrini bildirmiş və bu əmrinə itaət edənlərə mütləq kömək edəcəyini və çətinliklərdən sonra mütləq asanlıq veriləcəyini müjdələmişdir. Qarşılaşdığı çətinliklərin üstəsindən dürüstlük əvəzinə yalanlarla, saxtakarlıqlarla gəlməyə çalışanlar, dünyada və axirətdə olduqca böyük çətinliklər və çətin bəlalarla qarşılaşa bilərlər.

Bu cür insanlar, yalanla təmin etdikləri və ya qoruduqları qazanclarını, pis əxlaqlarından ötrü özlərinə bəla kimi verilən xəstəlik üçün xəstəxana pulu olaraq xərcləməkdən qorxmalıdırlar. Yaxud həmin bu insanlar bir yanğının, yalan və saxtakarlıqla əldə etdikləri bütün qazancı yox etməsindən qorxmalıdırlar. Allahın dünyada insanları Quran əxlaqına yönləndirmək üçün bu cür bəlalarla sınaya biləcəyini unutmamalıdırlar.

Necə ki, Peyğəmbərimiz (s.ə.v)-in də hikmətlə qeyd etdiyi kimi; *"yalan ruzini azaldar".* Yəni yalana müraciət edərək, başqa insanları aldadaraq qazanc təmin etməyə çalışanların əldə etdiklərində Allah bərəkət yaratmaz. Maddi və mənəvi bəlalar verməklə, onların bu mallardan hüzur içində istifadə etmələrinə mane olar.

Allahın əmrinə tabe olaraq, çətinliklərə səbir edən, doğruluqdan və dürüstlükdən əsla imtina etməyən insanlar üçünsə, Allah asanlıqlar, gözəlliklər və gözləmədikləri ruzilər yaradar. Allah ayələrində belə bildirmişdir:

**Allah üçün dosdoğru şahidlik edin. Məhz bununla, Allaha və axirət gününə iman gətirənlərə nəsihət verilir. Kim Allahdan qorxub çəkinsə, (Allah) ona bir çıxış yolu göstərər və ona təsəvvürünə gətirmədiyi yerdən ruzi bəxş edər. Kim Allaha təvəkkül etsə, Allah ona kifayət edər. Əlbəttə, Allah Öz əmrini yerinə yetirəndir. Allah, hər şey üçün ölçü qoymuşdur. (Talaq surəsi, 2-3)**

**...Kim Allahdan qorxub çəkinsə, (Allah) ona işində asanlıq göstərər. (Talaq surəsi, 4)**

## Bir mübahisədə haqlı çıxmaq və üstün gəlmək üçün deyilən yalanlar

Allahın bir ayəsində də bildirdiyi kimi; **"insan ən çox mübahisə edəndir"** (Kəhf surəsi, 54). Bir neçə insan bir yerə toplandıqda, çox vaxt bir mövzu barədə qarşılıqlı iddialar irəli sürməyə, fərqli fikirlər irəli sürərək, bunları bir-birlərinə qəbul etdirməyə çalışırlar. Bu mübahisələrdə məqsəd, çox vaxt, bir şeyin doğrusunu öyrənmək və ən yaxşı nəticəyə nail olmaq deyil, üstün gəlmək, müdafiə olunan fikrin doğru və ya yanlış olduğuna fikir vermədən mübahisədə üstün gəlməkdir. Tərəflərdən biri haqsız olduğunu və ya səhv düşündüyünü anlasa belə, ümumiyyətlə geri addım atmaz, doğrunun tərəfinə

keçməz və təkəbbüründən ötrü iddiasını davam etdirər. Məhz bu məqamda, əksər insan yalana əl atmağa başlayar. Bu insanlar təkcə üstün gəlmək naminə, ya əmin olmadıqları, görmədikləri, eşitmədikləri bir hadisədən, yaşandığına qəti əmin olaraq danışar, ya da açıq şəkildə iddialarını dəstəkləyəcək xəyali ssenarilər qurarlar, hətta böhtana əl atarlar.

Bütün bu üsulların səbəbi, insanların təkəbbürləri və alçalma narahatlıqlarıdır. Daha əvvəl də ifadə edildiyi kimi, təkəbbür, qürur duyğusu insanları çox vaxt günaha sürükləyər. Halbuki doğru və gözəl olan, bir insanın fikrinin yanlış olduğunu anladığı zaman, dərhal doğrunu qəbul etməsidir. Bu, üstün əxlaq əlamətidir. Çünki belə hərəkətə yol verən insan, hər şeydən əvvəl insanların düşüncələrini və ya qınaqlarını görməzlikdən gəlir, Allahın razı olacağı şəkildə davranaraq vicdanının söylədiklərini qəbul edir. Gözlənilənin əksinə, belə insan həm Allahın dərgahında, həm də ağıl və vicdan sahibi insanların gözündə yüksələr və dəyər qazanar.

Allah bir ayədə belə buyurur:

**"Və “çirkin həyasızlıq” etdikləri və ya nəfslərinə zülm etdikləri zaman, Allahı xatırlayıb dərhal günahlarından ötrü bağışlanma diləyənlərdir. Allahdan başqa kim günahları bağışlaya bilər? Bir də onlar etdikləri (pis şeylərdə) bilə-bilə israr etməzlər". (Ali İmran surəsi, 135)**

## "Ağ yalanlar" yalanı ilə deyilən yalanlar

"Heç yalan danışarsınızmı?" sualına insanların verdikləri cavabları, bir çox dəfə eşitmisiniz. Bu cavabların əksəriyyətində, qətiyyən yalan danışmadıqları, lakin lazım gəldikdə "ağ yalanlar" söylədikləri və bunda problem görmədikləri qeyd edilər.

Quran əxlaqına tabe olmayan insanlar, təkcə yalan məsələsində deyil, bütün məsələlərdə özlərinə, ətraflarına və mənfəətlərinə görə batil qanunlar və meyarlar uydurarlar. Məsələn, oğurluğun günah olduğunu qəbul edər, lakin ehtiyac sahibi birinin oğurlamasının günah olmayacağını söyləyərlər. Yaxud qumar oynamağın haram olduğunu bilən insanların bir hissəsi, buna baxmayaraq, qumar oynayar, lakin qumardan qazandıqları pulu kasıblara verdiklərini söyləyərək, qumarı qanuniləşdirdiklərini zənn edərlər. Halbuki, Allahdan qorxub çəkinən bir insan, istənilən şəraitdə, Allahın razı olmayacağı və haram kimi bildirdiyi bir şeyi etməz. Bu yalançılığa da aiddir. Yalanlarına müxtəlif donlar geydirərək, mənasını yumşaltmağa çalışanlar bəlkə insanları razı sala bilərlər. Lakin Allah insanlara yalan danışmağı haram buyurmuşdur; buna cəmiyyətdə "ağ yalanlar" kimi adlandırılan yalanlar da daxildir.

Din əxlaqından uzaq yaşayan cəmiyyətlərdə uydurulan bu batil qanunlar, Qurana uyğun deyil. Bunlara tabe olan insanlar, bu qanunlara həmçinin özlərinə görə də forma verərlər. Dolayısilə nəyin ağ, nəyin başqa cür yalan olduğuna da, hər kəs öz mənfəətinə

görə qərar verər. Bunun nəticəsində isə demək olar ki, yalançılığın hər növü ağ yalanlara daxil edilərək, bəhs etdiyimiz cəmiyyətlərdə sanki normal qarşılanmağa başlanmışdır.

Məsələn, birinə bir işini gördürmək istəyən bir insan, ona süni iltifatlar edər, gözəl olmadığı halda gözəl olduğunu, qəşəng olmadığı halda qəşəng olduğunu və ya bacarıqsız olduğu halda, çox bacarıqlı və zəkalı olduğunu söyləyər. Evinə gec gələn biri, həyat yoldaşını hirsləndirməmək üçün fərqli bəhanələr uydurar. Əgər doğrunu söyləsə yoldaşının hirslənəcəyini, təkcə bu "ağ yalanları" söylədiyi təqdirdə onu narahat etmədiyini və aralarında problem olmadığını söyləyər. Beləliklə də, yalanlarını günahsız və hətta yaxşılığa xidmət məqsədli deyilmiş sözlər kimi göstərməyə çalışar. Halbuki, bu cür yalanlar, nə üçün deyilsə də, aldatmağa xidmət edir. Bu yalanları söyləyən insanın, qarşısındakı insanlara sevgisi, hörməti, sədaqəti olmaz. Həmçinin belə rəftar göstərən insanların dürüst və etibarlı olmadıqları da aydındır.

Nəticə etibarilə, hansı sifət altında deyilə də, yalanın hər növü Allahın haram buyurduğu hərəkətdir. Yalançılıq, insanlar arasındakı etimad və sədaqəti yox edən, insanların səmimiyyətsiz həyat yaşamalarına səbəb olan davranışdır.

# Yalanın və səmimiyyətsizliyin olduğu mühitdə heç kim heç kimə güvənə bilməz

Adnan Oktar: ...*Amma ən dəhşətlisi sevgisizlikdir. Sevgisizlikdən bədbəxt olurlar. Sevgi insanı çox xoşbəxt edər, açar. Yəni ən güclü qidadır, bədənin ən güclü qidası sevgidir. Yəni heç nə yeməsə belə, yeməsə içməsə belə sırf sevgiylə heyrətamiz dərəcədə sağlam ola bilər insan. Sevgisiz nə olacaq, "heç nə olmayacaq" deyir. Budur oluruq, pərişan oluruq, oksid sarısı olurlar. Olduqca çox hissəsi, çoxu belədir yəni. Ağzında pas yaranır, baxışlarında canlılıq yoxdur, bir şey söylədiyi zaman, anlamaqda çətinlik çəkirlər, hər şeyə pessimist baxar, hər şeydən qorxar, bir-birlərindən çox qorxarlar. Məsələn, baxıb görürəm ki, gözlərində insanların bir-birlərinə qarşı qorxu ifadəsi var. Heyrətamiz dərəcədə şübhəçilik var, lakin niyə şübhəçi olursan da deyə bilmərik, çünki haqlıdırlar yəni.* ***Çünki dürüst insan o qədər çox olmur bəzən, bəzi yerlərdə. Səmimi insan o qədər çox olmur. Onlar da haqlı olaraq qorxurlar və narahatdırlar, gərgindirlər. O zaman məhz millətimizi sevgi dolu, şəfqətli, Allahdan qorxan, Allahı çox sevən, müsbət baxan, müsbət qiymətləndirən, hər şeyi xeyirə yozan, hər şeydə gözəllik görən, ətrafını və özünü gözəlləşdirməyə çalışan insanlar kimi yetişdirməliyik.*** *Məsələn, dünən bir baxdım mən, baxıram yəni, baxımsız və pərişandır bir çox insan. Bu mütləq yeməklə də olmaz, yəni az bir şey yemək insanı çox gümrah edər, lakin yemək təsir etmir. Çünki sevinc yoxdur.* ***Həmişə qorxu ilə yaşayan, həmişə etimadsızlıqla yaşayan bir insan xoşbəxt ola bilməz.*** *Xoşbəxt ola bilmədikdə də bədən hüceyrələri buna üsyan edir. Mədəaltı vəzi ayrı narahat olur, məsələn, mədəsində yığılma olur, qıc olmalar baş verir mədəsində, xora əmələ gəlir, mədəsində yanma, turşuma meydana gəlir. Məsələn, gözlərində, baxışlarında pozuqluq meydana gəlir, məsələn, qaraciyəri normal işləmir, həzm sistemi normal işləmir, qan azalır bədəndə kədərdən ötrü. Məsələn, sapsarı olur əl-üzü. Yazıq, günah deyil mi bu qədər əziyyət çəkmək? Allah insana, şeytandan Allaha sığınıram, Allah deyir ki, ayədə;* ***"Allah insanlara zülm etməz insanlar özləri özlərinə zülm edirlər"*** *(Tövbə surəsi, 70). İnsanın özünə etdiyi zülmü heç kim etməz deyərlər, bildiyiniz kimi bu xalq arasında var. Yəni böyük əziyyət verər özünə.* ***Hər şeydən şübhələnər. Hətta deyirlər ha, "atana belə güvənməməlisən". Qardaşım nə edirsiniz siz, ortalığı cəhənnəmə döndərirsiniz.*** *Ata. O güvənilməyəcək ataları öyrətsək də, normal ata olsalar, güvənsələr bu insanlar olmazmı? "Atana belə güvənməməlisən". O zaman kimə güvənəcək, elə deyil? "Heç kimə güvənməməlisən" deyir. O zaman bu insanlar necə yaşasın bu dünyada. Baxın görürsünüzmü, darvinist və materialist düşüncənin vurduğu ziyanı hələ də aradan qaldıra bilmirik. Hələ də bu ziyanı yox etməklə məşğul oluruq. Məsələn, qarşılaşırlar çox mehriban, məsələn, bir televiziya proqramı olur, bir-birlərini necəsiniz, xoş gəlmisiniz filan deyirlər, lakin hamısı bir-birindən çəkinir əslində. Çox təmkinlidirlər, yəni hər hansı mənfəətlərinə zidd gələn vəziyyət yarandıqda, canlı yayında bir-birlərinə şillə yumruq girişirlər bilirsiniz. Yəni qalmaqal yaranır, saçlarından sürükləyirlər. Deməli, içi,*

*partlayacaq bomba kimi, çox gərgindir. Yəni sevgi mühiti olsa, sülh, qardaşlıq mühiti olsa, bir anda belə ağzından köpüklər saçaraq, hətta din xadimi olur, alim, din alimi bir anda partlayacaq bombaya çevrilir, sanki belə dəli olur, özünü itirir.* ***Budur sevgisizlik, sevgisizliyin nəticəsində bu olur. Çox şəfqətli, çox mərhəmətli olmaq lazımdır...*** *(Adnan Oktarın "Kanal Urfa" telekanalına verdiyi müsahibədən, 9 noyabr 2009-cu il)*

## Etməyəcəyini bildiyi bir şeyi vəd edərkən deyilən yalanlar

Bir insanın verdiyi sözə əməl etməməsi çox sıx rast gəlinən vəziyyətdir. Əlbəttə ki, bəzən şərtlər dəyişdikdə, insan çox istəsə və vədində səmimi olsa belə, vədlərindən yerinə yetirə bilməyəcəyi vəziyyətlə qarşılaşa bilər. Lakin hələ əvvəlcədən söz verərkən sözünə əməl etməyəcəyini bilərək, təkcə həmin an o insanların gözünə girmək və ya hər hansı başqa məqsədlə vəd vermək və bunu yerinə yetirməmək, Quranda Allahın insanları xəbərdar etdiyi bir məsələdir:

**Ey iman gətirənlər, etməyəcəyiniz şeyi niyə deyirsiniz? Etməyəcəyiniz şeyi deməyiniz, Allah yanında qəzəb (olması) baxımından böyüdü (böyük günah təşkil etdi). (Saff surəsi, 2-3)**

**Əhd verdiyiniz zaman, Allaha verdiyiniz əhdi yerinə yetirin, möhkəm and içdikdən sonra andınızı pozmayın; çünki Allahı özünüzə zamin etmisiniz. Şübhəsiz ki, Allah nə etdiklərinizi bilir. (Nəhl surəsi, 91)**

**...Əhdə vəfa göstərin. Çünki əhd bir məsuliyyətdir. (İsra surəsi, 34)**

20-ci əsrin böyük İslam alimlərindən Mehmed Zahid Kotku, insanların yerinə yetirməyəcəklərini bilə-bilə verdikləri vədlər barədə belə deyir:

*"Verdiyi sözlərə və vədlərə əməl etməmək və vədini yerinə yetirməmək də yalançılıqdır. Bol-bol vəd verər, sonra vədini yerinə yetirməzsə, buna da yalançılıq damğası vurular. Verdiyi vədi, verərkən yerinə yetirməyəcəyi barədə fikri olarsa, yalançılıq iki qat olar. Bir də var ki, vədini yerinə yetirmək istər, lakin imkanı olmazsa, üzr istəmək surətiylə bəlkə üzrlü hesab edilə bilər. Buna görə də, bu cür vədlər verərkən insanlar inşaAllah deməyi unutmamalıdırlar..."*[6]

Mehmed Zahid Kotkunun da diqqət çəkdiyi kimi, bir insanın etməyəcəyini bilə-bilə söz verməsi yalançılıqdır. Hər insan, haqq-hesab günündə hər danışığından və rəftarından məsul olacaq. İnsan öz söylədiklərini və ya düşündüklərini unuda bilər, lakin Allah unutmaz və hamısını haqq-hesab günündə insanın qarşısına gətirər. Bu həqiqəti

bilən müsəlmanlar düşünərək, sözlərinin Qurana uyğun olub-olmadığını bilərək danışarlar.

Ağızlarına hər gələni söyləyib, necə gəldi danışmazlar. Birinə söz verəndə həqiqətən əməl edib edə bilməyəcəklərini nəzərə alarlar. Əgər əməl edə bilməmək ehtimalları varsa, bunu qarşılarındakı insana bildirərlər, hansı şərtlər altında əməl edə bilməyəcəklərini söyləyər və həmin insanın çətin vəziyyətdə qalmasının qarşısını almaq üçün tədbirlər alarlar. Əgər edə biləcəklərinə qənaətləri varsa da, "inşaAllah" (Allah icazə versə) deyərək, Allahın diləməsi istisna olmaqla sözlərinə əməl edəcəklərini vədd edərlər və mənfəətlərinə zidd də olsa, verdikləri sözlərə əməl edərlər. Quranda Allah möminlərin bu xüsusiyyətini belə xəbər verir:

**Üzünüzü şərqə və qərbə döndərməyiniz yaxşılıq deyildir. Lakin yaxşılıq, Allaha, axirət gününə, mələklərə, kitablara, peyğəmbərlərə iman gətirən; mala olan sevgisinə baxmayaraq, onu yaxınlara, yetimlərə, yoxsullara, yolda qalmışa, dilənənlərə və kölələrə (azadlıqları üçün) verən; namazı tam düzgün qılan, zəkatı verən və <u>əhd verdikləri zaman əhdlərinə vəfa göstərənlər</u> ilə çətinlikdə, xəstəlikdə və döyüşün qızışdığı vaxtlarda səbir edənlər(in münasibət və rəftarlarıdır). Məhz bunlar, doğru olanlardır və müttəqi olanlar da bunlardır. (Bəqərə surəsi, 177)**

**(Həmçinin) Onlar, əmanətlərinə və əhdlərinə riayət edənlərdir. (Muminun surəsi, 8)**

# Nəfsi tərbiyə etməyin yolu səmimi və dürüst olmaqdır

Müxbir: *çoxlu elektron məktublar var, çoxlu suallar var. "Nəfs necə tərbiyə edilər?" deyə bir sual gəldi.*

Adnan Oktar: *Nəfsin tərbiyə edilməsi üçün Allahın göstərdiyi tək bir meyar var, səmimiyyət.* ***Səmimi olduğumuz vaxt, nəfs çox ağıllı olar.*** *Çünki mənfəətlər məntiqli olmağı təmin edər.* ***Lakin vicdanımız da ağıllı olmağı təmin edər. Səmimi davranmağı təmin edər. Biz ağlımız və vicdanımızla hərəkət etməliyik.*** *Ağlı və vicdanı ilə hərəkət edən insan həmişə doğru hərəkət etmiş olar. Məsələn, Allah qorusun, rüşvət alacaqsa, məntiqi al deyər. Lakin ağlı və vicdanı da alma deyər. Ağlına və vicdanına tabe olduğu zaman da bəlkə maddi cəhətdən çətinliyə düşəcək, lakin doğru olanı etmiş olacaq. Gözəl əxlaq elə ucuz şey deyil, çətindir gözəl əxlaq. Baha başa gələr, gözəl əxlaqlı insan da buna görə dünyada nadir olar (Adnan Oktarın Ekin telekanalına verdiyi müsahibədən, 19 yanvar 2009-cu il).*

## İnsanlardan qorxub çəkinərək deyilən yalanlar

Bir çox insanın yalana əl atmasının səbəblərindən biri, ətrafındakı insanlardan qorxmasıdır. Məsələn, evdə vazanı sındıran bir uşaq anasından qorxduğu üçün yalan danışar. İş yerində faylları bir-birinə qarışdıran katibə müdirindən qorxar və özünü xilas etmək üçün yalana əl atar. Halbuki, mömin insan heç vaxt insanlardan qorxmaz. Təkcə Allahdan qorxub çəkinər və Allahın özündən razı olub olmayacağını düşünər. Buna görə də, hansı vəziyyətdə qalsa da, doğrunu söyləyər və Allaha təvəkkül edər.

İnsanlardan qorxub çəkinənlər isə, məsələn, dəyərli bir əşyanı sındırdıqları zaman, bacarıqsız və ya diqqətsiz kimi tanınmaqdan çəkinərlər. İnsanların özləri barədəki düşüncələrini Allahın rizasından üstün tutaraq böyük səhv edtikləri üçün, insanların rizasına uyğun qərarlar alarlar. Buna görə də, çox vaxt yalana əl ataraq səhvləri ört-basdır etməyə çalışarlar.

Allah Quranda şeytanın insanları bir-birləri ilə qorxutmaq istəyəcəyini bildirmiş və möminlərə təkcə Özündən qorxmalarını buyurmuşdur.

**Məhz bu şeytan, təkcə öz dostları ilə qorxudar. Siz onlardan qorxmayın! Əgər möminsinizsə, Məndən qorxun. (Ali İmran surəsi, 175)**

**Allah Öz bəndəsinə kifayət deyil? Səni Ondan başqaları ilə qorxudurlar. Allah kimi azğınlığa salsa, artıq onun üçün yol göstərən olmaz. (Zumər surəsi, 36)**

Allah bir ayəsində də möminlər barədə; **"qınayanın qınamasından qorxmayan bir camaat"** demişdir (Maidə surəsi, 54). Mömin, istənilən şəraitdə təkcə Allaha təvəkkül edər və insanların düşüncələrinə görə deyil, təkcə Allahın rizasına görə davranar. İnsanlardan qorxaraq, doğru olanı etməmək eyni zamanda şirkdir. Şirk, bir insanın başqa insan və ya varlıqları, (Allahı tənzih edirik) Allah ilə bərabər tutması, bu varlıqlara ilahlıq isnad etməsi deməkdir. Bir insan başqa bir insandan çəkinib həmin insanın rizasına görə hərəkət edirsə, deməli, onu şirk qoşur *(baxın: "Ən böyük böhtan: şirk", Harun Yəhya)*. Möminlər isə bu həqiqətdən xəbərdardırlar və Allahdan başqasını ilah qəbul etməzlər. Allah ayələrində belə bildirir:

**Mən heç Ondan başqa məbudlar qəbul edərəmmi? Əgər mərhəmətli Allah mənə bir zərər yetirmək istəsə, onların şəfaəti mənə heç bir fayda verməz və onlar məni xilas edə bilməzlər. Bax onda mən açıq-aydın azğınlığa düşmüş olaram. (Yasin surəsi, 23-24)**

Ayələrdə də bildirildiyi kimi, heç bir insanın başqasına zərər verməyə gücü çata bilməz. Heç kim Allahın icazəsi olmadan başqasına tək bir söz belə deyə bilməz. Buna görə də, bir insanın başqa insanlardan qorxaraq, yalan danışması şirk ola bilər. Şirk isə; **"Allahın bağışlamayacağını bildirdiyi bir günahdır"** (Nisa surəsi, 48). Buna görə də, insanlardan çəkinib yalan danışanlar həm harama girməkdən, həm də Allaha şirk qoşmaqdan qorxub çəkinməlidirlər.

# Allah hər şeyi bilən, görən və eşidəndir

Yalan danışanların aldandığı məsələlərdən biri, Allahın hər şeyi görən və eşidən olduğunu bilməmələri və ya düşünməmələridir. Hər hansı səbəblə yalan danışan bir insan, ətrafındakıları aldada bilər, onları səhv bir şeyə inandıra bilər, bəzi şeyləri onlardan gizlədə bilər və öz aləmində qazanc təmin edə bilər. Lakin içindən keçənləri, həqiqətləri, doğruları, tək haqq-hesab çəkən, hər şeyə qadir, hər şeyi görən, eşidən və bilən Allahdan əsla gizlədə bilməz. Allah bunu bir ayəsində belə bildirir:

**Onlar öz günahlarını insanlardan gizlədər, lakin Allahdan gizlədə bilməzlər... (Nisa surəsi, 108)**

Lakin yalançı insan, ağlı və imanı qeyri-kafi olduğu üçün, heç nəyə gücü çata bilməyən, özləri də Allaha qul olan aciz varlıqları aldatdığı zaman, özünü xilas etdiyini zənn edər. Halbuki, yalanlarla aldatdığı insanların, özünə nə zərər, nə də fayda verməyə gücü çata bilməz.

Bu həqiqət bilən bütün möminlər, ağıllarından keçən hər şeyin, bütün söylədiklərinin, öz özlərinə gizlətdiklərini güman etdikləri hər şeydən Allahın xəbərdar olduğunu bilməli və hər an bu həqiqətə görə hərəkət etməlidirlər. Çünki Allah hər şeyi görən və biləndir. Bu həqiqəti xəbər verən bəzi ayələrdə Allah belə buyurur:

**Məgər Allahın göylərdə və yerdə olan hər şeyi bildiyini görmürsən? (Öz aralarında gizli yığıncaqlar təşkil edib) pıçıldaşan üç nəfərin dördüncüsü, beş nəfərin də altıncısı mütləq Odur. İstər bundan az, istərsə də çox olsunlar - harada olursa olsunlar, Allah onların yanındadır. Sonra Qiyamət günü onlara nə etdiklərini xəbər verəcəkdir. Şübhəsiz ki, Allah hər şeyi bilir. (Mücadilə surəsi, 7)**

**(Allah,) Gözlərin xainliklərini və köksların gizlətdikləri bilir. (Mümin surəsi, 19)**

**Məgər onlar, gizlətdiklərini və aşkar etdiklərini, Allahın bildiyini görmürlər? (Bəqərə surəsi, 77)**

**Şübhəsiz ki, yerdə və göydə heç nə Allahdan gizli qalmaz. (Ali İmran surəsi, 5)**

Göylərdə və yerdə Allah Odur. Gizlətdiyinizi və aşkar etdiyinizi bilir; qazandıqlarınızı da bilir. (Ənam surəsi, 3)

# Yalan danışmaq şeytanla əməkdaşlıq etmək deməkdir

## İlk yalançı: şeytan

Şeytanın bəzi xüsusiyyətlərini Allah Quranda belə bildirir:

**O, sizə təkcə pisliyi, çirkin əməlləri və Allaha qarşı bilmədiklərinizi söyləməyinizi əmr edər. (Bəqərə surəsi, 169)**

Yalançılıq da, şeytanın insanlar üzərindəki pis təsirlərindən biridir. Şeytan, yalanı insanlara asan yol kimi göstərər və bu yöndə təlqin verər. İmanı zəif olan insanlar isə şeytanın bu pıçıltılarına uyarlar. 11-ci əsrin İslam alimlərindən Əbdülqadir Gilani; *"şeytan sənə nələr etmədi ki... Yalanı sənə sevdirdi. Səhv işləri sənin üçün bəzədi"*(7) sözləriylə şeytanın yalançılığı sevdirmə xüsusiyyətinə diqqət çəkmişdir.

Şeytanın digər xüsusiyyəti isə ilk yalançı olmasıdır. Allah ilk insan olan hz. Adəm (ə.s)-ı yaratdıqdan sonra, bütün mələklərə hz. Adəm (ə.s)-a səcdə etmələrini əmr etmişdir. Bütün mələklər Allahın əmrinə itaət etmiş, lakin şeytan təkəbbüründən və qısqanclığından ötrü itaət etməmişdir. Allah onu bundan ötrü hüzurundan qovmuş və axirətdə cəhənnəm əzabı içində olanlardan olacağını bildirmişdir. Şeytan isə, insanları Allahın yolundan azdırmaq üçün and içmişdir. İlk növbədə isə, hz. Adəm (ə.s) və həyat yoldaşını aldatmağa çalışmış və onlara yalan söyləmişdir. Şeytanın hz. Adəm (ə.s)-a söylədiyi yalanı Allah Quranda belə bildirir:

**Şeytan, özlərindən "örtülüb gizlənən ayıb yerlərini" ortaya çıxartmaq üçün onlara vəsvəsə verdi və dedi: "Rəbbiniz sizə bu ağacı təkcə mələk və ya əbədi yaşayanlardan olmamağınız üçün qadağan etdi". Həmçinin: "həqiqətən, mən sizə öyüd verənlərdənəm" deyə and da içdi. (Əraf surəsi, 20-21)**

Şeytan, yalan danışaraq hz. Adəm (ə.s)-ı aldatmışdır. Həmçinin, özünü də olduqca xoşniyyətli göstərmiş və onlara öyüd verərək yaxşılıq etdiyini söyləmişdir. Bunun üçünsə and içmişdir. İrəlidə də görüləcəyi kimi, tez-tez and içmək və xoşniyyətli olduğunu iddia etmək də yalançıların ən nəzərəçarpan xüsusiyyətlərindən biridir.

Digər bir ayədə isə, şeytanın insanlara yalan vədlər verdiyini Allah belə xəbər verir:

**İş bitdikdə şeytan deyəcək: "Həqiqətən, Allah sizə həqiqi vədi verdi, mən də sizə vəd verdim, lakin sizə yalan söylədim. Mənim sizə qarşı məcburedici gücüm yox idi, təkcə sizi dəvət etdim, siz də dəvətimi qəbul etdiniz. Elə isə məni qınamayın, özünüzü**

**qınayın. Mən sizi qurtaracaq deyiləm, siz də məni qurtaracaq deyilsiniz. Doğrusu daha əvvəl məni şərik qoşmağınızı da rədd etmişdim. Həqiqət budur ki, zalımlar üçün ağrılı əzab var". (İbrahim surəsi, 22)**

## Şeytan həmişə yalan danışar

İnsan bir qərar verərkən, bir şeyi düşünərkən, içində həm vicdanının səsi, həm də şeytanın pıçıltıları olar. Ağıl və vicdan sahibi, Allaha və axirətə inanan bir mömin həmişə vicdanının səsini dinləyər. Digərləri isə çox vatx şeytanın səsini dinləyər. Lakin şeytanın söylədiyi hər söz yalandır. Məsələn, kasıblara kömək etmək istəyən bir insanın, şeytanı ona; "əgər bu pulu kasıblara versən sənin pulun azalar, gələcəkdə bir şey baş versə zəmanətin qalmaz" kimi sözlər söyləyərək onu yaxşılıq etməkdən, xeyir əməl işləməkdən uzaq tutmağa çalışar. Halbuki, şeytan həmişəki kimi yalan deyir. Çünki insan bir xeyir iş gördükdə, Allah onun köməkçisi və dostudur. Həmçinin ruzini verən Allahdır. Həmin insan istədiyi qədər xəsislik edərək pulunu qorumağa çalışsa da, Allah istmədikcə heç bir qazanc təmin edə bilməz.

Yaxud vicdanına tabe olaraq namaz qılmağa başlamağa niyyət edən bir insana şeytan, "gələcəkdə qocalanda onsuz da qılarsan. İndi qılmasan da olar" kimi buna bənzər təlqinlər verər. Şeytan yenə yalan danışır. Çünki insanın nə qədər ömrü olacağı, nə vaxt harada öləcəyi bilinməz. Buna görə də, insan xeyirli hesab etdiyi bir şeyi təxirə salmadan, dərhal həmin anda tətbiq etməlidir.

Oğurluq edən birini də şeytan boş vədlərlə və yalanlarla aldadır. "Ehtiyacın var, bunu alsan nə olar? Onsuz da heç kim də səni görməz. Bu oğurluq belə sayılmaz, kiçik bir şeydir" kimi sözlər söyləyər. Əslində isə, heç kim görməsə və fərq etməsə belə, Allah hər an görür və eşidir. Allah Quranda insanları şeytana qarşı xəbərdar etmiş və onun insanları aldatdığını və aldananların sonunun cəhənnəm olduğunu bildirmişdir:

**(Şeytan) onlara vədlər verir və onları ən ağlagəlməz xülyalara salır. Lakin şeytan onlara təkcə yalan vədlər verir. Onların sığınacaqları yer cəhənnəmdir, ondan qaçmağa bir yer tapa bilməyəcəklər. (Nisa surəsi, 120-121)**

Şeytanın insanlara söylədiyi yalanlardan digəri də insanlara bir pisliyi təlqin edib sonra da; "indi bunu et, sonra tövbə edib xilas olarsan" deməsidir. Bir çox insan şeytanın bu tələsinə düşər. Halbuki bu da bir yalandır, çünki Allah pislikləri edib sonra özlərinə ölüm çatdıqda tövbə edənlərin tövbələrinin qəbul edilməyəcəyini bildirir. Bəri başdan, "onsuz da tövbə edərəm" deyərək hər cür pisliyi etmək böyük səmimiyyətsizlik və ağılsızlıqdır. Allah bir ayəsində belə hökm edir:

**Günah işlər görməkdə davam edənlərdən birinə ölüm gəldiyi zaman: “Mən indi tövbə etdim!” deyənlərin də, kafir kimi ölənlərin də tövbəsi qəbul deyildir. Biz onlar üçün ağrılı-acılı əzab hazırlamışıq. (Nisa surəsi, 18)**

Bir insanın şeytanın yalanlarını görüb, ona əməl etməməsi üçün tək çıxış yolu Quran əxlaqını yaxşı bilməsi və yaşamasıdır. O zaman həm şeytanın, həm nəfsinin, həm də digər insanların yalanlarını və səmimiyyətsizliklərini çox yaxşı görə bilər və bunlardan çəkinə bilər. Allah bir ayəsində şeytanın hiyləsinin iman gətirən qulları üçün çox zəif olduğunu belə bildirir:

**İman gətirənlər Allah yolunda; kafirlər isə tağut yolunda vuruşarlar, elə isə şeytanın dostları ilə vuruşun. Şübhəsiz ki, şeytanın hiyləsi çox zəifdir. (Nisa surəsi, 76)**

## Yalançılıq, şeytana sədaqət göstərməkdir

Yalan danışmaq və boş vədlər vermək şeytanın ən nəzərəçarpan xüsusiyyətlərindən biridir. İnsanların yalançı olması da şeytandan qaynaqlanır. Bir insan yalan danışırsa, deməli, həmin anda şeytanın sözünə əməl edir və ona sədaqət göstərir. Aşağıdakı ayələr bəzi insanların şeytana olan bu sədaqətlərinin səbəbini açıqlayır:

**Onlar, Onu tərk edib, (bəzi) dişilərə sitayiş edərlər. Onlar təkcə, o, hər cür xeyirlə əlaqəsi kəsilmiş şeytana sitayiş edərlər. Allah, ona lənət etdi. O da (belə) dedi: "And olsun, qullarından “sayı müəyyənləşdirilmiş dəstəni” (özümə xidmətçi) edəcəyəm. (Nisa surəsi, 117-118)**

Heç kim etdiyi rəftarla şeytana xidmət etdiyini, ona sədaqət göstərdiyini qəbul etmək istəməz. Lakin bu insan həyatı boyu vicdanının səsini susduraraq və həmişə içində şeytanın söylədiklərinə əməl edərək, vicdanını kütləşdirmiş və həmişə şeytanına sadiq olmuşdur. Allah ayələrində bu insanlar barədə belə hökm verir:

**Kim Rəhman (olan Allah)ın zikrini görməzlikdən gəlsə, Biz bir şeytana onun “üzərini qabıqla bağlatdırarıq”; artıq bu, onun yaxın dostudur; Həqiqətən bunlar (bu şeytanlar), onları doğru yoldan çıxardar; onlar isə özlərinin doğru yolda olduqlarını güman edərlər. Sonunda Bizə gəldiyi zaman, deyər: "Kaş ki, mənimlə sənin aranda iki şərq qədər (şərq ilə qərb arasındakı) məsafə olsaydı. Məgər sən nə pis yaxın dost (imişsən)". (Bu gileyləriniz,) Bu gün sizə qətiyyən fayda verməz. Çünki zülm etdiniz. Şübhəsiz ki, əzabda da şəriksiniz. (Zuxruf surəsi, 36-39)**

Şeytanın ən nəzərəçarpan xüsusiyyətlərindən biri, özünü həmişə haqlı güman etməsi və təlqin verdiyi insanlara da həmişə haqlı olduqları təlqinini verməsidir. Yuxarıdakı ayələrdə də görüldüyü kimi, şeytanın dostu olan insanlar "doğru yolda olduqlarını" güman edirlər.

Yalan danışan insanlar da, həmişə özlərində haqq və düzgünlük görərlər. Yalanlarının çox etibarlı səbəbləri olduğunu zənn edərlər. Bu insanlara yalanlarını etiraf etmələri deyildiyi zaman da, təkcə bir neçə kiçik xüsusda dürüst olub digərlərini qəbul etməməkdə israr edərlər. Bunun bir səbəbi, şeytana sədaqətdən imtina edilməməsidir.

Bu sətirləri oxuyan insanların bəziləri, şeytana sədaqəti tam anlamaya bilərlər. Şeytana sədaqət göstərən insanlar, nəfsinə, qüruruna, mənliyinə, mənfəətlərinə, ehtiraslarına möhkəm sadiq olan və bunlara olan sədaqətindən ötrü haqq və doğru şeylərdən çəkinən kəslərdir. Şeytan insanın bu cür zəiflikləri ilə onu aldadar. Onu Allahın yolundan müxtəlif üsullarla azdırmağa çalışar. Dolayısilə, nəfsi, qüruru və mənfəətləri üçün yalanını etiraf etməyən və dürüst davranmayan bir insan, şeytanına xidmət edir, ona sədaqət göstərir. Bu, şeytanın bu insanı yalan xaricindəki başqa məsələlərdə də aldada biləcəyi, özündən asılı edə biləcəyi deməkdir. Çünki nəfsi üçün yalanlarından imtina edə bilməyən bir insan, dinin digər məsələlərində də iradə göstərə bilməz; bir müddət sonra şeytan səhər namazına qalxmasına, fədakarlıq etməsinə, Allahın rizasına uyğun işlər görməsinə də əngəl törədə bilər.

Dolayısilə insan heç bir xüsusda şeytana sadiq olmamalıdır. İnsanların böyük əksəriyyəti, hərdənbir şeytana riayət edilməsinin zərəri olmayacağını düşünərlər. Halbuki, bu şeytanın bir üsuludur. Şeytan insanın hər məsələdə Allahın rizasına əməl edib, tək bir xüsusda özünə riayət edilməsini qəbul edər və bundan bir üsul kimi istifadə edər. Məsələn, həyatının hər anında Allahın rizasına uyan, ibadətlərini yerinə yetirən bir insan, əgər təkcə yalan məsələsində iradəsindən istifadə edə bilməyərək, şeytana uyursa, bu şeytan üçün qazancdır.

Hər anında Allaha itaət və sədaqət göstərən insan, Allahın özündən razı olacağını ümid edə bilər. Əgər bir insan hər cür ibadətini yerinə yetirir, hətta fədakarlıqlar edir, gözəl əxlaq göstərir, lakin buna baxmayaraq yalan danışa bilirsə, bu insan, hələ tək bir xüsusda belə olsa şeytana sədaqət göstərir deməkdir.

Allah bir ayəsində bu mühüm həqiqəti insanlara belə bildirir:

**Onun yaratdığı əkin və heyvanlardan Allah üçün pay ayırdılar, sonra da öz zənlərinə əsasən: "bu, Allah üçündür, bu da şərik qoşduqlarımız üçündür" dedilər. Şərikləri üçün olan (pay), Allahın tərəfinə keçməz, lakin Allaha aid olan şəriklərinin tərəfinə (payına) keçər. Necə də pis hökm verirlər? (Ənam surəsi, 136)**

Allah, qazandıqlarının bir hissəsini Allah üçün, bir hissəsini də digər ilahları üçün ayıran insanların pis hökm verdiklərini bildirmişdir. Allahın razı olacağı əxlaq və imanda, şeytana heç vaxt sədaqət və ya itaət görülməz. Səmimi iman gətirən bir insan, həyatının hər anında təkcə Allahın rizasına uyğun hərəkət edər. Buna görə də, mömin bir insan yalan danışa bilməz. Allahın rizasını, rəhmətini və cənnətini həmişə yalanla əldə edəcəyi hər hansı mənfəətdən üstün tutar. Allah Zumər surəsində dinin təkcə Özünə məxsus olduğunu belə bildirir:

**Xəbərin olsun; xalis (qatqısız) din təkcə Allaha məxsusdur. Ondan başqa vəlilər tutanlar (belə deyərlər:) "biz bunlara təkcə bizi Allaha daha çox yaxınlaşdırsınlar deyə ibadət edirik". Əlbəttə, Allah öz aralarında haqqında ixtilaf etdikləri şeylər barədə hökm verəcək. Həqiqətən, Allah yalançı, kafir olan kimsəni doğru yola yönəltməz. (Zumər surəsi, 3)**

Həmçinin, Allaha qəlbən bağlı olan səmimi mömin, heç vaxt şeytanı haqlı çıxardacaq bir rəftar da göstərməz. Çünki şeytan insanların böyük əksəriyyətinin özünə tabe olacağını söyləmişdir. Beləliklə də, öz aləmində, Allahın yoluna qarşı müharibə başlatmış və nə qədər çox insan özünə tabe olsa, o qədər böyük qələbə qazanacağını hesab etmişdir. Şeytanın bu yanlış və azğın məntiqini Allah ayələrdə belə xəbər verir:

**And olsun ki, İblis, özləri haqqında zənnini təsdiqləmiş oldu, beləliklə iman gətirən bir dəstədən başqa, qalanları ona tabe oldular. Halbuki onun, özlərinə qarşı heç bir məcburedici gücü yox idi; təkcə Biz axirətə iman gətirənlə ona şübhə edəni ayırd etmək üçün (ona bu imkanı verdik). Sənin Rəbbin hər şeyi qoruyandır. (Səba surəsi, 20-21)**

Allahın ayələrindən də aydın olduğu kimi, şeytan xeyli yanılır. Öz aləmində insanları öz tərəfinə çəkərək qazanc əldə edəcəyini zənn edir. Halbuki nə qədər çox insanı azdırsa da, bunun nəticəsində heç bir qazanc təmin edə bilməyəcək, azdırdıqları ilə birlikdə əbədiyyən cəhənnəm əzabı içində yaşayacaq. Həmçinin şeytan tələ qurduğunu zənn edərkən əslində özü çox böyük tələyə düşmüşdür. Allah, yuxarıdakı ayələrdə də bildirildiyi kimi, şeytana, yaxşı insanlarla pis insanları bir-birindən ayırd etmək üçün bu imkanı verdiyini bildirmişdir. Şeytan, insanların dünya həyatında imtahan olunması üçün bir vasitədir və onun insanlar üzərində heç bir məcburedici gücü yoxdur. Şeytan, sadəcə, insanların həqiqi üzlərini ortaya çıxartmaq üçün bir vəsilədir. Lakin nə qədər çox insanın pis olduğunu ortaya çıxartması isə, qətiyyən onun xeyrinə deyil. Tam əksinə bu hərəkətinin nəticəsində o qədər çox insanla birlikdə cəhənnəmə sürüklənəcək.

Hər nə qədər şeytan, məharətlə azdırma üsullarından istifadə etsə də, mömin heç vaxt şeytanın zənnini haqlı çıxardacaq hərəkətlər etməz. Bundan hər an şiddətlə qaçar. Rəftar və danışıqlarında həmişə Allahın tərəfində olduğunu açıq və qəti şəkildə göstərər.

Quranda həyatlarından və danışıqlarından nümunələr verilən peyğəmbərlər bunun ən gözəl nümunəsidir. Onlar həmişə Allahı dost və vəkil tutmuşlar, şeytanın isə ən birinci düşməni olmuşlar. Allah inkar edənlərlə imanında səmimi olanların arasındakı bu fərqi Quranda belə bildirir:

**Allah, iman gətirənlərin vəlisi (dostu və dəstəkçisi)dir. Onları zülmətlərdən nura çıxardar; inkar edənlərin vəliləri isə tağutdur. Onları nurdan zülmətə salarlar. Məhz onlar, Od sakinləridirlər və orada əbədi qalacaqlar. (Bəqərə surəsi, 257)**

# Yalançının qaranlıq ruh halı

Yalan danışan insanların ruh halı da olduqca qaranlıqdır; vicdanları və ağılları təmiz və sağlam deyil. Yalançılığı vərdiş halına gətirən insanların ağlında min bir cür haqq-hesab olar, belə insanlar səmimi və dürüst düşünməklə hərəkət edə bilməzlər. Sonrakı səhifələrdə yalan danışan insanların ruh hallarından bəzi nümunələr veriləcək.

## Söylədiyi yalanlara özünü də inandırmağa çalışar

Yalançı bir insanın ən qəribə rəftarlarından biri, yalan söylədiyini bilə-bilə, söylədiyi yalanlara özünü inandırmağa çalışmasıdır. Məsələn, ailəsi, işi, getdiyi istrahət məkanı barədə bir çox yalan uyduran bir insan, bəzən söylədiyi yalanların təsiri altında qalar və öz-özünə uydurduğu bir dünyada yaşamağa başlayar. Söylədiyi yalanlar həqiqətmiş kimi davranar. Beləliklə də, yalanlarının daha da inandırıcı olacağını düşünər.

İnsanın özünü doğrunu söylədiyinə ən çox inandırmağa çalışdığı vəziyyətlər, bəzi çatışmazlıqlarını və ya vicdansızlıqlarını ört-basdır etməyə çalışdığı anlardır. Məsələn, bir şeyi etməyə gücünün çatmayacağını söyləyən bir insan, əgər yalan söyləyirsə, buna həqiqətən özünü inandırar. Edə biləcəyi halda, edə bilmədiyini söyləyər, bunun səbəblərini sadalayar. Yaxud bir yoldaşı özündən bir paltarını borc almaq istədiyi zaman, onu niyə verə bilməyəcəyinə dair bir yalan söyləyər və bu yalanına özünü inandırmağa çalışar. Hər nə qədər israr edilsə də, söylədiklərinin doğru olduğunu təkrarlayar. Lakin həmin anda yalan söylədiyini çox yaxşı bilir. Yalan söyləyən hər insan, hər nə qədər özünü doğru söylədiyinə inandırsa da, əslində yalan söylədiyini bilər. Allahın Qiyamət surəsində bildirdiyi kimi:

**Xeyr; insan, öz nəfsinə qarşı bəsirətdir. Öz bəhanələrini ortaya atsa belə. (Qiyamət surəsi, 14-15)**

## Yalançı insan, ağılsızlığına baxmayaraq özünü hiyləgər zənn edər

Yalan söyləyən insan, qarşısındakıları aldatdığını və yalanı sayəsində mənfəət təmin etdiyini zənn etdiyi üçün, özünü çox ağıllı zənn edər. Şeytan onu həm yalan söyləməsi, həm də yalanı ilə qürurlanması üçün həmişə təhrik edər. Təkəbbüründən və insanları aldatdığını güman etməsindən ötrü, ətrafındakılara qarşı sevgi və hörməti də qalmaz. Öz-özünü ucaldar. Halbuki, belə bir insan bir çox cəhətdən çox alçalmış vəziyyətə düşər. Çünki əsasən yalanı bəlli olar və ətrafındakıların etimadını və sevgisini itirər, yalançı insan

kimi tanınar. İnsanların, düşüncələrini bilmədiyindən faydalanaraq, hər fürsətdə yalan danışan insanlar, əslində yalan danışdıqdan dərhal sonra böyük sıxıntı yaşamağa başlayar. Hər an yalanlarının ortaya çıxması və alçalma qorxusu ilə yaşayar. Dürüst insanın sahib olduğu mənəvi rahatlığa heç vaxt nail ola bilməzlər. Bu insanlar dünyada olduğu kimi, axirətdə də söylədikləri hər yalandan ötrü böyük peşmançılıq çəkəcəklər.

O zaman kimin ağıllı, kiminsə ağılsız olduğunu daha yaxşı anlayacaqlar və söylədikləri yalanların özlərinə heç bir fayda vermədiyini görəcəklər.

Allah bu cür insanların qapıldıqları yanılmanı bir ayəsində belə bildirir:

**Özlərini (tərifləyərək) təmizə çıxardanları görmürsənmi? Xeyr; Allah istədiyini təmizləyib ucaldar... (Nisa surəsi, 49)**

## Yalançılığı vərdiş halına gətirən insanlarda utanma hissi olmaz

Yalançılığı vərdiş halına gətirən insanların bir hissəsi yalanları ortaya çıxarıldıqda, bundan ötrü utanmazlar, arsız olarlar. Bu insanlar, bu dəfə də başqa yalanlara əl ataraq, əvvəlki yalanlarını xilas etməyə çalışarlar. Halbuki, müsəlman bir insanda həya duyğusu olar. Şeytana uyub, səhvən yalan danışmış olsa belə bundan ötrü utanar, üzü qızarar, dərhal tövbə edərək Allahın özünü bağışlamasını istəyər və doğruları söyləyər.

## Yalançı insan, ətrafındakı insanlara etimad, sevgi və hörmət bəsləməz

İnsan, həqiqətən sevdiyi, hörmət etdiyi və etimad etdiyi insanlara, istənilən şəraitdə yalan danışmaz. Həqiqi səmimiyyətdə, insan hər düşündüyünü ən açıq halı ilə qarşısındakı insanla bölüşər, təkcə həqiqi düşüncələrini açıqlayar. Düşündüyündən nə bir qədər az, nə də bir qədər artıq danışar. Məsələn, səmimi bir insan bir şeyi bəyənmədiyi zaman, "bəyəndim" deməz, doğrusu nədirsə onu söyləyər; sevdiyi və hörmət etdiyi insana söylədiyi ən kiçik yalan və ya göstərdiyi ən kiçik səmimiyyətsiz rəftar, vicdanını olduqca narahat edər və dərhal bunu düzəltməyə çalışar.

Necə ki, cahiliyyə əxlaqında həyat yoldaşları, uşaqlar, dostlar, qardaşlar, tərəfdaşlar bir-birlərinə tez-tez yalan danışarlar. Bir-birinə ən yaxın kimi görünən insanların belə bir-birlərinə asanlıqla yalan söyləyə bilmələri, Quran əxlaqına tabe olmayan insanların əsil sevgi və səmimiyyəti yaşamadıqlarının göstəricilərindən biridir.

## Yalan danışan insan axirəti deyil, təkcə həmin anı düşünər

İnsanın yalan danışmasının qarşısını alacaq ən mühüm həqiqət, ölümündən sonrakı əbədi həyatını, cənnəti və cəhənnəmi düşünməsidir. Bir insana yalan danışıb içində olduğu vəziyyətdən xilas olmaq, həmin an üçün çox asan və ən fayda gətirəcək çıxış yolu kimi görünə bilər. Lakin bir insan dünya həyatında nə qədər çətin vəziyyətdə qalsa da, axirətdə yaşayacağı əzabın bənzərini heç vaxt dünyada görə bilməz. O zaman ağıl və vicdan sahibi bir insan, belə vəziyyətlə qarşılaşdığı zaman dərhal axirətdə ala biləcəyi qarşılığı düşünərək, ona uyğun davranmalıdır. Bir anlıq rahatlıq və ya mənfəət üçün həm dünyada, həm də axirətdə alçalmağı və əzab içində yaşamağı gözə almamalıdır. Allah bir ayəsində dünya həyatları üçün axirət həyatlarını tərk edən insanlar barədə belə buyurur:

**Məhz bunlar axirəti verib dünya həyatını satın alanlardır. Buna görə də bunların nə əzabı yüngülləşdiriləcək, nə də bunlara kömək göstəriləcək. (Bəqərə surəsi, 86)**

# Yalançının özünü aldatma üsulları

Hər insan, yalan danışmağın əxlaqsızlıq olduğunu çox yaxşı bilər. Buna görə də, yalan danışdığı zaman, vicdanını rahatlatmağa, yalançılığına bəhanələr tapmağa çalışar. Halbuki, doğru olan insanın yalan danışdığını etiraf edərək, doğruları söyləməsidir.

İnsan yalançılıq üçün uydurulan bəhanələri də bilməlidir. Çünki bu yolla insan, özü bir yalana əl atdıqda da, düşünəcək və özünü aldada bilməyəcək.

## Xoşniyyətlə yalan söylədiklərini iddia edənlər

İnsanların etdikləri əxlaqsızlıqlar zamanı, özlərini aldatma üsullarından ən məlum olanı, xoşniyyətli olduqlarını irəli sürmələridir. Məsələn, bir insan dedi-qodu edən insanları tənqid edər, qınayar. Lakin özü dedi-qodu etdiyi zaman, özünün xoşniyyətli olduğunu və buna görə də, bunun zərəri olmayacağını iddia edər. Yalançıların böyük hissəsi də eyni müdafiə üsulundan istifadə edərlər; xoşniyyətlə yalan danışdıqlarını, məqsədlərinin pislik deyil, özlərini müdafiə etmək və ya başqasının içini rahatlaşdırmaq olduğunu söyləyərlər. Məsələn, məktəbə getməyən bir uşaq, anasını hirsləndirməmək üçün yalan danışdığını və məktəbə getmədiyini gizlətdiyini irəli sürər.

Bəzi insanlar isə, həqiqəti söylədikləri zaman, yaxınlarının sevgisini və etimadını itirməkdən qorxduqlarını və buna görə də, yalan danışdıqlarını iddia edərlər. Məsələn, gördüyü bir işdə müvəffəqiyyətsiz olan insan bunu müdirindən gizlətmək üçün müxtəlif yalanlara əl ata bilər. Həmçinin bunu "etimad itirməmək" adı altında rahatlıqla davam etdirə bilər. Bu insanlar, özlərini və ətraflarındakı insanları, xoşniyyətli olduqları üçün, söylədikləri yalanın zərəri olmayacağı məsələsində inandırmağa çalışarlar. Halbuki xoşniyyətli olduğunu irəli sürərək pis əxlaq göstərənləri Allah Quranda belə xəbər verir:

**O zaman, necə olur ki, qazandıqları əməllər nəticəsində, onlara müsibət üz verir və sonra sənə gələrək: "şübhəsiz ki, biz yaxşılıqdan və uzlaşdırmaqdan başqa şey istəmədik!" deyə Allaha and içərlər? Məhz Allah bunların qəlblərində olanı bilir. O zaman sən onlardan üz döndər, onlara öyüd ver və nəfsləri barədə onlara açıq və təsiredici söz söylə. (Nisa surəsi, 62-63)**

Bu cür insanlar, canları alınarkən də eyni iddianı irəli sürər və cəhənnəmlik olmalarına baxmayaraq, özlərinin yaxşı insanlar olduqlarını müdafiə edərlər.

**Belə ki, mələklər, öz nəfslərinə zülm edənlərin canlarını aldıqları zaman; "biz heç bir pislik etmirdik!" deyə təslim olarlar. Xeyr, şübhəsiz ki, Allah sizin nələr etdiyinizi Biləndir. (Nəhl surəsi, 28)**

## Söylədikləri yalanların günahsız, kiçik yalanlar olduğunu irəli sürənlər

Bir çox insanın özünü aldatma üsullarından biri, özünü başqaları ilə müqayisə edərək təmizə çıxartmağa çalışmasıdır.

Özlərini böyük fırıldaqçılar və ya yalançılarla müqayisə edənlər, söylədikləri yalanların kiçik və zərərsiz olduğunu düşünməklə özlərini aldatmağa çalışarlar. Yaxud söylədikləri yalanların günahsız yalanlar olduğunu, heç kimə hər hansı zərərinin toxunmadığını düşünərək, işlədikləri günahı yüngülləşdirməyə çalışarlar. Məsələn, alverdən sonra artıq qalan pulu götürən bir uşaq, anasına, heç artıq pul qalmadığını söyləyər və bunun heç kimə zərəri olmadığını düşünər. Halbuki yalanın kiçiyi və böyüyü yoxdur. Allah Həcc surəsinin 30-cu ayəsində insanlara; **"...yalan söz söyləməkdən də qaçın"** deyə əmr etmişdir.

## And içmədiyi müddətcə söylədiyi yalandan məsul olmayacağını zənn etmək

Cahiliyyə əxlaqını yaşayan insanlar arasında çox geniş yayılmış yanlış bir fikir də, and içmədikləri müddətcə söylədikləri yalanlardan məsul olmayacaqlarını zənn etmələridir. Həmçinin bəzi insanların yalan danışarkən etdikləri (ayaq qaldırmaq, barmaq düyünləmək kimi) qəribə və cahil hərəkətlər də bu anlayışa malik şəxslərin niyə "cahil" adlandırıldığının bir göstəricisidir. Bu və bunun kimi edilən sadə oyunlar ilə haram davranışlardan xilas olacağını zənn etmək və bundan axirətdə məsul olmayacağını hesab etmək, təkcə cahil və Allahı lazımınca təqdir edə bilməyən insanların edəcəyi hərəkətlərdir. Bir çox batil inanc kimi bu düşüncənin də ağlı və ya dini bir əsası yoxdur. Allah, Quranda bunu belə açıqlamışdır:

**Sizə nə olur? Necə hökm verirsiniz? Yoxsa (əlinizdə) oxuduğunuz bir kitab var? İçində, nəyi seçib bəyənsəniz, mütləq sizin olacaq deyə yazılıb. Yoxsa sizin üçün qiyamətə qədər and içmişik ki, siz nə hökm versəniz o, mütləq yerinə yetəcək. (Qələm surəsi 36-39)**

## Yalanı başqa yalanla gizlətmə çalışmaq üslubu

Yalançının yalanları əsasən ortaya çıxar. Lakin yalan danışan insan, vicdanlı davranmadığı üçün hər dəfə əvvəlki vəziyyətini xilas etmək üçün bir yalan daha danışar, beləliklə də, zəncirvari yalanlar uydurar. Məsələn, bəzən insan özünə xəbərdarlıq edən yoldaşına etiraz etmək üçün susar və heç bir cavab verməz. Yoldaşı niyə susub heç nə söyləmədiyini soruşduğu zaman isə, ona etiraz etdiyini, bundan ötrü peşmanlıq duyub tövbə etməli olduğunu söyləmək əvəzinə; "bir şey düşünürdüm, ağlıma o ilişdi, buna görə susdum" kimi bir cavab verər. Bu ilk yalanıdır. Sonra nə düşündüyü soruşulduqda isə, ikinci bir yalan daha söyləyərək yalanını davam etdirər. Çünki əslində heç nə düşünmür, qarşısındakına etiraz etmək və hirsləndirmək üçün susur.

Yalançı insan, yuxarıda verilən nümunədəkinə bənzər şəkildə həmişə plan və hesab əsasında olar. Heç bir rəftarı və danışığı təbii, rahat, səmimi və dürüst olmaz.

## İnsanlardan çəkindiyi üçün yalan danışmağa məcbur qaldığını irəli sürmək

Yalanı ortaya çıxan bir insanın özünü xilas etmək üçün əl atdığı üsullardan biri, qarşısındakı insanı günahlandırmaqdır. Ətrafındakı insanların rəftarından çəkindiyi, onlardan gələ biləcək zərərdən qorxduğu üçün yalan danışdığını iddia edər. Beləliklə də, özünü acındırar və yalanını haqlı çıxartmağa çalışar. Məsələn, özünə əmanət edilən pulu itirdiyini söyləməz. Pulu heç görmədiyini və ya almadığını söyləyər. Bu yalanı ortaya çıxdıqda isə irəli sürdüyü bəhanə, özünə pulu əmanət edən insanın reaksiyasından çəkinməsidir. Yaxud görməli olduğu bir işi görməz, lakin bunun üçün də bir çox yalan söyləyər. Başına bir çox hadisə gəldiyini, bunlardan ötrü işini görə bilmədiyini deyər, bir çox uydurma əhvalat danışar. Yalanları bəlli olduqda isə, özünü qorumaq üçün bu yalanları uydurduğunu söyləyər.

Halbuki doğru olan, insanın heç kimdən çəkinmədən, təkcə Allahdan qorxaraq doğruları söyləməsidir. Lakin insanlardan daha çox qorxan bu insanlar, Allahın sərhədlərini aşar və asanlıqla yalan söyləyə bilərlər. Həmçinin bir çox vəziyyətdə qarşılarındakı insanlardan heç bir zərər görməyəcəklər. Lakin etmədikləri və ya unutduqları şeyləri təkəbbürlərindən ötrü qəbul etmək istəmədikləri üçün, bunlara bəhanələr uydurmağı üstün tutarlar. Yalançı insan təkcə digər insanların gözündəki etimadını düşünər. Halbuki, əsil düşünməli və nəzərə almalı olduğu Allahın rizası, rəhməti və cənnətidir.

## Günahsız və uşaq kimi görünmələrinə aldananlar

İnsanları aldadan məsələlərdən digəri də fiziki görünüşləridir. Bəzi insanların xarici görünüşü günahsız və uşaq kimidir. Lakin bu xarici görünüşləri onların günahsız olduqlarını göstərməz. Günahsız olanlar, Qurana tabe olanlar, Allahdan qorxub çəkinərək yaşayanlardır. Qeyd edilən insanlar isə, günahsız və uşaq kimi görünmələrinin özlərini axirətdə xilas edəcəyini zənn edərlər. Dünyada necə bu görünüşləri ilə insanları aldada bilirlərsə, axirətdə də, bu görünüşləri ilə özlərini xoşniyyətli insanlar kimi tanıda biləcəklərini zənn edərlər.

Həqiqətən də bu insanlar, dünya həyatında bir çox insanı günahsız olduqlarına inandıra bilərlər. Yalan danışdıqları zaman, əgər əksini sübut edən dəlil yoxdursa, bir çox insan onların dürüst olduqları nəticəsinə gələ bilər. Lakin Allah hər insanın qəlbini, düşüncələrini, şüur altını belə bilər. Bir insan digər insanlardan nəyi gizlətsə də, Allahdan heç nəyi gizlədə bilməz. Axirətdə isə, gizlətdiyini güman etdiyi hər şey bir-bir ortaya çıxar.

Axirətdə, bu insanların dünyadakı günahsız və uşağa bənzər üzlərindən əsər-ələmət qalmaz; bunun əvəzinə, dünyadakı əxlaqsızlıqlarının bir nəticəsi olaraq qaralmış üz ifadəsinə bürünərlər. Buna görə də, bu cür insanlar aynaya baxıb günahsız və təmiz üzlərinə aldanmamalı, əxlaqsızlıqdan, Quran əxlaqına zidd rəftarlardan qaçmalıdırlar. Çünki axirətdə hər kəsin həqiqi üzü ortaya çıxacaq. Allah bir ayəsində haqq-hesab gününü belə xəbər verir:

**Pis işlər görənlərə isə pisliyin cəzası onun misli qədər verilər. Onları zillət bürüyər. Onları Allahdan qoruya bilən bir kimsə də yoxdur. Onların üzləri sanki zülmət gecənin parçalarına bürünmüşdür. Onlar Od sakinləridir və orada əbədi qalacaqlar. (Yunis surəsi, 27)**

## Yalan danışıb sonra tövbə edərək bağışlanacaqlarını düşünənlər

Bir çox insanın özlərini aldatma üsullarından biri, bir səhvi və ya günahı işləyib, sonra tövbə edərək özlərini xilas edəcəklərini zənn etmələridir. Allah, əlbəttə ki, tövbələri qəbul edər, günahları bağışlayar. Lakin Allahın qəbul etdiyi tövbə, bir insanın cəhalət nəticəsində işlədiyi bir günahından sonra peşmançılıq duyaraq, bir daha etməyəcəyinə qərar verərək etdiyi tövbədir. Allah Quranda belə bildirir:

**Allah ancaq o kəslərin tövbələrini qəbul edir ki, onlar avamlıqları üzündən pis iş gördükdən sonra dərhal tövbə edirlər. Allah onların tövbələrini qəbul edər. Allah Biləndir, Hökm və Hikmət sahibidir. Günah işlər görməkdə davam edənlərdən birinə ölüm gəldiyi**

**zaman: “Mən indi tövbə etdim!” deyənlərin də, kafir kimi ölənlərin də tövbəsi qəbul deyildir. Biz onlar üçün ağrılı-acılı bir əzab hazırlamışıq. (Nisa surəsi, 17-18)**

Allahın ayələrdə bildirdiyi kimi, bir insanın əvvəlcədən; "mən indi bu yalanla özümü xilas edim, sonra tövbə edərəm və günahımdan xilas olaram" düşüncəsi ilə yalan danışması böyük səmimiyyətsizlikdir. Belə düşünən bir insanın tövbəsində səmimi olmayacağı da aydındır.

## Nəticə

Allahın Quranda bildirdiyi kimi; **"...insan, öz nəfsinə qarşı bəsirətdir. Öz bəhanələrini ortaya atsa belə"** (Qiyamət surəsi, 14-15). Bir insan nə qədər bəhanə irəli sürsə də, öz içində yalan danışmaqla dürüst davranmadığını, əxlaqsızlıq etdiyini çox yaxşı bilər. Bəlkə qarşısındakı insanları haqlı və ya günah olduğuna inandıra bilər. Lakin həmişə öz-özünə şahiddir və ən əhəmiyyətlisi, Allah onun nəyi, nə üçün söylədiyini çox yaxşı bilir, içindən keçənləri, şüur altındakı düşüncələrini belə bilir.

**Sözü aşkar etsən də, (gizlətsən də fərqi yoxdur). Çünki, şübhəsiz, O, gizlini də, gizlinin gizlisini də bilir. Allah; Ondan başqa ilah yoxdur. Ən gözəl adlar Ona məxsusdur. (Taha surəsi, 7-8)**

# Yalançının üslubu və rəftarı

Yalan danışan insan özünü olduqca zəkalı hesab edə bilər, lakin əslində rəftarı, danışıq üslubu, səsi, baxışları, işlətdiyi sözlər onu dərhal ifşa edər. Dürüst insanın danışıqları və rəftarı ilə, yalançı insanın rəftarları arasında böyük fərqlər var.

## Yalançı insan həmişə and içərək inandırıcı olmağa çalışar

Dediklərində səmimi olmayan bir insan, inandırıcı görünmək üçün tez-tez and içər. Allah yalançıların bu diqqətçəkən xüsusiyyətini Quranda bir çox ayə ilə bildirir. Məsələn, bir ayədə Allah, münafiqlərin Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v)-in peyğəmbərliyini qəbul etdiklərinə dair and içdiklərini bildirir. Halbuki münafiqlər əslində hz. Məhəmməd (s.ə.v)-in peyğəmbərliyini qəbul etməyiblər. Buna görə də, Allah onların yalançı olduqlarını xəbər vermişdir:

**Münafiqlər sənin yanına gəldikləri zaman: "Biz şəhadət veririk ki, sən Allahın Elçisisən!" dedilər. Allah da bilir ki, sən Onun Elçisisən. Allah şahiddir ki, münafiqlər əsl yalançıdırlar. Onlar andlarını sipər edib insanları Allah yolundan döndərdilər. Həqiqətən, onların etdiyi necə də pisdir! Bu ona görədir ki, onlar iman gətirdikdən sonra inkar edənlərdən oldular. Sonra da onların qəlbinə möhür vuruldu. Artıq onlar anlaya bilməzlər. (Münafiqun surəsi, 1-3)**

Ayələrdə də bildirildiyi kimi, münafiqlər, andlarından yalançılıqları, saxtakarlıqları və kələkbazlıqları üçün sipər kimi istifadə edərlər. Allah digər bir ayədə isə, münafiqlərin bu xüsusiyyətini belə bildirir:

**Həqiqətən sizdən olduqlarına dair Allaha and içərlər. Halbuki onlar sizdən deyildirlər. Lakin onlar qorxaq camaatdır. (Tövbə surəsi, 56)**

Allah Quranda digər bir ayədə isə həmişə and içənlərlə əlaqədar belə buyurur:

**Bunların heç birinə itaət etmə: tez-tez and içənə, alçağa... (Qələm surəsi, 10)**

Yalançıların and içməkdən başqa digər üslub xüsusiyyətləri isə, danışıqlarında tez-tez dindar olduqlarına dair ifadələr işlətmələridir. Məsələn, yalanına inanılmadığı və ya

söylədiklərindən şübhə edildiyi deyildiyi zaman; "Allah mənim qəlbimi bilir", "Allah şahidimdir", "əgər doğru deyilsə, Allah buradan çıxmağı mənə nəsib etməsin" kimi ifadələr işlədərlər. Halbuki bu cür ifadələr bəzən insanların səmimiyyətsizliklərini gizlətmək üçün işlətdikləri bir üsuldur.

Allah, qəlblərində səmimiyyətsizlik olmasına baxmayaraq, Özünü şahid göstərən insanlar üçün Quranda belə bildirmişdir:

**İnsanların eləsi vardır ki, onun dünya həyatı barəsindəki sözləri sənin xoşuna gələr və qəlbindəkinə baxmayaraq Allahı şahid göstərər; halbuki o, qatı düşməndir. (Bəqərə surəsi, 204)**

Səmimi bir insanın halı və rəftarı onun səmimi və dürüst olduğunu onsuz da göstərər. Həyatının hər anında həmişə səmimi davranan bir insanın həmçinin səmimi və dürüst olduğunu bildirməsinə ehtiyac qalmaz, bu onsuz da ətrafındakılar tərəfindən də görülər. Lakin səmimi olmayan insanlar bunu həmişə sözlə göstərməyə çalışarlar və qarşılarındakı insanları inandırmağa çalışarlar.

## Yalana zəmin hazırlayan giriş cümlələrdən istifadə edər

And içmək və dini mənaları olan cümlələrdən istifadə etməklə yanaşı, yalançının, yalanlarına zəmin hazırlayan, yalanını hələ əvvəlcədən inandırıcı göstərməyə çalışan ifadələri olar. "Çox səmimi deyirəm", "mənə inana bilərsən", "bütün səmimiyyətimlə söyləyirəm", "həqiqətən doğru deyirəm" kimi sözlər çox vaxt bu məqsədlə deyilər.

Daha əvvəl də bəhs edildiyi kimi, münafiqlər Peyğəmbərimiz (s.ə.v)-ə Allahın elçisi olduğunu dedikləri zaman sözlərinə, "şəhadət veririk ki," deyə başlayırlar. Sözlərində səmimi olmadıqları üçün, cümlələrdən dəstək alaraq özlərini inandırıcı göstərməyə çalışarlar. Halbuki, Peyğəmbərimiz (s.ə.v)-in Allahın elçisi olduğu onsuz da məlumdur və bunun üçün; "həqiqətən, şəhadət verirəm ki, səmimiyyətlə deyirəm ki," deyə girişə ehtiyac yoxdur. Bu həqiqətə səmimi iman gətirən bir insan bu cür ifadələrə ehtiyac duymaz. Yaxud bir müsəlman; "bunu bütün qəlbimlə deyirəm, inana bilərsən" kimi bir cümləni lazımi hesab etməz, çünki müsəlman həmişə səmimi olar, Allahın özünü hər an gördüyünü və eşitdiyini bildiyi üçün onsuz da səmimiyyətsizlik, ikiüzlülük edə bilməz.

Əlbəttə ki, bu cümlələri istifadə edən hər insan yalan danışır demək deyil. Səmimi bir insan da lazım hesab etdikdə bu ifadələrdən istifadə edə bilər. Lakin yalan danışan insanların əsasən yalanlarına bu cür giriş cümlələr və ya yalanlarını dəstəkləyən cümlələr əlavə etmələri olduqca geniş yayılmışdır.

## Yalançının fiziki görünüşü və bəzi davranışları

Yalançı, ikiüzlü və səmimiyyətsiz bir insanın davranışları, üzü, səsi və üslubu dürüst və səmimi insandan çox fərqli olar və yalançı bu xüsusiyyətləri ilə də özünü ifşa edə bilər. Allah, Quranda ikiüzlü insanların danışıqlarından və üzlərindən tanına biləcəklərini belə bildirir:

**Əgər Biz istəsək, sənə onları, əlbəttə, göstərərik, beləliklə onları simalarından tanıyarsan. And olsun, sən onları, danışıq tərzindən də tanıyarsan. Allah əməllərinizi bilər. (Məhəmməd surəsi, 30)**

Yalan danışan insan ətrafındakılara güvənmir, onları həqiqi dostları və yaxınları hesab etmir. Həm yad hesab etdiyi və yaxınlıq etmədiyi insanlarla birlikdə olmaqdan, həm də yalanının ortaya çıxmasından qorxduğu üçün, rəftarları da rahat və təbii olmaz. Danışığı, səsi, oturuşu olduqca idarəli olar. Büzüldüyündən ötrü səsi zəif çıxar, gözləri kiçilər. Qarşısındakı insanlara qorxu ilə, çəkinərək baxar. Gözlərində səmimiyyətsizliyi, etimadsızlığı və narahatlığı bəlli olar.

Yalançılığa vərdiş etmiş insanlarda hərdənbir yalan anında ifrat sakitlik müşahidə olunsa da, bir çox insan yalan danışdığı zaman həyəcanlanar, əlləri tərləyər. Narahat rəftarlar göstərər. Sakit, hüzurlu, ruhu dinc bir insanın halı olmaz. Yalan danışarkən həmişə gözlərini qaçırdar, qarşısındakı insanın gözlərinə baxa bilməz. Lakin oğrun-oğrun baxar və ya izdihamlı bir yerdə isə, özünü başqalarının arxasında gizlətməyə çalışar. Yalanının ortaya çıxmasından, gözlərinin özünü ifşa etməsindən qorxar.

Allah Hud surəsindəki bir ayəsində səmimiyyətsiz insanların bu yolla özlərini gizlətməyə çalışdıqlarını belə bildirir:

**Xəbəriniz olsun; həqiqətən onlar, ondan gizlənmək üçün sinələrini bükərlər (Haqdan qaçarlar). (Yenə) Xəbəriniz olsun; onlar libaslarına büründükləri zaman, O, gizlətdiklərini də, aşkar etdiklərini də bilir. Çünki O, kökslərdə olanları bilir. (Hud surəsi, 5)**

Bəzi insanlar yalan danışdıqları zaman, göz səyriməsi, yerə baxmaq, fasiləsiz ayaqlarını yelləmək, başını yelləyərək danışmaq kimi əlamətlər də müşahidə olunar. Bu cür səyrimələr və ya davranışların təməlində isə, yalan danışan insanın səmimiyyətsizliyi, saxtakarlığını bildiyi üçün duyduğu narahatlıq və gərginlik yatır.

# Yalançının itirdikləri

Yalançı insanın məqsədi, çox vaxt ətrafındakıları aldatmaq və beləliklə də, özünə bəzi mənfəətlər təmin etməkdir. Çox vaxt da yalan danışaraq hiyləgərlik etdiyini zənn edər. Halbuki, yalançı, yalanı ilə minlərlə insanı aldada bilsə belə, həmişə itki içindədir. Lakin yalançı insan bu həqiqəti görə bilməz; təkcə həmin an yalanı ilə əldə etdiyi müvəqqəti mənfəəti nəzərə alar və bundan ötrü qazanclı olduğunu zənn edər. Kənardan baxıldığı zaman, həqiqətən də mənfəət təmin etmiş ola bilər. Əvvəlcə də qeyd etdiyimiz kimi, heç bir narahatlığı olmadığı halda bir işdən qaçmaq üçün yalan danışa bilər. Məsələn; "belim ağrıyır, sizə kömək edə bilmərəm" deyərək bir əşyanın daşınması işini başqalarına həvalə etmiş ola bilər.

Burada öz aləmində ağıllı bir üsulla fiziki yorğunluqdan xilas olmuşdur. Bu, həmin an üçün fayda kimi görünə bilər, lakin insanın əbədi həyatı üçün bu əslində zərərdir. Yalanla dünyada əldə etdiyi bu bir neçə dəqiqəlik istirahət və ya işdən qaçma həmin insanın axirətdə özü üçün fayda təmin edəcək mükafatı itirməsinə səbəb olmuşdur və əslində ona əbədiyyən davam edəcək zərər gətirmişdir. Necə ki, ağılsız olduğu üçün bunu düşünüb anlaya bilməz. Hər yalançı, mütləq həm dünyada, həm də axirətdə böyük itkilər yaşayar. Allah bir ayəsində, belə insanlar üçün bu cür buyurmuşdur:

**(Özü də) Yer üzündə təkəbbürlənərək və pisliyi təşkil edərək. Halbuki hiylələr, təkcə öz sahibini əhatə edər. Artıq onlar əvvəlkilərin qanunundan başqasını gözləyirlər? Sən Allahın qanununda qətiyyən bir dəyişiklik tapa bilməzsən. (Fatir surəsi, 43)**

Yalançı, insanları aldatmaq, özünü təmizə çıxartmaq, mənfəətlərini qorumaq üçün tələ qurar, lakin bunun nəticəsində öz tələsinə özü düşər və bir çox şeyi itirər. Yalan danışan insanların məruz qaldıqları itkilərdən bəziləri belədir:

**Ətrafındakıların etimadını itirməsi:** Hər yalançı nəhayətdə özünü ifşa etdiyi üçün, ətrafındakıların etimadını və hörmətini itirər. Doğru danışdığı sözlərinə belə artıq şübhə ilə yanaşılar. Bu insanlara heç nə əmanət edilməz, heç kim yalançı ilə ticarət etmək istəməz. Heç vaxt həqiqi və səmimi dost tapa bilməz. Hər kəs ona qarşı təmkinli davranar. İmam Qəzali yalan barədə: *"böyük günahların analarındandır"* demiş və sözünə belə davam etmişdir: *"insan yalançı tanınsa sözünə etimad edilməz, gözlərdən düşər, nəzərlərdə dəyərsiz olar. Yalanın çirkinliyini anlamaq istəsən, başqalarının yalanının çirkinliyinə bax, nəfsin ondan nə qədər nifrət duyacaq gör, yalanının sahibini nə qədər xor görəcəyinə, söyləyəcəyi yalanını nə qədər çirkin hesab edəcəyinə diqqət yetir..."*[8]

**Özünə olan hörmət və etimadını itirər**: Yalançı insan, əxlaqsızlığından xəbərdar olduğu üçün, özünü də pis və dəyərsiz hesab edər. Bundan ötrü də, özünə hörmət duymaz, etimadsız olar. Ətrafındakıların özünə necə baxdığını da bildiyi üçün məzlum və kompleksli rəftar göstərər. Bunu eyni zamanda hiyləgərlik və arxayınlıqla gizlətməyə çalışaraq tamamilə xoşagəlməz rəftar göstərər.

**Yalanı hər dəfə ortaya çıxdıqda alçalar**: yalançı insan yalanı hər dəfə ortaya çıxdıqda alçalmış vəziyyətə düşər. Özünü ucaltmaq, qürurunu qorumaq istəyərkən, tamamilə alçaq xarakter göstərər və bunu ətrafındakı hər kəs görər. Peyğəmbərimiz (s.ə.v)-in də bildirdiyi kimi; *"yalançı həmişə özünü alçaltmaq üçün yalan danışar".*(9)

İmam Rəbbani isə yalançıların düşdükləri vəziyyəti belə açıqlamışdır:

*"İsra surəsinin 84-cü ayəsində tərcüməsində; "hər kəs özünə uyğun işi görər" deyə buyuruldu. Yəni insanın işi və sözü, özünün aynasıdır. Alçaqların sözlərinə yaxşı və ya pis qarşılıq verməmək daha yaxşıdır. Yalanın sonu gəlməz. Onların bir-birini tutmayan sözləri, özlərini rüsvay etməyə kifayət edər..."*(10)

**Vicdanı həmişə narahat olar**: Yalan danışmaq insanın vicdanında böyük narahatlıq yaradar. Həmişə narahatlıq içində olar. Allahın qadağan etdiyi bir şeyi etməkdən ötrü həmişə daxili narahatlıqla yaşayarlar.

Yalançıların ağılsızlığı, söylədikləri yalanın onlara gətirəcəyi nəticələri düşünə bilməmələrindən də asanlıqla aydın ola bilər, belə ki;

1) Yalan danışaraq Allahın onun qarşısına çıxartdığı sınaqda müvəffəqiyyət qazana bilməmişdir.

2) Ehtimal ki, savab qazanacağı xeyirli bir işdən geri qalmışdır.

3) Çox vaxt dünyada arxasınca qaçdığı məqam-mövqe-böyüklük kimi sifətləri belə zədələnmişdir.

4) Həmçinin ən əhəmiyyətlisi, əbədiyyən qalacağı axirət həyatını təhlükə altına salmışdır.

Halbuki insan, özünü alçaltmaq naminə doğrunu söyləsə, mövqe sahibi olma və qürrələnmə iddiası olmadığını göstərəcək. Üstəlik, səhvini qəbul edərək acizliyini ifadə etdiyi üçün də, özünə şəfqət və etimad duyulmasına vəsilə olacaq.

Bunlarla yanaşı, Allahdan qorxduğu üçün vicdanının səsinə qulaq asıb şeytanını məğlub etmiş olacaq, yalanlarından sonra yaşayacağı vicdani sıxıntı və qarmaqarışıqlıqdan xilas olacaq.

Əlbəttə ki, ən böyük qazancı da, Allahın rizasını qazanaraq, böyük qurtuluş olan cənnətə yaxınlaşması olacaq.

Yalançılıqda israr edənlərin əsil böyük itkisi axirətdə olacaq. Dünyadakı kiçik mənfəətləri, anlıq zövqləri üçün Allahın sərhədlərini tanımayan, yalan danışaraq və bunu əhəmiyyətsiz hesab edərək haram işləyənlər, axirətdə bunun qarşılığını cəhənnəm əzabı ilə almaqdan qorxub çəkinməlidirlər. Hər günahkar öz əleyhinə günah qazanar və heç kimə zərər verə bilməz. Yalançının da hər yalanı öz əleyhinə qayıdar. Allah Quranda bu mövzu barədə bu ayələri bildirmişdir:

**Kim bir günah qazanarsa, onu ancaq özünün əleyhinə qazanmış olar. Allah biləndir, hökm və hikmət sahibidir. (Nisa surəsi, 111)**

**(Guya) Allahı və iman gətirənləri aldadırlar. Halbuki təkcə özlərini aldadır və bunu anlamırlar. Onların qəlblərində xəstəlik vardır və Allah da onların xəstəliyini artırmışdır. Yalan söylədiklərinə görə də onlar üçün ağrılı-acılı əzab var. (Bəqərə surəsi, 9-10)**

**Kim yaxşı bir iş görsə, xeyiri özünə, kim də pislik etsə, zərəri öz əleyhinə olar. Sənin Rəbbin qullara zülm edən deyildir. (Fussilət surəsi, 46)**

# Yalançının hiyləgərliyi

Yalançı, səmimiyyətsiz olduğu üçün, istədiyi şeyləri həmişə dolayı yollardan, hiyləgərliklə əldə edər. Hiyləgər insanın hər hansı rəftarı kənardan zərərsiz, hətta faydalı belə görünsə, əslində həmin anda öz mənfəəti üçün haqq-hesab və plan yürüdər, çox vaxt ikiüzlü hərəkət edər. Rəftarları və sözləri heç vaxt səmimi düşüncələrini əks etdirməz.

Hiyləgər, ikiüzlü, yalançı şəxslərə, Quranda verilən nümunələrdən biri Firondur. Hz. Musa (ə.s) və qardaşı hz. Harun (ə.s), Misir xalqını xəbərdar etdikləri zaman, Firon onlara qarşı çıxmış, onları və möminləri öldürməklə təhdid etmiş və möminləri müxtəlif işgəncələrə məruz qoymuşdur. Firon bu zülmünə isə öz aləmində günahsız bir don geydirərək, bütün bunları xalqının yaxşılığı üçün etdiyini söyləmişdir. Fironun Quranda bildirilən sözləri belədir:

**Firon dedi: "Buraxın məni Musanı öldürüm o da (getsin) Rəbbinə yalvarsın. Çünki mən onun sizin dininizi dəyişdirməsindən və ya yer üzündə fəsad törətməsindən qorxuram". (Mümin surəsi, 26)**

Ayədə görüldüyü kimi Firon, hz. Musa (ə.s)-ı, Allaha və dinə qarşı olduğu üçün öldürmək istədiyini açıq-açıq söyləmir, lakin inkarına, pis əxlaqına və zalımlığına, öz aləmində günahsız bir don geydirməyə çalışır. Fironun iddiası, insanları fəsaddan və ya dinlərini itirməkdən xilas etməkdir. Əslində isə Fironun belə məqsədi yoxdur, əksinə fəsadı törədən və dinə düşmən olan özüdür.

Hiyləgər insanlar da eynilə Firon nümunəsində olduğu kimi özlərini olduqlarından fərqli biri kimi göstərərək, həmişə pislik və xainlik düşünərlər. Hiyləgərlik bu cür insanların gündəlik adi davranışlarında da görünə bilər. Məsələn, hiyləgər insanların bir xüsusiyyəti insanları gizlicə hirsləndirmə üsullarından istifadə etmələridir. Ümumiyyətlə belə insanlar zəkalı da olduqları üçün, bunları həmişə yaxşılıq, günahsızlıq maskası altında edərək özlərini ifşa etməməyə diqqət yetirərlər. Lakin zəkalı olmalarına baxmayaraq, ağılsız olduqları üçün əxlaqsızlıqları dərhal görülər. Sevgi və hörmət itirər, xoşagəlməz insanlar olarlar.

Məsələn, hiyləgər insan iş yerindəki stolunda dayanmasını istəmədiyi, tör-töküntü hesab etdiyi bəzi şeyləri götürüb başqa bir insanın stolunun üstünə qoyar. Bunu edərkən də sanki həmin insana bir hədiyyə verirmiş, ona yaxşılıq edirmiş kimi davranar. Halbuki məqsədi həmin insana yaxşılıq etmək deyil, tör-töküntülərini hər hansı yerə qoya bilməkdir. Xüsusən də digər insan təmiz və səliqəli biridirsə, eyni zamanda onun stoluna tör-töküntü qoyaraq onu hirsləndirəcəyini düşünər. Lakin bunu hədiyyə verirmiş ədasıyla

edəcəyi və ya "işinə yarayar deyə düşündüm" deyərək verəcəyi üçün qarşı tərəfin özünə etiraz etməsinə də maneə törətmiş olar.

Hiyləgər insan özünə çətin gələn işləri başından sovmaq məsələsində də, həmişə riyakar planlar qurar. Məsələn, bir yoldaşı özündən kömək istədiyi zaman; "mənim öz işlərim var, kömək edə bilmərəm" deyər. Lakin zaman keçdikcə yoldaşının nə qədər yorulduğunu və özünün bir işi olmadığı halda, onun xeyli zəhmət çəkdiyini görər. Bu yenə vicdanını hərəkətə keçirməz, lakin bu dəfə müdirinin və ya digər şəxslərin özünə niyə ona kömək etmədiyini soruşacaqlarını düşünərək, işlərin bitməsinə yaxın son anda kömək edər. Yaxud müdirinin yanına gedərək; "yoldaşımın çox işi var, çatdıra bilmir, işlər ləngiyəcək, mən ona kömək edim" deyərək, yoldaşının şikayət etmə ehtimalına qarşı tədbir almış olar. Çünki, həmin insan şikayət etdiyi zaman, özünün kömək etmək üçün icazə aldığı deyiləcək və hiyləgər insan öz ağlına görə özünü qorumuş olacaq. Həqiqətən də diqqətlə izlənilmədiyi təqdirdə, çox vaxt hiyləgər insan özünü ifşa etməyə bilər. Lakin hiyləgər əxlaq bir müddət sonra özünü büruzə verər, həmin insanın ümumi rəftarına, üslubuna, üz ifadəsinə qədər əks olunar. Həmin insanda xoşagəlməzlik, səmimiyyətsizlik və kobudluq yaradar.

Hiyləgər insan öz istəkləri əsasında insanları yönləndirmək üsulundan da istifadə edər. Məsələn, bir neçə yoldaşla bir yerə getmək üçün bir yerə toplandıqda, öz istədiyi yerə gedə bilmək üçün rahatlıqla yalan danışar. Yoldaşlarının istədiyi yerlər barədə yalan danışaraq pisləyən sözlər deyə bilər.

Yaxud hiyləgər insan, yemək istəmədiyi, dadını bəyənmədiyi bir yeməyi başqasına tərifləyərək verə bilər. Görünüşdə nəzakətli davranır və yemək verir. Halbuki, məqsədi yalan danışaraq həmin yeməkdən xilas olmaqdır.

İş bölgüsü apararkən özünə, görünüşdə çox görünən, lakin əslində xeyli asan olan işləri götürər. Beləliklə də, ilk baxışda çox fədakar kimi görünər, lakin əslində ədalətli bölgü aparmamış, fədakarlıq etmək əvəzinə eqoist davranmışdır.

Hiyləgər və yalançı insan gün ərzində belə kiçik mənfəətlərin arxasınca qaçar. Bəlkə bir neçə saatlığına bəzi mənfəətlər təmin edər, hər kəs işləyərkən oturar, öz işini etdirər, öz istədiyi yerə gedər. Lakin əslində heç bir qazanc təmin etməz, əksinə çox mühüm şeylər itirər. Hər şeydən əvvəl, nə qədər zəkalı və hiyləgər olsa da, Allah belə insanların ağıllı hərəkətlər etməsinə icazə verməz. Belə bir insan sevimliliyini, gözəlliyini, istiqanlılığını itirər, çox soyuq, xoşagəlməz insan olar. Allah, belə ağılsız və mənfəətpərəst insanların üzərinə murdarlıq çökdürər. Allah bunu bir ayəsində belə bildirir:

**Allahın icazəsi olmadan heç kəs iman gətirə bilməz. O, anlaya bilməyənlərinə üzərində murdarlıq çökdürər. (Yunis surəsi, 100)**

Həmçinin bu insan, belə vəziyyətə düşdüyünü və kənardan akvariumdakı balıq kimi aydın və dəqiq görüldüyünü anlaya bilməz. Daha da əhəmiyyətlisi Allahın rizasını, rəhmətini və cənnətini itirə bilər. Dünyadakı çox kiçik mənfəətləri üçün axirətdəki əbədi xoşbəxtliyi, rahatlığı, hüzuru və təxəyyül belə edə bilməyəcəyi görkəmdəki nemətləri görməzlikdən gəlmiş olar. Allah, axirətdə nəsibi olmayanlar üçün Quranda belə buyurmuşdur:

**...İnsanların eləsi vardır ki; "ey Rəbbimiz, bizə dünyada ver" deyər; onun axirətdə heç bir nəsibi yoxdur. (Bəqərə surəsi, 200)**

# Quranda bildirilən yalançılar

## İkiüzlü yalançılar: münafiqlər

Münafiqlər, Allahın Quranda iki üzlülükləriylə tanıtdığı insan cəmiyyətidir. Münafiqlərin ən mühüm xüsusiyyətlərindən biri yalançılıqdır. Münafiq, Allaha və Onun Rəsuluna iman gətirmədiyi halda, iman gətirdiyini söyləyər. Möminləri sevmədiyi halda, onları sevdiyini, ölənə qədər onlardan ayrılmayacağını iddia edər. Mənfəətlərinə ilk dəfə zərər gəldiyi anda, möminləri tərk edəcəyini bilməsinə baxmayaraq, hər çətinlikdə və hər şəraitdə möminlərin yanında olacağına dair and belə içər. Peyğəmbərimiz (s.ə.v); *"yalan danışmaq nifaq qapılarından bir qapıdır"*[(11)] deyərək bu həqiqətə diqqət çəkər. Nifaq; ikiüzlülük, dində riyakarlıq, müsəlman göründüyü halda iman gətirməmək, yəni münafiqlik deməkdir.

Peyğəmbərimiz (s.ə.v)-in də ifadə etdiyi kimi yalan nifaqa, yəni münafiqliyə bir qapı açar.

Münafiqlik və yalançılıq barədə səhabələrdən Həsən əl-Bəsri belə deyib:

*"Belə deyilirdi: için və çölün, sözlərin və əməllərin, giriş və çıxışların bir-birlərindən fərqli olması münafiqlikdən hissədir. Münafiqliyin əsaslandırıldığı təməl, yalandır".*[(12)]

Məsələn, Allah ayələrdə münafiqlərin möminlərə kömək vəd etdiklərini bildirir, lakin möminləri onların yalan söylədikləri barədə də belə xəbərdar edir:

**Münafiqlərin, Kitab əhlindən inkar edən qardaşlarına: "Əgər siz yurdunuzdan qovulsanız, biz də sizinlə birlikdə çıxıb gedəcək və sizə qarşı heç vaxt heç kəsə tabe olmayacağıq. Əgər sizə qarşı müsəlmanlar vuruşsalar, mütləq sizə kömək edəcəyik!" dediklərini görmədinmi? Allah onların yalançı olduğuna şahiddir. Əgər onlar yurdlarından qovulsalar, münafiqlər onlarla birlikdə çıxıb getməz, müsəlmanlar onlara qarşı vuruşsalar, onlara köməklik göstərməzlər. Əgər onlara köməkliş göstərmiş olsalar belə, geri dönüb qaçar, sonra da onlara heç bir kömək göstərilməz. (Həşr surəsi, 11-12)**

Münafiqlərin digər yalançılığı da, etdikləri xainliklər üçün yalan bəhanələr uydurmalarıdır. Allah digər bir ayədə münafiqlərin bu rəftarını belə xəbər verir:

**Geri qalan bədəvilər sənə: "bizi, var-dövlətimiz və ailələrimiz yayındırdı. Allahdan bizim üçün bağışlanma dilə!" deyəcəklər. Onlar qəlblərində olmayanları dilləri ilə deyirlər. De: "Əgər Allah sizə bir zərər yetirmək və ya bir xeyir vermək istəsə, Onun edəcəyi işin qarşısını kim ala bilər?" Xeyr, Allah sizin nə etdiyinizdən xəbərdardır. (Fəth surəsi, 11)**

Münafiqlərin digər bir xüsusiyyəti isə, "yalana inanmalarıdır". Bu insanlar yalan sözlərə etimad edər, yalan sözlərdən, uydurma hadisələrdən istifadə edərək fitnə törətməyə çalışarlar. Allah, Quranda münafiqlərin bu xüsusiyyətini belə bildirmişdir:

**Ey peyğəmbər! Qəlbləri iman gətirmədiyi halda ağızları ilə: "iman gətirdik!" deyənlərlə, yəhudilərdən küfr içində səy göstərənlər səni kədərləndirməsin. Onlar yalana qulaq asanlar, sənin yanına gəlməyən başqa camaat üçün qulaq asanlar (xəbər toplayanlar)dır. Onlar sözlərin yerini dəyişdirərlər,"sizə bu verilsə, onu götürün, bu verilməsə, ondan qaçın" deyərlər. Allah, kimin fitnə(yə düşmə)sini istəsə, artıq onun üçün sən Allaha heç nə iləmane ola bilməzsən. Məhz onlar, Allahın qəlblərini təmizləmək istəmədikləridir. Dünyada onlar üçün alçaldılma, axirətdə isə böyük əzab var. Onlar yalana qulaq asanlar və haram yeyənlərdir. Əgər onlar sənin yanına gəlsələr, aralarında hökm ver və ya onlardan üz döndər. Əgər onlardan üz döndərsən, sənə heç bir şeylə qətiyyən zərər verə bilməzlər. Əgər onların arasında hökm verməli olsan, ədalətlə hökm ver. Şübhəsiz ki, Allah ədalətlə hökm verənləri sevər. (Maidə surəsi, 41-42)**

Münafiqlər möminlərə yalan söylədikləri üçün özlərini onlardan üstün zənn edərlər və möminləri aldatdıqlarını zənn edərək sevinərlər. Halbuki, bu onların nə qədər ağılsız və bəsirətsiz olduqlarının bir dəlilidir. Çünki onlar ikiüzlülüklərini insanlardan gizlətsələr belə, Allahdan gizlədə bilməzlər. Həmçinin onların özlərini dindar göstərmələri möminlərə heç bir zərər verməz. Hər kəsin dini özünədir. Münafiq həm dinsizliyi, həm də ikiüzlülüyündən ötrü cəhənnəm əzabı ilə qarşılıq görəcək və buna görə də, əsil alçalan, alçaldılan və lağ ediləcək vəziyyətdə olan özüdür. Allah Bəqərə surəsində münafiqlərin bu əxlaqsızlıqlarını belə xəbər verir:

**İman gətirənlərlə qarşılaşdıqları zaman: "iman gətirdik!" deyərlər. Şeytanları ilə təklikdə qaldıqda isə; "şübhəsiz ki, sizinləyik. Biz (onlarla) yalnız istehza edirik" deyərlər.**

**(Əsil) Allah onlara istehza edər və azğınlıqları içində çaşbaş vəziyyətdə dolanmaları üçün (müəyyən) möhlət verər.**

**Məhz bunlar, hidayət əvəzinə azğınlığı satın alıblar; lakin bu ticarətləri fayda verməmiş və hidayətə də nail olmamışlar. (Bəqərə surəsi, 14-16)**

## Hz. Yusif (ə.s)-ın qardaşları

Quranda yalançılıqlarından bəhs edilən insanların bir hissəsi də, hz. Yusif (ə.s)-ın qardaşlarıdır. Hz. Yusif (ə.s)-ın qardaşları həm yalançı, həm də böhtançıdırlar. Həmçinin yalançı olduqları halda həmişə and da içirlər.

Hz. Yusif (ə.s)-ın qardaşları, onu qısqandıqları üçün öldürməyə qərar verərək çirkin bir plan qurmuş və bu planları üçün atalarından qardaşlarını özləri ilə göndərməsini istəmişlər. Ataları hz. Yaqub (ə.s)-ın tərəddüd etdiyini gördükdə də, onu qoruyacaqlarına dair and içmişlər. Halbuki hələ ən başdan planları, hz. Yusif (ə.s)-ı qorumaq deyil, öldürmək olmuşdur.

Əvvəlcə atalarına qardaşlarının özləriylə gəlməsini istədiklərini söyləmiş və onu çox yaxşı qoruyacaqlarına dair söz vermişlər. Bütün bunlar, hz. Yusif (ə.s)-ı öldürmək üçün qurduqları tələnin bir hissəsidir. Hz. Yusif (ə.s)-ın qardaşlarının Quranda bildirilən yalanları ardıcıllıqla belədir:

**Onlar belə demişdi: "Yusif və qardaşı atamıza bizdən daha sevimlidir, halbuki biz, bir-birini möhkəmləndirən bir dəstəyik. Əslində atamız açıq-aydın yanılır". (Yusif surəsi, 8)**

Hz. Yaqub (ə.s)-ın, hz. Yusif (ə.s)-ı daha çox sevməsindən ötrü yanıldığını söyləmələri bir yalandır. Çünki, onlar da mütləq hz. Yusif (ə.s)-ın özlərindən xeyli üstün əxlaqlı və sevilməyə daha layiq olduğunu bilirlər.

**Öldürün Yusifi və ya onu bir yerə aparıb atın ki, atanızın üzü təkcə sizə (dönük) olsun. Bundan sonra əməlisalehlərdən olarsınız. (Yusif surəsi, 9)**

Qardaşlarını öldürdükdən sonra əməlisalehlərdən ola bilməyəcəklərini hamısı bilir. Lakin biri belə bir yalan söylədikdən sonra hamısı bunu qəbul edərək, edəcəkləri əxlaqsızlığı və zalımlığı günahsız göstərmək istəyirlər. Həmçinin kənardan baxanda atalarının sevgisi üçün bunu etdikləri görünür. Bu da bir yalandır, çünki qardaşlarını öldürə biləcək əxlaqa sahib insanlar həqiqi sevgidən anlamazlar və belə bir tələbləri də olmaz. Onlar təkcə qısqanclıq və rəqabətdən ötrü qardaşlarını öldürmək istəyirlər.

**(Bu qərara gəldikdən sonra) "ey atamız!" dedilər. "Sənə nə olub ki, Yusifi bizə etibar etmirsən? Halbuki əslində biz onun yaxşılığını istəyənlərik. Sən onu sabah bizimlə göndər, doyunca gəzsin, oynasın. Əlbəttə ki, biz onu qoruyub himayə edərik. (Yusif surəsi, 11-12)**

**Dedilər: "and olsun, biz, bir-birini himayə edən bir dəstə olduğumuz halda, canavar onu yesə, bu vəziyyətdə, şübhəsiz ki, ziyana düçar olan (aciz) kəslər olarıq". (Yusif surəsi, 14)**

Yuxarıdakı ayələrdə görüldüyü kimi, yalançılar özlərini çox xoşniyyətli və günahsız göstərmək üçün böyük diqqət göstərirlər. Məqsədlərinin qardaşlarının yaxşılığı olduğunu vurğulayır və onun təhlükəsizliyi üçün zəmanət belə verirlər.

Hz. Yusif (ə.s)-ın qardaşları yuxarıdakı ayələrdə də görüldüyü kimi and içərək atalarını doğru söylədiklərinə, etibarlı olduqlarına dair inandırmağa çalışmışlar. Həmçinin bu yalanları sayəsində qardaşlarını yanlarına götürmüş və onu bir quyunun dərinliyinə atmışlar. Geri qayıtdıqları zaman isə, özlərini günahsız göstərmək üçün yenə yalanlara əl atamış etmiş və saxta hiylələr qurmuşlar:

**Axşamüstü atalarının yanına ağlayan vəziyyətdə gəldilər. Dedilər: "ey atamız! Həqiqət budur ki, biz getdik, yarışırdıq. Yusifi də yeməklərimizin (və ya əşyamızın) yanında qoymuşduq. Lakin onu canavar yeyib. Onsuz da, biz doğrunu söyləsək də, sən bizə inanan deyilsən".**

**Həmçinin üstünə yalandan qan (yaxılmış) köynəyini gətirdilər. ""Xeyr" dedi. Nəfsiniz sizi yanıldaraq (belə) bir işə sövq edib. Bundan sonra (mənə düşən) gözəl səbir etməkdir. Sizin bu uydurduqlarınıza qarşı (Özündən) kömək istəniləcək olan Allahdır". (Yusif surəsi, 16-18)**

Ayələrdə də görüldüyü kimi, hz. Yusif (ə.s)-ın qardaşları yalanlarını inandırıcı hala gətirə bilmək üçün ağlayırlar. Ağlamaq, emosional təzyiq göstərmək, özünü acındırmaq, saf görünmək, yalançıların ən nəzərəçarpan üsulları arasındadır. Bu yolla qarşı tərəfi daha asan inandıra biləcəklərini zənn edirlər. Həmçinin; "onsuz da, biz doğrunu söyləsək də, sən bizə inanan deyilsən" deyərək artistliklərini daha da gücləndirir, özlərini haqsızlığa uğramış kimi göstərməyə çalışırlar. Yalançıların tez-tez əl atdığı digər bir üsul da budur.

Yalançıların digər bir üsulu da yalanlarını dəstəkləyəcək saxta dəlillər meydana gətirmələridir. Hər yalan və böhtanda əsasən bir də saxta dəlil olar. Buna görə də, möminlər, imanlarından şübhə duyduqları şəxslərin göstərdiyi dəlilləri diqqətlə təhlil etməli, ilk görünüşə aldanaraq qərar verməməlidirlər. Necə ki, hz. Yaqub (ə.s) imanından qaynaqlanan ağlı, bəsirəti və fərasəti ilə oğullarını çox yaxşı tanıyır və onların gətirdikləri saxta dəlilə aldanmır. Ağlamalarına və özlərini təmizə çıxartmağa çalışan ifadələrinə baxmayaraq, onların etdikləri pisliyi də anlamışdır.

## Quranda adı keçən böhtançılar

Yalançıların bir xüsusiyyəti də insanlara böhtan atmalarıdır.

Allah Quranda böhtançılar barədə belə bildirir:

**Kim xəta edər və ya günah qazanarsa, sonra da onu təqsiri olmayanın boynuna atarsa, özü özünə böhtan atmış və açıq-aydın günaha batmış olar. (Nisa surəsi, 112)**

Peyğəmbərimiz (s.ə.v) də, insanları ləkələmək üçün böhtan atanlar barədə belə buyurmuşdur:

*"Haqsız yerə bir müsəlmanı ləkələmək üçün, əleyhində bir sözü yayan insanı, Allah bu sözündən ötrü qiyamət günü özünü cəhənnəmə atmaq surətiylə ləkələyər".*(13)

Quranda böhtançılar barədə bir çox nümunə verilir.

**- Hz. Yusif (ə.s)-a böhtan atan qadın**

Hz. Yusif (ə.s) kiçik yaşından etibarən Allaha qəlbən bağlı, Allahın sərhədlərini qoruyan təqva sahibi bir mömindir. Kiçik yaşda qardaşlarının özünə bir tələ qurmaları nəticəsində, atasından və ailəsindən ayrı düşmüş və Misirli mübarək insanın yanında böyümüşdür.

Hz. Yusif (ə.s), diqqət çəkəcək qədər gözəl bir insandır. Yanında qaldığı mübarək insanın həyat yoldaşı isə, hz. Yusif (ə.s)-a maraq göstərmiş və onunla qeyri-qanuni cinsi əlaqəyə girmək istəmişdir. Lakin Yusif peyğəmbər (ə.s) təqvası və Allah qorxusundan ötrü qadının bu istəyini rədd etmişdir. Sonunda qadının əri gəldikdə qadın hz. Yusif (ə.s)-a böhtan atmış və onun özündən murad almaq istədiyini söyləmişdir. Qadının bu böhtanı nəticəsində hz. Yusif (ə.s) zindana atılmışdır. Allah Quranda belə bildirir:

**Evində qaldığı qadın ondan murad almaq istədi və qapıları möhkəm bağlayıb: "İstəyim sənin üçündür, gəlsənə!" dedi. O (Yusif) isə: "Allaha sığınıram! Çünki sənin ərin mənim ağamdır, mənə yaxşı baxmışdır. Həqiqət budur ki, zalımlar nicat tapmazlar!" dedi.**

**And olsun, qadın onu arzulamışdı, əgər Rəbbinin (zinanı qadağan edən) qəti dəlilini (bürhanını) görməsəydi, o da (Yusif də) onu arzulamışdı. Beləliklə Biz ondan çirkin əməli və fuhuşu geri çevirmək üçün (ona dəlil göndərdik). Çünki o, müxlis (sadiq) qullarımızdan idi.**

**İkisi də qapıya tərəf qaçdılar. Qadın onun köynəyini arxadan yırtdı. (Tam) Qapının yanında qadının ağası (əri) qarşılaşdılar. Qadın dedi: "ailənə pislik etmək istəyənin cəzası, zindana salınmaqdan və ya ağrılı-acılı əzaba düçar edilməkdən başqa nə ola bilər?"**

**(Yusif) dedi: "onun özü məndən murad almaq istədi". Qadının yaxınlarından olan bir şahid belə şahidlik etdi: "əgər onun köynəyi öndən yırtılıbsa, bu zaman qadın doğru deyir, o isə yalançılardandır.**

**Yox əgər onun köynəyi arxadan yırtılıbsa, bu zaman isə qadın yalan deyir, o isə doğru danışanlardandır".**

**(Əri) Onun köynəyinin arxadan yırtıldığını gördükdə: "həqiqətən, bu sizin hiylələrinizdən (biri)dir. Həqiqətən də, sizin hiyləniz böyükdür" dedi. (Yusif surəsi, 23-28)**

Qadının böhtançı olduğu həyat yoldaşı və ətrafındakılar tərəfindən bilinməsinə baxmayaraq, hz. Yusif (ə.s) zindana atılmışdır. Böhtan atan qadın, böhtan atdığını şəhərdəki qadınlara açıq-aydın bildirmişdir. Onlar da bu böhtana ortaq olmuş və hz. Yusif (ə.s)-ı qorumamışlar. Allah bu vəziyyəti ayələrdə belə bildirir:

**Şəhərdə (bəzi) qadınlar: "Mübarək (Vəzir)in arvadı öz köləsindən murad almaq istəyirmiş. Belə ki, sevgi onun köksünə sinib. Doğrusu biz onu açıq-aydın azğınlıq içində görürük" dedi.**

**(Qadın) Onların hiylələrini eşitdikdə, onlara (bir dəvətçi) göndərdi, oturub dayanacaqları yerlər hazırladı və hər birinin əlinə (önlərindəki meyvələri soymaları üçün) bir bıçaq verdi. (Yusifə də:) "Çıx, onlara (görün)" dedi. Beləliklə də, onlar onu (fövqəladə gözəllikdə) gördükdə (fövqəlbəşər varlıqmış kimi gözlərində) böyütdülər, (heyrətləndiklərindən) əllərini kəsib: "Allahı tənzih edirik; bu bir bəşər deyil. Bu ancaq üstün bir mələkdir" dedilər.**

**Qadın dedi: “Barəsində məni qınadığınız məhz budur! And olsun, mən ondan murad almaq istədim o isə (özünü) qorudu. Yenə and olsun, əgər əmrimi yerinə yetirməsə, mütləq zindana atılacaq və zəlillərdən olacaq. (Yusif surəsi, 30-32)**

Cahil cəmiyyətlərdə insanlar böhtanlara, yalan və dedi-qodulara, yalan olduğunu bildikləri halda, mənfəətlərinə xələl gətirməmək üçün səs çıxartmazlar. "Mənə toxunmayan ilan min yaşasın" şəklində çirkin məntiqlə hərəkət edib, ədalətin tərəfində dayanmazlar. Yuxarıdakı ayələrdə də qeyd edilən hadisə, bunun aydın bir nümunəsidir.

Lakin bu heç unudulmamalıdır ki, Allah həmişə dürüstlərə kömək edər. Hz. Yusif (ə.s) özünə atılan böhtan nəticəsində zindana atılmışdır, lakin sonradan, onun dürüstlüyü aydın olmuş və hz. Yusif (ə.s) Misirdə rəhbər olaraq Allahın nemətinə nail olmuşdur.

**- Hz. Yusif (ə.s)-a qardaşlarının atdığı böhtan**

Hz. Yusif (ə.s)-a atılan digər bir böhtan isə qardaşlarından gəlmişdir. Qardaşları illər sonra hz. Yusif (ə.s) ilə qarşılaşdıqları zaman, onu tanımamış və arxasınca onun oğru olduğu yalanını söyləmişlər. Bu yalandır və qardaşları ona bəslədikləri kindən ötrü, onu öldü zənn etdikləri bir dövrdə belə ona böhtan ataraq kinlərini ortaya çıxartmışlar. Allah bu hadisəni Quranda belə bildirir:

**Onlar dedilər: “Əgər o oğurlayıbsa, daha öncə onun qardaşı da oğurluq etmişdi”. Yusif bunu öz içində gizlədib onlara açıb söyləmədi və öz-özünə: “Siz daha pis mövqedəsiniz. Allah sizin uydurduqlarınızı daha yaxşı bilir” dedi. (Yusif surəsi, 77)**

**- Mömin qadınlara atılan böhtan**

Quranda mömin qadınlara atılan böhtanlara da diqqət çəkilir və möminlərin belə bir böhtanla qarşılaşdıqları zaman, necə bir rəftar göstərməli olduqları bildirilir. Bu mövzuyla əlaqədar ayələr belədir:

**Doğrusu, uydurulmuş bir yalanla gələnlər, sizin aranızdan olan bir dəstədir; siz onu özünüz üçün şər hesab etməyin, əksinə o sizin üçün xeyirdir. Onlardan hər bir şəxsin qazandığı günahın (cəzası) var. Onlardan (böhtanın) böyüyünü öz üstünə götürənə isə böyük əzab var. (Nur surəsi, 11)**

**Namus sahibi, bir şeydən xəbərsiz, mömin qadınlara (zina böhtanı) atanlar, dünyada və axirətdə lənətləniblər. Həmçinin onlar üçün böyük əzab var. O gün, dilləri, əlləri və ayaqları etdikləri əməllər barəsində onların əleyhinə şəhadət verəcək. O gün Allah onlara layiq olduqları cəzanı tam verəcək və onlar da Allahın, şübhəsiz, Haqq olduğunu biləcəklər. (Nur surəsi, 23-25)**

Allah möminlərə böhtan bir sözlə qarşılaşdıqları zaman, bu sözə ortaq olmamalarını və bu sözün böhtan olduğunu söyləmələrini bildirir. İnsanların böyük hissəsi dedi-qodudan, yalan olduğunu bilə-bilə sensasiya yaradacaq xəbərləri dinləmək və nəql etməkdən şeytani zövq alarlar. Allah bu insanlar barədə belə bildirir:

**Onlar yalana qulaq asanlar və haram yeyənlərdir. Əgər onlar sənin yanına gəlsələr, aralarında hökm ver və ya onlardan üz döndər. Əgər onlardan üz döndərsən, sənə heç bir şeylə qətiyyən zərər verə bilməzlər. Əgər onların arasında hökm verməli olsan, ədalətlə hökm ver. Şübhəsiz ki, Allah ədalətlə hökm verənləri sevər. (Maidə surəsi, 42)**

Allah, Özündən qorxub çəkinən ağıl sahibi möminlərin rəftarını isə Quranda belə bildirmişdir:

**Məgər onu eşitdikləri zaman, mömin kişilər və mömin qadınlar öz nəfsləri haqda yaxşı fikirdə olub: "bu, açıq-aydın bir böhtandır!" deməli deyildilər?**

**Ona qarşı dörd şahid gətirməli deyildilər? Şahidləri gətirmədiklərinə görə, artıq onlar Allah yanında əsil yalançıdırlar.**

**Əgər Allahın dünyada və axirətdə sizə lütfü və mərhəməti olmasaydı, içinə daldığınız dedi-qoduya görə sizə böyük əzab toxunardı.**

**O vəziyyətdə, siz onu (böhtanı) dillərinizlə ötürdünüz və haqqında məlumatınız olmayan şeyi ağızlarınızla söylədiniz və bunu asan hesab etdiniz; halbuki bu Allah dərgahında çox böyük (günah)dır.**

**Bunu eşitdiyiniz zaman: "Bu mövzuda söz söyləmək bizə yaraşmaz. (Allahım) Sən ucasan! Bu, böyük böhtandır!" deməli deyildiniz? (Nur surəsi, 12-16)**

Allah həmçinin möminlərə imanından şübhə duyduqları bir insandan və ya imansız birindən bir xəbər gəldikdə onu ətraflı şəkildə araşdırmalarını əmr edir. Əks təqdirdə yalan bir xəbər və ya böhtan nəticəsində günahsız bir insana zərər toxuna bilər. Allahın rəhməti sayəsində belə bir risk aradan qaldırılmışdır.

**Ey iman gətirənlər! Əgər bir fasiq sizə bir xəbər gətirsə, onu "ətraflı şəkildə araşdırın". Yoxsa bilmədən bir qövmə pislik edər, sonra da etdiklərinizə peşman olarsınız. (Hucurat surəsi, 6)**

## Halal və haramlar uyduranlar

Allaha qarşı deyilən yalanların ən böyüklərindən biri insanların halallar və haramlar uydurmalarıdır. Allah bir ayədə belə bildirir:

**Dilinizin uydurduğu yalana əsasən: "Bu halaldır, o haramdır!" deməyin, çünki Allaha qarşı yalan uydurmuş olursunuz. Şübhəsiz ki, Allaha qarşı yalan uyduranlar nicat tapmazlar. (Nəhl surəsi, 116)**

Bəzi insanlar dini olduğundan daha çətin göstərmək və ya özlərini daha təqvalı göstərmək üçün halal olan şeyləri özləri və ətrafları üçün haram edərlər. Halbuki Allah halal və haram etdiyi şeylərin hamısını Quranda və Peyğəmbərimiz (s.ə.v)-in hədislərində bildirmişdir.

Bəzi insanlar da, insanları azdırmaq üçün haramları müxtəlif uydurma səbəblərlə halal kimi göstərərlər. Bu insanlar böyük məsuliyyət yüklənərək, axirətdə hesabını verə bilməyərək cəzalandırılacaqları bir şeyə cəhd edirlər. Allah Quranda bu insanlar üçün belə buyurur:

**De: "Allahın sizin üçün endirdiyi sizin bir hissəsini haram və halal etdiyiniz ruzidən xəbər vardırmı? Deyin görək?" De: "Allah Özü sizə icazə verdi, yoxsa Allaha iftira atırsınız?" (Yunis surəsi, 59)**

Halbuki haram və halalın mənbəyi Qurani Kərim və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsidir.

## Allaha qarşı yalan uyduranlar

Bəzi insanlar din adı altında bir çox yalanlar uydurarlar. Yuxarıda da qeyd edildiyi kimi halalları haram, haramları halal edər və ya dində olmayan şeyləri varmış kimi göstərərlər. Dində olanları da dində yoxmuş kimi göstərərlər. Allah bu insanları Quranda cəhənnəm əzabı ilə belə təhdid etmişdir.

**Allaha qarşı yalan uyduran və özünə gəldikdə həqiqəti (Quranı) yalan sayan kimsədən daha zalım kim ola bilər? Məgər cəhənnəmdə kafirlər üçün yer yoxdur? (Zumər surəsi, 32)**

**Sən Qiyamət günü Allaha qarşı yalan uyduranların üzlərini qapqara görəcəksən. Məgər cəhənnəmdə təkəbbürlülər üçün yer yoxdur? (Zumər surəsi, 60)**

**Allaha qarşı yalan uydurub iftira atandan daha zalım kim ola bilər? Onlar Rəbbinin hüzuruna gətiriləcək və şahidlər: "Bunlar Rəbbinə qarşı yalan uyduranlardır" deyəcəklər. Xəbəriniz olsun; Allahın lənəti zalımların üzərinədir! O kəslərin ki, insanları Allah yolundan sapdırır, onda nöqsan axtarır və Axirəti inkar edirlər. Onlar yer üzündə (Allahı) aciz qoya bilməz və bunların Allahdan başqa vəliləri yoxdur. Onların əzabı qat-qat artırılar. Çünki onlar haqqı eşidə bilmirdilər və görmürdülər. (Hud surəsi, 18-20)**

Allahın, dində olmayan şeyləri uyduranların söylədiklərinə dair Quranda verdiyi nümunələrdən bəziləri belədir:

**Sizdən zövcələrini anaya bənzədərək özlərinə haram edənlər bilsinlər ki, zövcələri onların anaları deyillər. Anaları ancaq onları doğmuş qadınlardır. Şübhəsiz ki, onlar çirkin və yalan söz söyləyirlər. Həqiqətən, Allah çox əfv edəndir, çox bağışlayandır. (Mücadilə surəsi, 2)**

**"Bəzi uydurma yalanlar üçünmü Allahdan başqa ilahlar istəyirsiniz?" (Saffat surəsi, 86)**

**Diqqət yetirin; həqiqətən onlar, uydurduqları yalanlardan ptrü deyirlər ki; "Allah doğdu". Onlar, şübhəsiz ki, mütləq yalan danışanlardır. (Saffat surəsi, 151-152)**

**(Bu Quran) "Allah Özünə övlad götürmüşdür!" deyənləri xəbərdar edib qorxudur. Bu haqda nə onların, nə də atalarının hər hansı biliyi var. Ağızlarından çıxan söz nə (qədər) böyükdür. Onlar yalandan başqa şey danışmırlar. (Kəhf surəsi, 4-5)**

**Kitab əhlindən eləsi var ki, ona bir qantar mal əmanət etsən, onu sənə tam qaytarar. Onlardan eləsi də var ki, ona bir dinar versən belə, başının üstündə durub tələb etmədikcə onu sənə qaytarmaz. Bu, ona görədir ki, onlar: "ümmilər (aciz və cahillər və ya Kitab əhlindən olmayanlardan) ötrü üzərinizdə məsuliyyət yoxdur" deyir və həqiqəti bildikləri halda Allaha qarşı yalan söyləyirlər. (Ali İmran surəsi, 75)**

**Onlardan elə bir dəstə də vardır ki, oxuduqlarını Kitabdan hesab edəsiniz deyə Kitabı oxuyarkən dillərini əyib bükürlər. Halbuki bu, Kitabdan deyildir. Onlar: "Bu, Allah tərəfindəndir!" deyirlər. Halbuki o, Allah tərəfindən deyildir. Onlar bilə-bilə Allaha qarşı yalan danışırlar. (Ali İmran surəsi, 78)**

Bəzi insanlar isə dini qəbul etməmək və Allahın yoluna tabe olmamaq üçün yalanlar uydururlar. Bu insanlar üçün Allah belə buyurur:

**İslama dəvət edildiyi halda, Allaha qarşı yalan uyduranlardan daha zalım kim ola bilər? Allah zalım bir qövmü doğru yola yönəltməz. (Saff surəsi, 7)**

Bəziləri də Allah barəsində yalanlar söyləyər və Allahı insanlara fərqli tanıtmağa çalışarlar. Bu məsələdə diqqət yetirilməli xüsus budur: bu insanlardan bəziləri Allaha iman gətirdiklərini söyləyə bilirlər, lakin rəftar və inancları, eləcə də, həyat tərzləri ilə Allaha iman gətirmədikləri aydın olar. Məsələn, çətin bir vəziyyətdə dərhal Allahın köməyindən ümid kəsərlər. Yaxud başlarına bir hadisə gəldikdə, dərhal ədalətsizliklə qarşılaşdıqlarını zənn edər, üsyankar olarlar. Halbuki Allahı lazımınca tanıyan bir insan Allah barəsində heç vaxt yanlış düşüncəyə qapılmaz. Allah Özü barədə yalan uyduranlar üçün ayələrdə belə bildirmişdir:

De: "Allah barəsində yalan uyduran iftira yaxanlar nicat tapmazlar". (Yunis surəsi, 69)

Allaha qarşı necə yalan uydurduqlarına bir bax. Bu, açıq-aydın günah olaraq kifayət edər. (Nisa surəsi, 50)

# Yalanı səmimi şəkildə etiraf etmək Allaha olan sədaqəti göstərər

Daha əvvəl də bəhs edildiyi kimi yalançılıq şeytana sədaqəti göstərər. Dürüstlük və ya yalanı səmimi şəkildə etiraf edərək doğrunu söyləmək isə insanın Allaha olan itaətini göstərər. İnsan, bir səhv edərək bir anlığa şeytana uyub yanlış bir söz söyləmiş ola bilər. Lakin dərhal sonra səhvini anlayaraq, yalanını etiraf etdiyi təqdirdə, şeytanın üzərindəki təsirini yox etmiş, ona sədaqət göstərməyərək, Allaha olan sədaqətini və Allahdan qorxub çəkindiyini göstərmiş olar.

Mömin, mənfəatinə xələl gəlsə belə mütləq dürüst olmalı, bir anlığa dalğın olub yanlış bir söz desə belə mütləq dərhal sonra həqiqətləri açıqlamalıdır. Allah bir ayəsində insanın əleyhinə belə olsa doğruları söyləməsini əmr edir:

**Ey iman gətirənlər! Şahidliyiniz özünüzün və ya valideynlərin, yaxud yaxınlarınızın əleyhinə olsa belə, Allah şahidləri olub ədaləti qoruyun. Onların varlı və ya kasıb olmasından asılı olmayaraq, Allah onların hər ikisinə daha yaxındır. Arzularınıza uyaraq haqdan uzaqlaşmayın! Əgər dilinizi əyib bükər (sözü gəvələyər) və ya həqiqəti deməkdən boyun qaçırsanız, şübhəsiz ki, Allah nə etdiklərinizdən xəbərdardır. (Nisa surəsi, 135)**

Bir insanın yalanını və ya başqa bir günahını etiraf edərək, Allahdan bağışlanma diləməsi və bu günahı bir də işləməmək üçün tövbə edərək söz verməsi, ona bir çox gözəllik və nemət qazandırar. Hər şeydən əvvəl mömin Allahın sevgisini və rəhmətini qazanmaq üçün bunu etməklə məsuldur. Həmçinin insanın belə bir etiraf edərək, səhvini düzəltməsi onun təkəbbürünü yox edər və ona təvazökarlıq bəxş edər.

Allah Quranın bir çox ayəsində işlədiyi günahdan sonra, səhvini görərək Allaha yönələn və tövbə edən möminlərin nümunələrini verir. Bu, mömin üçün gözəllik və Allahın rəhmətini, cənnətini və rizasını qazanmaq üçün bir vəsilədir. Bu ayələrdən bəziləri belədir:

**Digərləri isə günahlarını etiraf etdilər. onlar yaxşı əməli pis əməllə qarışdırıblar. Ümid edilir ki, Allah tövbələrini qəbul edər. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir! (Tövbə surəsi, 102)**

**Kim pis bir iş görsə və ya özünə zülm etsə, sonra da Allahdan bağışlanma diləsə, Allahın Bağışlayan, Rəhmli olduğunu görər. (Nisa surəsi, 110)**

**Lakin kim gördüyü haqsız işdən sonra tövbə etsə və (davranışlarını) düzəltsə, şübhəsiz ki, Allah onun tövbəsini qəbul edər. Həqiqətən Allah bağışlayandır, rəhm edəndir. (Maidə surəsi, 39)**

**"Və "çirkin həyasızlıq" etdikləri və ya nəfslərinə zülm etdikləri zaman, Allahı xatırlayıb dərhal günahlarından ötrü bağışlanma diləyənlərdir. Allahdan başqa kim günahları bağışlaya bilər? Bir də onlar etdikləri (pis şeylərdə) bilə-bilə israr etməzlər". Onların mükafatı, Rəbbindən bağışlanma və altından çaylar axan cənnətlərdir ki, orada əbədi qalacaqlar. Belə edənlərə necə gözəl mükafat var! (Ali İmran surəsi, 135-136)**

Günahını etiraf edərək tövbə edən bir insanın üzərindən şeytanın təsiri yox olmuş və bu insan Allahın yoluna tabe olmuş deməkdir. Allah Quranda bəzi insanların Allaha, bəzilərinin isə şeytana qulluq etdiklərini belə bildirir:

**Tağuta ibadət etməkdən uzaqlaşıb Allaha qəlbən yönələnlər isə; onlar üçün müjdə var, o zaman qullarıma müjdə ver. (Zumər surəsi, 17)**

Halbuki şeytanın insanlar üzərində çox zəif təsiri var. Şeytan təkcə yalanlar söyləyər, insanları aldatmaq üçün əhvalatlar pıçıldayar. Lakin heç vaxt insanlar üzərində məcburedici təsiri olmaz. Lakin mənfəətlərinə və dünyaya aludə olan, təkəbbürlü insanlar dərhal şeytanın təlqinlərinin təsirinə düşərlər. Möminlər isə Allaha olan sevgi və sədaqətlərinə görə, şeytanın təsirinə düşməzlər. Şeytan onlara qısamüddətli təsir göstərsə belə, dərhal Allahı düşünərək həqiqətləri görərlər. Allahın Quranda bildirdiyi kimi;

**həqiqət budur ki, iman gətirənlər və yalnız öz Rəbbinə təvəkkül edənlər üzərində, onun (şeytanın) heç bir məcburedici gücü yoxdur! Onun məcburedici gücü təkcə onu vəli tutanlarla, onunla Ona (Allaha) şərik qoşanlar üzərindədir! (Nəhl surəsi, 99-100)**

Allahdan qorxan bir insan, mənfəətlərinə nə qədər xələl gəlsə də, Allahın razı olmayacağı bir şeyi qətiyyən etməz. Hər davranışında tək meyarı Allahın rizasını, rəhmətini və cənnətini qazanmaqdır. Təkəbbürlü, nəfsinin aludəçisi, həmişə ehtiraslarının arxasınca qaçan bir insan isə, dərhal günah işləyə bilər.

Allah bir ayəsində bu iki fərqli xüsusiyyətə sahib insanları belə qarşılaşdırır:

**Ona: “Allahdan qorx!” deyildiyi zaman, təkəbbürü onu günaha sürükləyər, əhatə edər. Belə insana cəhənnəm kifayət edər. O nə pis məskəndir! İnsanların eləsi də var ki, Allahın rizasını axtar(ıb qazan)maq üçün canını da verər. Allah qullarına qarşı Şəfqətlidir. (Bəqərə surəsi, 206-207)**

Bu ayələrdə bəhs edilən insanlardan təkəbbürlü olan, nəfsi üçün asanlıqla yalan danışa bilər. Allahın rizası üçün nəfsini satan isə, mənfəətlərinə nə qədər xələl gəlsə də, qətiyyən yalan danışmaz.

İslam alimlərindən Mehmed Zahid Kotku, möminlərin niyə yalan danışmaq istəmədiklərini açıqlayaraq, yalançının düçar olacağı aqibəti belə xatırladır:

*...O zaman yalan, öz mənfəətini cəmiyyətin əleyhinə istifadə etmək olur ki, bu da, yəqin ki, təkcə şüurunu itirmiş, ağılsız, axmaq, hətta dinsiz və ya dini bilməyən sərsərilərindir. Özünü bilən insan heç vaxt yalana meyl etməz və üz tutmaz və bilər ki, yalan üz ləkəsidir; tez ya da gec ortaya çıxacaq. Bir müsəlman isə çox nəzakətlidir. Özünə ləkə gəlməsini qətiyyən istəməz. Bunun üçün yalana yanaşmaz və bilər ki, yalan münafiqlik əlamətidir. Allah sübhənəhu və təala həzrətləri yalan danışanı qətiyyən sevməz. Allah -Cəllə və Alinin -sevmədiyini, əlbəttə, Rəsulullah (s.ə.v)-də sevməz. Allah - Cəllə və Alinin - və onun Rəsulunun sevmədiyini, təbii ki, insanların və mələklərin də sevməsinə imkan yoxdur.*

*Bu zaman, yalançı; hər kəsin nifrət etdiyi, pisi, əxlaqsız, səviyyəsiz və dəyərsiz kimsə deməkdir. Dünyada da, axirətdə də halı pisdir. Sonra yalan, mərd insanların deyil, əclaf və daha doğrusu alçaq kəslərin işidir. Mərd insan, müsəlman olsun amma sonra işinə gəlmədiyi vaxt yalan söyləsin, heç olacaq şey deyil. Buna görə də, müsəlman həmişə mərd və dürüstdür. Yalana qətiyyən meyl etməz.*(14)

Mehmed Zahid Kotku, dürüstlükdən imtina etməməyin lazım olduğunu da bu sözləri ilə möminlərə tövsiyə etmişdir:

*"Dürüstlüyü axtarın. Hər nə qədər onda təhlükə varsa da, mütləq nicat yenə dürüstlükdədir. Dürüstlükdə izzət var, dürüstülkdən imtina etmə. Yalan, pis əxlaqdır. Ondan çəkin. Dünyada dürüstlük qədər yaxşı şey yoxdur. Allah və insanların yanında da, yalandan pis şey yoxdur".*(15)

# Yalançılığın həlli: Allah qorxusu

Bir insanın yalan deyə bilməsinin səbəbi, Allahı lazımınca tanımaması, Ondan qorxub çəkinməməsidir. Hər an Allahın özünü gördüyünü, eşitdiyini bilən, qəlbindən keçənləri, şüur altında olanları, hər an nə düşündüyünü, bu sətirləri oxuyarkən ağlından nələr keçirdiyini bildiyini bilən, bu həqiqəti qavrayan bir insan, heç vaxt yalan danışa bilməz. Allahın özünü əzaba düçar etməsindən qorxub çəkinər. Axirətdə hesabını verə bilməyəcəyi tək bir söz belə söyləməz. Diqqətsizlikdən və ya səhvən ağzından həqiqi olmayan tək bir söz belə çıxsa, dərhal onu düzəldər və Allahdan bağışlanma diləyər.

Yalançıların ən mühüm xüsusiyyəti, axirətə inanmamaları və ya şübhə ilə inanmaları və axirəti çox düşünməmələridir. Allahın, bir ayəsində bildirdiyi kimi; **"yalanı təkcə Allahın ayələrinə inanmayanlar uydurar..."** (Nəhl surəsi, 105).

Allahı tanıyan bir insan, yalan söyləməkdən ötrü dünyada və axirətdə alına biləcək qarşılıqlardan qorxub çəkinər. Allah Quranın bir çox ayəsində hiylə quranların hiylələrinin puç olduğunu bildirir:

**Bütün bunlar onların yer üzündə təkəbbür göstərmələrinə və yaramaz hiyləgərliklər törətdiklərinə görə idi. Yaramaz hiylələr isə ancaq öz sahiblərini qaplayar. Onlar əvvəlkilərin başlarına gələn aqibətdən başqasınımı gözləyirlər? Sən Allahın qayda-qanununa heç bir əvəz tapa bilməzsən, Allahın qayda-qanununda heç bir dəyişiklik də tapa bilməzsən. (Fatir surəsi, 43)**

Təkcə yalançılıq üçün deyil, bir insanın, digər bütün pis əxlaq xüsusiyyətlərini tərk etməsi üçün, Allahdan qorxub çəkinməsi, axirətin varlığına inanması və cəhənnəm əzabından qorxması lazımdır. Allah bir ayəsində; **"...sən təkcə Rəbbindən Onu görmədikləri halda "içləri titrəyərək qorxanları" və dosdoğru namazı qılanları xəbərdar edirsən. Kim təmizlənirsə, öz xeyrinə təmizlənmiş olur. Qayıdış da təkcə Allahadır"** (Fatir surəsi, 18) deyərək bu həqiqəti bildirmişdir.

Həmçinin yalançının yalanlarını hər dəfə ifşa etmək, ona inanmış görünərək ona ortaq olmamaq da, həmin insanı yalan danışmaqdan imtina etdirə bilər. Çünki insanlar yalanlarına səs çıxarılmadıqca insanları aldada bildiklərini zənn edir və buna görə də, həm təkəbbürlənir, həm də bu pis xasiyyətlərini tərk etmirlər.

Yalandan imtina etmək və bu məsələdə qətiyyətli olmaq üçün, həmin insan, insanların qarşısındakı vəziyyətinin heç bir əhəmiyyətinin olmadığını da düşünməlidir. Çünki yalan, ya nüfuz qazanmaq, ya da mənfəət üçün deyilər. Bir insan, insanların aciz qullar olduqlarını, onların rizasını deyil, Allahın rizasını qazanmağın əhəmiyyətli olduğunu qavradığı zaman, yalan danışmasının mənası və səbəbi də qalmayacaq.

# Axirətdə heç kim yalan danışa bilməyəcək

Dünyada söylədikləri hər şeydən məsul olduqlarını və axirətdə bunlardan hesaba çəkiləcəklərini unudaraq yalan söyləyən, hiyləgərlik edən, səmimiyyətsiz insanların, axirətdə yalan söyləməyə gücü çatmayacaq. Onlar yalan söyləməyə cəhd etsələr belə, Allah onların yalan söyləmələrinə imkan verməyəcək, onların ağızlarını möhürləyəcək, özlərini iradələrindən asılı olmadan danışdıraraq, onlar haqqındakı həqiqətləri söylətdirəcək.

Allah yalançının öz-özünə xəyanət etməsini və həqiqətləri ortaya çıxartmasını ayələrdə belə bildirir:

**Bu gün Biz onların ağızlarını möhürləyərik; qazandıqlarını (günahlarını və savablarını), əlləri Bizə söyləyər, ayaqları isə (əleyhlərində) şahidlik edər. (Yasin surəsi, 65)**

**Nəhayət, onlar oraya gəldikləri zaman qulaqları, gözləri və dəriləri etdikləri əməllər barəsində onların əleyhinə şahidlik edəcək.**

**Onlar öz dərilərinə: “Nə üçün əleyhimizə şahidlik edirsiniz?” deyəcəklər. Dəriləri deyəcək: “hər şeyi danışdıran Allah bizi danışdırdı. Sizi ilk dəfə O yaratmışdır və siz axırda Ona qaytarılacaqsınız”.**

**Siz qulaqlarınızın, gözlərinizin və dərilərinizin əleyhinizə şahid olmasından çəkinmirdiniz. Əksinə, etdiyiniz əməllərin bir çoxunu Allahın bilməyəcəyini zənn edirdiniz. Sizin öz Rəbbiniz barəsindəki bu zənniniz sizi məhv etdi və siz ziyan çəkənlərdən oldunuz. Əgər indi səbir edə bilsələr, artıq onların yeri oddur. Əgər onlar məmnun olmağa (dünyaya) dönmək istəsələr, artıq məmnun olmayacaqlar. (Fussilət surəsi, 20-24)**

Allah ayələrində "yalançı günahkarların" haqq-hesab günündə necə rəftar görəcəklərini və özləri illər ərzində içlərindəkiləri gizlətmiş olsalar da, o gün içlərindəkilərin necə ortaya çıxacağını belə bildirir:

**Xeyr; əgər o, (bu əməlinə) son qoymasa, onu kəkilindən tutub sürükləyəcəyik; o yalançı, günahkar kəkilindən (alnından). O zaman da məclisini (yaxın ətrafını və tərəfdarlarını) çağırsın. Biz də zəbaniləri çağıracağıq. Xeyr; ona boyun əymə (Rəbbinə) səcdə et və yaxınlaş. (Ələq surəsi, 15-19)**

**Həqiqətən, insan Rəbbinə qarşı nankordur və həqiqətən özü buna şahiddir. O mütləq mal sevgisindən ötrü (eqoist və xəsisliyinə görə) çox qatıdır. Yenə də bilməyəcək? Qəbirlərdə olanların çölə çıxarılacağı və kökslərdə olanlar aşkar ediləcəyi zamanı? (Adiyat surəsi, 6-10)**

Dünya həyatında yalançıların yalanları həmişə üzlərinə vurulmaz. Bəzən yalan söylədikləri görülməz, bəzən də yalanlarına səbir göstərilər. Lakin axirətdə hər insan etdiyi hər pisliyin qarşılığını misliylə alacaq. Allah bir ayədə ölüm anında belə, mələklərə yalan söyləyənlərin yalanlarının necə qəbul edilmədiyini və özlərinə verilən cavabı belə xəbər verir:

**Mələklər öz nəfslərinə zülm edənlərin canlarını alarkən deyəcəklər: "Harada idiniz?" Onlar: "biz yer üzündə zəif insanlar idik" deyəcəklər. (Mələklər də:) "Hicrət etməyiniz üçün Allahın ərzi geniş deyildimi?" deyəcəklər. Məhz onların sığınacaqları yer Cəhənnəmdir. Ora nə pis yataqdır? (Nisa surəsi, 97)**

Allah Özünə qarşı yalanlar söyləyənlərin ölüm anlarını və uğradıqları aqibəti isə ayədə belə bildirir:

**Allaha qarşı yalan uydurub böhtan atandan və ya özünə heç nə vəhy olunmadığı halda: "mənə də vəhy gəldi" deyən və "Allahın endirdiyinin bənzərini mən də endirəcəyəm" deyəndən daha zalım kim ola bilər? Sən bu zalımları ölümün "şiddətli sarsıntıları" vaxtı, mələklərin əllərini uzadaraq onlara: "canlarınızı (bu cəld yaxalanmadan) çıxardın, bu gün Allaha qarşı nahaq söz söylədiyinizə və Onun ayələrindən təkəbbürlənərək (üz döndərdiyinizə) görə alçaldıcı əzabla qarşılıq alacaqsınız!" (dediklərində) görsəydin... (Ənam surəsi, 93)**

Allahın qoyduğu hüdudları pozanlar, yalanı vərdiş halına gətirənlər, axirətdə yalanlarından ötrü böyük peşmançılıq duyacaqlar. Ağıl və vicdan sahibi hər insan, bu aqibəti düşünərək yalanın böyük-kiçik istənilən formasından uzaq dayanmalı, həmişə doğru sözlü olmalıdır.

# Peyğəmbərimiz (s.ə.v)-in yalandan çəkinməklə əlaqədar hədisləri

*"Qiyamət günü Allah dərgahında məxluqlarının heç sevilməyənləri yalançılar, təkəbbürlülər və qardaşlarına qarşı qəlblərində amansız kin bəsləyənlər olacaq..."*(16)

*"Qiyamət günü Allah qullarının ən səfillərinin bunların yanına bu sözlə, onların yanına da o sözlə gələn ikiüzlü kəslərin olduğunu görəcəksiniz".*(17)

*"Dostuna söylədiyin bir sözdə, o səni təsdiqləyərkən sənin ona yalan danışmağın böyük xəyanətdir".*(18)

*"Qul yalan danışa-danışa və yalanı axtara-axtara Allah dərgahında çox yalançı yazılar".*(19)

*"Yalan ruzini azaldar".*(20)

*"Sənə Allah qorxusunu, doğru sözlülüyü, əmanəti sadiq olmağı, əhdə vəfa göstərməyi, yemək yedirməyi və təvazökar davranmağı, bol-bol salam verməyi tövsiyə edirəm".*(21)

*"Allaha and içən insan, andına ağcaqanad qanadı qədər (kiçik) yalan daxil etsə, bu yalan qiyamət gününə qədər qəlbində ləkə kimi qalar".*(22)

*"Allahım qəlbimi nifaqdan, məhrəm yerlərimi zinadan, dilimi də yalandan təmizlə".*(23)

*"Böhtanın, yalanın ən böyüyü görmədiyi yuxunu gözlərinə isnad edərək gördüm deməkdir".*(24)

*"(Müsəlmanlar) Sahabələrimə və onlardan sonra gələnlərə yaxşı davranın. Daha sonra yalan yayılar, insan özünə and içməyi təklif edilmədən and içər, şahidlik etməyi istənilmədən şahidlik edər".*(25)

*"Yalan olduğunu bilə-bilə mənə bir söz isnad olan yalançılardan biridir".*(26)

*"Siz dürüstlüyə davam edin, çünki dürüstlük mütləq sahibini xeyirlərə nail edər. Yaxşılıqlar da cənnətə hidayət edər, aparar. Dürüstlüyə davam etdikcə və doğrunu axtardıqca Allahın yanında dürüstlük kimi yazılar. Yalandan çəkinin, yalan insanı mütləq günaha aparar, günah isə oda, yəni cəhənnəmə aparar, qul yalana davam etdikcə və yalanı axtardıqca İlahinin yanında yalançı yazılar".*(27)

*"Müsəlmanda... xainlik və yalan ola bilməz".*(28)

*"Bir nəfər Rəsulullah (s.ə.v)-ə: "Cənnətə aparan əməl nədir?" dedi. Peyğəmbər də "sədaqət, düzgünlükdür, doğru söz söyləməkdir. Çünki qul doğru söz söylədikdə yaxşılıq edər, lütfkarlıq edər, belə lütfkarlıq edərkən, Allah da iman nəsib edər, beləliklə də o, Allahın varlığını təsdiqləyər, Ondan qorxar, yaxşı əməllər işləyər, ibadətləri edər,*

*günahlardan da qaçar, beləcə, iman sahibi olduqda da cənnətə girər". Yenə həmin şəxs: "Cəhənnəmə aparan əməl nədir? deyə sual verdi, Cənabı Peyğəmbər də: "Yalandır, yalan danışmaqdır. Qul yalan danışdıqda fasiq olar, günahkar olar, haram və günah işləyər. Günahkar, fasiq olduqda Allahın nemətini görə bilməz, üsyan edər, nemətə nankorluq edər. Nemətə nankorluq etdikdə də cəhənnəmə girər".*(29)

*"Əgər siz Allah və Rəsulunun sizi sevməsini istəyirsinizsə, sizə verilən əmanəti sahibinə qaytarın. Söylədiyiniz vaxt doğru söyləyin, qonşularınız ilə yaxşı qonşuluq edin".*(30)

*"Münafiqin əlaməti üçdür: danışdığı vaxt yalan söyləyər, vəd verdikdə vədindən dönər və əmanət edilən şeyə xəyanət edər".*(31)

*"Yalanda xeyir yoxdur".*(32)

*"Yalan üz qızardar, söz daşımaq qəbirdə əzabdır".*(33)

*"Dürüstlük insanı Allahı razı salacaq yaxşılığa, Allahı razı salacaq yaxşılıq da cənnətə aparar. İnsan, doğru söyləyər və doğrunu axtarar da nəhayətdə Allahın dərgahında sıddıq (doğru sözlü) deyə yazılar. Yalan da insanı həddi aşmağa aparar. Həddi aşmaq da oda aparar. İnsan yalan söyləyər və yalanı araşdırar, nəticədə Allahın dərgahında yalançı kimi qəbul olunar".*(34)

*"Sənə şübhə verən şeyi tərk et, əmin olduğun şeyə çatana qədər get. Çünki sidq (dürüstlük) qəlbin etimadıdır, yalan şübhədir".*(35)

*"Qətiyyən yalana yaxınlaşmayın".*(36)

*"Yalan söz böyük günahlardandır".*(37)

*"Allahın qiyamət günündə ən nifrət edilən məxluqu yalançı və təkəbbürlüdürlər və bir də din qardaşlarına qarşı içlərində nifrət saxlayanlardır, siz bunlarla qarşılaşsanız siz də onlar kimi davranın. Bunlar Allah və Onun Rəsuluna itaətə çağrılsalar çox asta davranarlar, şeytanın yoluna və əmrinə çağrılsalar sürətlə gedərlər".*(38)

*Abdullah İbn Abbas (r.ə) deyir: Peyğəmbər (s.ə.v)-dən kamalın nə olduğu soruşuldu. Bu cavabı verdi: "haqqı söyləmək və sədaqətlə əməl etməkdir".*(39)

*"Yalandan uzaq durun, çünki yalan günahla birlikdədir və hər ikisi də oddadır".*(40)

*"Heç vaxt doğru olmaqdan əl çəkməyin. Doğruluq yaxşılıqla birlikdə olub, ikisi də cənnətdədir".*(41)

# İslam alimlərinin yalanın zərərləri ilə əlaqədar sözləri

**Qəzali**: "Yalan böyük günahların analarındandır. İnsan yalançı tanınsa sözünə etimad edilməz, gözlərdən düşər, nəzərlərdə dəyərsiz olar. Yalanın çirkinliyini anlamaq istəsən, başqalarının yalanının çirkinliyinə bax, nəfsin ondan nə qədər nifrət duyacaq gör, yalanının sahibini nə qədər xor görəcəyinə, söyləyəcəyi yalanını nə qədər çirkin hesab edəcəyinə diqqət yetir... "(42)

**Münavi**: "Yalanın çirkinliyi, arxasınca bütün fəvahişi (çirkinlikləri, qadağaları) gətirməsinə görədir. Yalanın tərk edilməsiylə fəvahiş də tərk edilər".(43)

**Bədiüzzaman Səid Nursi**: "...Sidq (dürüstlük), İslamiyyətin həqiqi möhkəm təməlidir və ülvi səciyyələrinin rabitəsidir (əlaqəsidir) və hissiyyatı-ülviyəsinin mizacıdır (ülvi hislərin fitrətidir). O zaman həyatı-ictimaiyyəmizin (ictimai həyatımızın) əsası olan sidqi, dürüstlüyü içimizdə əhya edib (canlandırıb) onunla mənəvi xəstəliklərimizi müalicə etməliyik.

Bəli sidq və dürüstlük İslamiyyətin həyatı-ictimaiyyəsində (ictimai həyatında) ükdəyi-həyatiyəsidir (həyat düyündür). Riyakarlıq feli (hərəkəti) bir nəvi (bir cür) yalançılıqdır. Yaltaqlıq və süni hərəkət alçaqcasına yalançılıqdır. Nifaq və münafiqlik müzir (zərəli) yalançılıqdır. Yalançılıq isə: Sani-Zülcəlalın qüdrətinə böhtan atmaqdır. Küfr, bütün ənvaıyla (növləriylə) kizbdir, yalançılıqdır. İman, sidqdir, dürüstlükdür. Bu sirrə binaən (əsasən) kizb və sidqin ortasında hədsiz məsafə var. Şərq və qərb qədər bir-birindən uzaq olmalıdır. Nar (od) və nur kimi bir-birinə girməmək lazımdır...

Bu sidq və kizb, küfr və iman qədər bir-birindən uzaq, əsri-səadətdə sidq vasitəsilə Məhəmməd (s.ə.v)-in alayı-illiyinə (cənnətdə ən yüksək dərəcəyə) çıxması və o sidq açarıyla iman həqiqətlərinin və kainat həqiqətlərinin xəzinəsinin açılması sirri ilə ictimayatı-bəşəri (insan cəmiyyəti) bazarında sidq ən rəvaclı (qiymətli) bir mal və satın alınacaq ən dəyərli meta (əşya) hökmünə keçib.

Həmçinin kizb vasitəsilə Müseyləmə Kəzzabın əmsalı (bənzəri), əsfəli-safilinə (cəhənnəmin ən aşağı təbəqəsindəkilər) sükut etmiş və kizb o zamanda küfrün və xurafatların açarı olduğunu o inqilabı-əzm (genişmiqyaslı dəyişiklik) göstərdiyindən kainat bazarında ən fəna (pis), ən pis bir mal olub, o malı satın almaq deyil; hər kəs nifrət etməsi hökmünə keçən kizb və yalana,... Səhabələr; əlbəttə, şübhəsiz ki, bilərək əllərini yalana uzatmazlar. Kizblə özlərini müləvvəs etməzlər (çirkləndirməzlər). Özlərini Müseyləmə Kəzzaba bənzətməzlər...

Nəcat (qurtuluş) təkcə sidqlə, dürüstlüklə olar. "Ürvətülvüska" sidqdir. Yəni ən möhkəm və onunla bağlanacaq zəncir dürüstlükdür..."(44)

**"Yalan, bir ləfzi-kafirdir (inkarçı, haqqı örtən sözdür).**

Bir dənə sidq, yandırar milyonla yalanı. Bir danəyi-həqiqət (həqiqət dənəsi), darmadağın edər qəsri-xəyalı (xəyal sarayını). Sidq böyük əsasdır, bir cövhəri-ziyalıdır (parıldayan cövhərdir).

Yeri verər sükuta, əgər çıxsa zərərli... Yalana heç yer yoxdur, çəndan (nə qədər) olsa faydalı. Hər sözün doğru olsun, hər hökmün haqq olmalı.

Lakin haqqın ola bilməz, hər doğrudan danışmaq... Gözəl gör, həm gözəl bax. Ta gözəl düşünməli. Gözəl bil, həm gözəl düşün. Ta ləziz həyatı tapmalı.

Həyat içində həyatdır, hüsn-zənndə əməli. Sui-zənnlə yeisdir (ümidsizlikdir): səadət mühərribi (səadəti yox edən), həm də həyatın qatili".[45]

Mehmed Zahid Kotku: "münafiqin əlaməti üçdür: danışdığı vaxt yalan söyləyər, vəd verdikdə vədindən dönər və əmanət edilən şeyə xəyanət edər". Məhz çox sadə kimi görünən bu çox çirkin üç xasiyyət hər kimdə olsa, ona dərhal münafiq adını verməkdə heç tərəddüd etmərik.

Münafiqlik iki qisimdir: biri əməli nifaq, biri də etiqadı nifaqdır ki, bu ən ağırıdır. Hər ikisinin də əlaməti qeyd edilən bu üç şeydir.

Əvvəla yalan danışmaq, hər qövmün, hər millətin, hər şəxsin yanında olduqca pisdir. Dilimizdə: "yalançının şamı gecə namazına qədər yanar" deyərlər ki, işıq insana əsil gecə vaxtı lazımdır. Yalan danışsan gecə sənə lazım olacaq işıqdan məhrum qalarsan və bütün gecə qaranlıqda qalarsan, işığa ehtiyacın olduğu bir vaxtda işıq tapa bilməzsən deməkdir. Sonra yalan insanın üzünü qaraldar, hər yerdə adına yalançı deyərlər, sözünə, söhbətinə heç kim qulaq asmaz. Daha sonra sənin uşaqların da səndən yalanı öyrənərlər, onlar da yalançı olarlar. Daha sonra sənə heç kim etimad etməz, insanlar arasında etimadı itirmək qədər təhlükəli vəziyyət təsəvvür oluna bilməz. Daha sonra söz, insanın mayasıdır. Mayası necədirsə, sözü də elədir. Mayası, zatı xarab olanın sözləri də yalan olar. Zatı, mayası təmiz olanın sözü qızıl kimi qiymətlidir; həmişə doğru söyləyər, yalandan olduqca qorxar, qətiyyən söyləməz. Çünki; "insana yaraşan dürüstlükdür" deyər. Dürüst insanın köməkçisi də Allahdır. Buna zərrə qədər şübhə etmə. Quran bizə həmişə dürüstlüyü tövsiyə edər.

**"Bizi doğru yola yönəlt". (Fatihə surəsi, 5)**

Əsla unutma! Bütün nicat, səadət, dövlət, nemət həmişə dürüstlükdədir. Cənnət isə dürüstlərin məkanıdır. Haqqın rizası dürüstlükdədir.

Yalan, ilan kimi əyri-üyrü gedər, düzgün gedə bilməz. Buna görə də, hər kəs ondan qorxar, heç kim də sevməz.

...Bu gün dünya insanları içərisində, dinsizlər də var, başqa din sahibləri də var. Bunların heç biri yalanı sevməz. Dinsiz olduqları halda, axirətə inancları olmadığı halda yalan danışmayan kafirlərin də olduğunu unutma".(46)

"Cənnət əhlinin işi həmişə doğru söyləmək, cəhənnəm əhlinin işi də yalançılıqdır. Allah hər birimizi yalandan və yalançılıqdan qorusun. Çünki yalan qəlbdə kiçik də olsa qara nöqtə, iz salar, sonra qəlbi zəbt edər, qəlb qapqara olar. Bundan sonra da bu insandan, əlbəttə, bir xeyir gəlməz. Nasın (insanların) xeyirlisi deyil, bəlkə də nasın (insanların) şərlisi olar. Təbii ki, bu zaman cənnət nasın (insanların) yaxşıları üçündür. Cəhənnəm də əksinə nasın (insanların) şərliləri üçündür".(47)

**Əbdülqadir Gilani**: "Şeytan sənə nələr etmədi ki... Yalanı sənə sevdirdi. Səhv işləri sənin üçün bəzədi".(48)

"Ayıb olsun sənə, xalqa dürüst olmağı söyləyirsən; lakin işin yalandır..."(49)

"Dürüstlük yer üzündə Allahın qılıncıdır. Hansı şeyin üzərinə qoyulsa onu kəsər".(50)

"Allah qulda dürüstlük istəyər. Ona çatmaq istəyənə mərifət nuru lazımdır. İrfan sahiblərinin qəlbində mərifət günəşi doğub. Bu Günəş gecə-gündüz sönməz. Bu günəşə sahib olanlar dürüst olarlar".(51)

**Abdullah ibn Abbas (r.ə)**: "dörd xüsusiyyəti daşıyan xeyir qazanmışdır: dürüstlük, həya, gözəl əxlaq və şükür".(52)

**Hz. Əli (r.ə)**: "Allah dərgahında ən böyük səhv, çox yalançı dildir. Ən yaman peşmançılıq da qiyamət günü duyulacaq peşmançılıqdır".(53)

**Hz. Ömər (r.ə)**: "bizim yanımızda sizin ən sevimliniz adlarınız, ən gözəl olanınız deyil, sizi görəndə ən xoşumuza gələnləriniz, ən gözəl xasiyyətdə olanlarınız olar. Sizi sınadığımız zaman, ən bəyəndiyimiz ən doğru danışanlarınız və əmanətə ən çox dəqiqlik göstərənlərinizdir".(54)

"Yalanın insan üçün səviyyəsizlik olduğunu öyrəndiyimdən bəri yalan danışmamışam".(55)

**Hz. Aişə (r.ə)**: Peyğəmbər (s.ə.v)-in səhabələrinin xoşlarına gəlməyən ən pis əxlaqsızlıq yalan idi...(56)

**Meymuni ibn Əbu Şəbib**: "bir gün oturub məktub yazırdım. O vaxt bir söz daha əlavə etmək vəziyyəti ilə üz-üzə qaldım. Əgər o sözü yazsam məktubu təmtəraqlı etmiş, lakin yalan danışmış olacaqdım. Sonra yazmamaya qərar verdim. Bundan sonra ağlıma İbrahim surəsinin 27-ci ayəsi gəldi: "Allah iman gətirənləri dünya həyatında və axirətdə möhkəm söz üzərində saxlayar, zalımları da azdırar. Allah istədiyini edər".(57)

**Malik ibn Dinar**: "bir kitabda bunları oxumuşdum: Hər katibin danışdıqları əməli ilə müqayisə edilər. Əgər sözləriylə əməlləri üst-üstə düşərsə dürüst insan kimi qiymətləndirilər. Üst-üstə düşməzsə yalançı sayılar..."(58)

"Dürüstlük ilə yalan qəlbdə döyüş vəziyyətindədir. Biri digərini çıxardana qədər bu döyüş davam edər,"(59)

**Əbu Hüreyrə (r.ə):** "İkiüzlünün Allah dərgahında etibarlı biri olması qeyri-mümkündür".(60)

# Nəticə
# Dürüst olanlar həmişə qazanar

İnsanların bir çoxu özünə görə kiçik yalanlar söylədiyini düşündüyü üçün "yalançı" sifətini özünə yaraşdırmaz. Bu, nəyin yalan olduğunu düşünməmələrindən qaynaqlana bilər. Lakin hər nə olsa da, insanın bəzən "bundan nə olacaq" deyərək görməzlikdən gəldiyi və bəzən də özünə görə əsaslı bəhanələr tapdığı yalanlar, ətrafı tərəfindən normal qarşılansa da, həmin insanın sonsuza qədər davam edəcək axirət həyatını böyük təhlükə altına sala bilər.

Dünya həyatında, yalan danışan, hiyləgərlik və ikiüzlülük edən insan, ilk baxışda bəzi qazanclar əldə edir, mənfəətlər təmin edir kimi görünə bilər. Lakin bu vəziyyət aldadıcıdır. Yalançı, nəticə etibarilə həmişə itirər. Dünyada həqiqi dostluğu, sevgini, etimadı, səmimiyyəti, yaxınlığı, hüzur və rahatlığı yaşaya bilməz; axirətdə isə çox şiddətli əzabla qarşılıq ala bilər. Allah yalançıların vəziyyətini belə bildirmişdir:

**Məhv olsun, o “zənn və təxminlə yalan danışanlar”, belə ki, onlar, “cahilliyin əhatəsində” olan qafillərdir. (Zəriyət surəsi, 10-11)**

Dürüst insan isə bəzən bir sıra çətinlikləri gözə almaq məcburiyyətində qala bilər. Lakin dürüst və səmimi olduğu üçün həmişə qazanar. Allah onun gözəl əxlaqı müqabilində, dünyada və axirətdə ona, nemətini, rəhmətini, sevgisini, rizasını bəxş edər və onu cənnətlə mükafatlandırar. Allah dürüst insanların və səmimi möminlərin qarşılaşacağı gözəl nəticəni Quranda belə bildirmişdir:

**Allah dedi: “Bu, dürüstlərə, doğru danışmalarının fayda verəcəyi gündür! Onlar üçün altından çaylar axan və içində əbədi qalacaqları cənnətlər var”. Allah onlardan razı oldu, onlar da Ondan razı oldular. Məhz, böyük “qurtuluş və xoşbəxtlik” budur. (Maidə surəsi, 119)**

Peyğəmbərimiz (s.ə.v.) də insanların dürüstlükdən imtina etməmələrini, yalandan çəkinməli olduqlarını bu hikmətli sözləri ilə insanlara tövsiyə edir:

*"Siz dürüstlüyə davam edin, çünki dürüstlük mütləq sahibini xeyirlərə nail edər. Yaxşılıqlar da cənnətə hidayət edər, aparar. Dürüstlüyə davam etdikcə və doğrunu axtardıqca Allahın yanında dürüstlük kimi yazılar. Yalandan çəkinin, yalan insanı mütləq günaha aparar, günah isə oda, yəni cəhənnəmə aparar, qul yalana davam etdikcə və yalanı axtardıqca İlahinin yanında yalançı yazılar".*[61]

# Haşiyələr

*1) Kütüb-i Sitte Muhtasarı Tercüme ve Şerhi, Prof. Dr. İbrahim Canan, Akçağ nəşriyyatı, 14-cü cild, səh. 552; Tirmizi, Birr 26, (1940)*

*2) Sahih-i Buhari, Üçdal nəşriyyatı, 3-cü cild, səh. 81*

*3) Kütüb-i Sitte Muhtasarı Tercüme ve Şerhi, 10-cu cild, səh. 6-7*

*4) Kütüb-i Sitte Muhtasarı Tercüme ve Şerhi, 15-ci cild, səh. 209*

*5) İmam Gazali, İhya'u Ulum'id-din, Huzur nəşriyyat evi, 1998, 3-cü cild, səh. 309; Buhari ve Müslim'den*

*6) Mehmed Zahid Kotku, Tasavvufi Ahlak 5, Seha nəşriyyatı, səh. 166*

*7) Abdülkadir Geylani, İlahi Armağan, tərcüməçi: Abdülkadir Akçiçek, Rahmet nəşriyyatı, Ankara 1962, 2-ci cild, səh. 16*

*8) Kütüb-i Sitte Muhtasarı Tercüme ve Şerhi, 10-cu cild, səh. 6*

*9) Kütüb-i Sitte Muhtasarı Tercüme ve Şerhi, 14-cü cild, səh. 548*

*10) İmam-ı Rabbani, Müjdeci Mektuplar, Hakikat nəşriyyatı, 11-ci nəşr, İstanbul 1994, səh. 262*

*11) İmam Gazali, İhya'u Ulum'id-din, 3-cü cild, səh. 299*

*12) İmam Gazali, İhya'u Ulum'id-din, 3-cü cild, səh. 299*

*13) İmam Gazali, İhya'u Ulum'id-din, 3-cü cild, səh. 347*

*14) Mehmed Zahid Kotku, Tasavvufi Ahlak 5, səh. 165*

*15) Mehmed Zahid Kotku, Hadislerle Nasihatlar, 1-ci cild, Seha nəşriyyatı, İstanbul 1984, səh. 279*

*16) İmam Gazali, İhya'u Ulum'id-din, 3-cü cild, səh. 355*

*17) İmam Gazali, İhya'u Ulum'id-din, 3-cü cild, səh. 355; Buhari ve Müslim'den*

*18) İmam Gazali, İhya'u Ulum'id-din, 3-cü cild, səh. 299*

*19) İmam Gazali, İhya'u Ulum'id-din, 3-cü cild, səh. 299*

*20) İmam Gazali, İhya'u Ulum'id-din, 3-cü cild, səh. 300*

*21) İmam Gazali, İhya'u Ulum'id-din, 3-cü cild, səh. 304; Ebu Nuaym, el-Hılye'de təxric etmişdir*

*22) İmam Gazali, İhya'u Ulum'id-din, 3-cü cild, səh. 300; Tirmizi ve Hakim'den*

*23) İmam Gazali, İhya'u Ulum'id-din, 3-cü cild, səh. 301; el-Hatib, et-Tarih'te təxric etmişdir*

*24) Sahih-i Buhari, 4-cü cild, səh. 421*

*25) İmam Gazali, İhya'u Ulum'id-din, 3-cü cild, səh. 302; Tirmizi'den*

*26) İmam Gazali, İhya'u Ulum'id-din, 3-cü cild, səh. 303; Müslim'den*

*27) Mehmed Zahid Kotku, Hadislerle Nasihatlar, 1-ci cild, səh. 279; Buhari ve Müslim'den*

*28) İmam Gazali, İhya'u Ulum'id-din, 3-cü cild, səh. 303; İbn Ebi Şeybe, el-Musannaf'ta təxric edilmişdir*

*29) Mehmed Zahid Kotku, Hadislerle Nasihatlar, 1-ci cild, Seha nəşriyyatı, istanbul 1984, səh. 281*

*30) Mehmed Zahid Kotku, Hadislerle Nasihatlar, 1-ci cild, səh. 278; Taberani'den*

*31) Mehmed Zahid Kotku, Hadislerle Nasihatlar, 1-ci cild, səh.14*

*32) Kütüb-i Sitte Muhtasarı Tercüme ve Şerhi, 14-cü cild, səh. 554*

*33) Kütüb-i Sitte Muhtasarı Tercüme ve Şerhi, 10-cu cild, səh. 5-6*

*34) Buhari, Edeb 69; Müslim, Birr 102, 103, (2006, 2607); Muvatta, Kelam 16, (2, 989); Ebu Davud, Edeb 88, (4989); Tirmizi, Birr 46, (1972); Kütüb-i Sitte Muhtasarı Tercüme ve Şerhi, 10-cu cild, səh. 9*

*35) Tirmizi, Kıyamet 61, (2520); Nesai, Eşribe 50, (8, 327, 328); Kütüb-i Sitte Muhtasarı Tercüme ve Şerhi, 10-cu cild, səh. 9*

*36) Kütüb-i Sitte Muhtasarı Tercüme ve Şerhi, 10-cu cild, səh. 11*

*37) Sahih-i Buhari, 3-cü cild, səh. 81*

*38) Mehmed Zahid Kotku, Hadislerle Nasihatlar, 1-ci cild, səh. 45*

*39) İmam Gazali, İhya'u Ulum'id-din, 4-cü cild, səh. 779*

*40) İmam Gazali, İhya'u Ulum'id-din, 3-cü cild, səh. 299; İbni Mace ve Nesai'den*

*41) İmam Gazali, İhya'u Ulum'id-din, 3-cü cild, səh. 303; İbni Mace ve Nesai'den*

*42) Kütüb-i Sitte Muhtasarı Tercüme ve Şerhi, 10-cu cild, səh. 6*

*43) Kütüb-i Sitte Muhtasarı Tercüme ve Şerhi, 10-cu cild, səh. 6*

*44) Kütüb-i Sitte Muhtasarı Tercüme ve Şerhi, 10-cu cild, səh. 7-8*

*45) Risale-i Nur Külliyatı, Sözler, səh. 711*

*46) Mehmed Zahid Kotku, Hadislerle Nasihatlar, 1-ci cild, səh. 14-16*

*47) Mehmed Zahid Kotku, Hadislerle Nasihatlar, 1-ci cild, səh. 280*

*48) Abdülkadir Geylani, İlahi Armağan, 2-ci cild, səh. 16*

*49) Abdülkadir Geylani, İlahi Armağan, 2-ci cild, səh. 17*

*50) Abdülkadir Geylani, İlahi Armağan, 2-ci cild, səh. 23*

*51) Abdülkadir Geylani, İlahi Armağan, 2-ci cild, səh. 53*

*52) İmam Gazali, İhya'u Ulum'id-din, 4-cü cild, səh. 778*

*53) İmam Gazali, İhya'u Ulum'id-din, 3-cü cild, səh. 304*

*54) İmam Gazali, İhya'u Ulum'id-din, 3-cü cild, səh. 304*

*55) İmam Gazali, İhya'u Ulum'id-din, 3-cü cild, səh. 304*

*56) İmam Gazali, İhya'u Ulum'id-din, 3-cü cild, səh. 303*

*57) İmam Gazali, İhya'u Ulum'id-din, 3-cü cild, səh. 304*

*58) İmam Gazali, İhya'u Ulum'id-din, 3-cü cild, səh. 304*

*59) İmam Gazali, İhya'u Ulum'id-din, 3-cü cild, səh. 304*

*60) İmam Gazali, İhya'u Ulum'id-din, 3-cü cild, səh. 355*

*61) Mehmed Zahid Kotku, Hadislerle Nasihatlar, 1-ci cild, səh. 279; Buhari ve Müslim'den*

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

## Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən “Növlərin mənşəyi” adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı “Nəzəriyyənin qarşısında duran çətinliklər” başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez

bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

**Keçilməz ilk pillə: həyatın mənşəyi**

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

**Həyat həyatdan gəlir**

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri “spontane generation” adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin “Növlərin mənşəyi” adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

**XX əsrdəki nəticəsiz səylər**

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

"Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

“Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb”. *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

**Həyatın kompleks quruluşu**

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

**- Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**

**- Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**

**- Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**

**-Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur

təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

**Təkamülün xəyali mexanizmləri**

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz"**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

**Lamarkın təsiri**

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində

yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

**Neodarvinizm və mutasiyalar**

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast

gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

**Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur**

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

"Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

## Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

"Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük". (Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

"Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar". *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

## İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

*Australopithecus*

*Homo habilis*

*Homo erectus*

*Homo sapiens*

Təkamülçülər insanların ilk “meymunabənzər əcdadları”na “cənub meymunu” mənasını verən “australopithecus” adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, “The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt”, Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də “homo”, yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: “*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib”, - deyərək bunu qəbul edir. *(J. Rennie, “Darwin’s Current Bulldog: Ernst Mayr”, Scientific American, Aralık 1992)*

Təkamülçülər “*ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens*” ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

“Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər”. *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

"Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

**Darvin formulu!**

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta

normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah'ın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

### Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə

görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif

olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

**Beyinin içində görən və eşidən şüur kimə aiddir?**

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah’ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah’ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

**Materialist inanc**

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər.

Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". *(Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah'ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah'dır.

## Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq

olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah'ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**...Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur!**

**Həqiqətən, Sən bilənsən, müdriksən!**

**(Bəqərə surəsi, 32)**

Bu kitabın mövzusunu təşkil edən yalançılıq, insanların bir hissəsinin üstündə çox dayanmadığı, başqaları etdiyi zaman, çox vaxt görməzlikdən gəldiyi, özləri etdikdə isə günahsız hesab etdikləri və insanların çox böyük hissəsinin sahib olduğu pis bir xüsusiyyətdir.

Dünyanın hər yerində, hər təbəqədən olan insanların mühüm hissəsi, kiçik yaşlarından etibarən tez-tez yalana müraciət edər. Bəziləri insanlara göstəriş etmək üçün, bəziləri təkəbbüründən, bəziləri insanları güldürmək üçün, bəziləri müəyyən mənfəət təmin etmək üçün, bəziləri kimdənsə özünü qorumaq üçün, bəziləri də başqasına pislik edərək böhtan atmaq üçün yalan danışar. Böyük əksəriyyəti isə çox sadə səbəblərdən ötrü və ya sırf vərdiş etdiyi üçün yalan danışar, lakin yalanın əslində nə qədər pis əxlaq pozuntusu olduğunu, Allahın yalan deyilməsini qadağan etdiyini və yalançıların axirətdə cəhənnəmlə qarşılıq görəcəklərini heç düşünməz.

Bu kitab insanları, kiçik, günahsız və ya zərərsiz hesab etdikləri, lakin özləri üçün böyük təhlükə olan yalançılığa qarşı xəbərdar etmək, onlara yalan danışmağın haram olduğunu xatırlatmaq üçün hazırlanmışdır. Kitabda yalançılığın üsullarının ortaya çıxarılması, yalan danışanların əsaslandıqları üsullarını əllərindən alacağı üçün, müəyyən mənada onları dürüstlüyə məcbur edəcək.